# Mən fəxr edirəm Azərbaycan Vətənimdir



Zəkəriyyə MEHDİZADƏ

## Qəzəllər

ZƏKƏRİYYA MEHDİZADƏ

# MƏN FƏXR EDİRƏM AZƏRBAYCAN VƏTƏNİMDİR!

QƏZƏLLƏR

Bakı - 2021

Tərtib edən: Ramiz Mehdizadə

Ön söz: Fərrux Rüstəmov

Redaktor: Samir Mehdi-zadə

Korrektor: Gülnar Əliyeva

Zəkəriyyə Məmməd oğlu Mehdizadə
MƏN FƏXR EDİRƏM AZƏRBAYCAN VƏTƏNİMDİR!
Qəzəllər.
Bakı, 2021, 395 səh.

Kitabda psixoloq-alim, professor Zəkəriyya Məmməd oğlu Mehdizadənin 1944-1989-cu illər ərzində müxtəlif mövzularda qələmə aldığı 316 qəzəli toplanıb çap edilmişdir. Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, Zəkəriyya Mehdizadə poeziyaya da xüsusi maraq göstərmiş, bədii yaradıcılıqla məşğul olmuşdur. Əsasən vətənpərvərlik hissi, məhəbbət, psixoloji mövzuları və ictimai problemləri əhatə edən qəzəllərində vətən sevgisi, dürüst insan obrazı, saf məhəbbət, qürur, vəfa, gözəlliyə pərəstiş kimi insani hisslər tərənnüm edilir. Kitabın çap edilməsində əsas məqsəd Zəkəriyya Mehdizadənin bədii yaradıcılıq nümunələrini qoruyub, gələcək nəsillərə çatdırmaq və poeziyaya maraq göstərən geniş oxucu kütləsinə təqdim etməkdir.

© Zəkəriyya Mehdizadə - 2021

# ATAM ZƏKƏRİYYA

Mehdizadə Zəkəriyya Məmməd oğlu 1913-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olmuşdur. O, 1936-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. Xalq maarifinə şagirdlik dövründən vurğun olduğundan, hələ ali məktəbi bitirməmiş, Xızı və Cəbrayıl rayonlarında müəllimlik etmişdir. İkinci Dünya müharibəsinə qədər Zəkəriyya Mehdizadə fizika-riyaziyyat müəllimi, tədris hissə müdiri, məktəb direktoru vəzifələrində işləmiş, daha sonrakı illərdə isə Azərbaycan KP Cəbrayıl rayon Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır. 1947-ci ildə Zəkəriyya Mehdizadə APİ-nin Psixologiya ixtisası üzrə aspiranturasına daxil olmuş və 1953-cü ildə Moskvada namizədlik dissertasiyasını müdafiə etmişdir.

Zəkəriyya Mehdizadə elm aləminə həvəskar bir araşdırıcı, yaradıcı kimi gəldiyi dövrdən Azərbaycan Elmi-

Tədqiqat Pedaqogika İnstitutunda uzun müddət şöbə müdiri vəzifəsində çalışmış, Bakının 31 №-li istinad məktəbində xüsusi tədqiqatlar aparmışdır. O, uzun illər APİ-də dosent, sonra yaş və pedaqoji psixologiya kafedrasının yaradıcısı və təşkilatçısı olmaqla ömrünün sonunadək kafedraya rəhbərlik etmiş və onun əsas məsləhətçilərindən biri olmuşdur.

Zəkəriyya Mehdizadə 1975-ci ildə Tbilisi Dövlət Universitetində psixologiya üzrə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

SSRİ Ali Attestasiya Komissiyası ekspertlərinin çox gözəl və sanballı rəyi ilə hesablaşmayan müəllif, öz dissertasiyasını komissiyanın müzakirəsinə təqdim etmir. O, elmi qabiliyyəti hesabına professor adına layiq bilinir.

Zəkəriyya Mehdizadənin məktəb riyaziyyatının psixologiyasına, riyaziyyata aid yüzə qədər jurnal, konfrans tezislərində, qəzetlərdə məqalələri nəşr olunmuşdur. O, psixologiya fənninə aid ali məktəb tələbələri üçün yazılmış bir neçə kitab və dərsliklərin müəllifidir. Bundan əlavə o, Teplovun «Psixologiya» dərsliyinin və Dobrolyubovun «Seçilmiş əsərləri»ni tərcümə edən müəlliflərdəndir. Elmi yaradıcılıqla və tərcümə işi ilə bərabər, Zəkəriyya Mehdizadə bədii yaradıcılıqla da məşğul olmuşdur. 50-ci illərdən respublika mətbuatında şeirləri çap olunmağa başlanmışdır. Onun ilk oxuduğu və çox sevdiyi kitab M.Ə.Sabirin «Hop-Hopnamə»si olmuş və bu səbəbdən o, satirik şeirlər yazmağa böyük meyl göstərmişdir. Satirik şeirlərinin əksəriyyəti siyasi mövzuda yazılmışdır. Şeirlərindən indiyədək «Kirpi»

jurnalında, «Azərbaycan gəncləri», «Bakı», «Kommunist» qəzetlərində dərc olunmuşdur. Satirik şeirlərindən əlavə, onun çap olunmamış bir poeması və 300-dən artıq şeirləri və Vahidanə yazılmış qəzəlləri vardır. Qəzəllərini və şeirlərini öz xalqına çatdırmaq onun ən böyük arzularından biri olmuşdur.

Səksən il ömür sürmüş Zəkəriyyə Mehdizadəyə qoy həmişə şeir və qəzəllərində tərənnüm etdiyi xalqı - Azərbaycan xalqı qiymət versin.

Xəzana döndü mənim baqi-gülüstanım, atam!
Ciyərim parələnib, yandı ürək canım, atam!

Bu fələk zülm elədi, aldı xəbərsiz canını,
Elə bir insan idin, bağlandı dastanım, atam!

Dağ kimi durmuş idin, xatirimə dəyməz idin,
Yetirərmi belə insanı bu dövranım, atam!

Tək bacın ömrü boyu oldu sənin loğmanın,
Diləyən dərdlərə dərmanını loğmanım, atam!

İncik olmuşsan əgər, əfv elə övladlarını,
Borcluyuq ömrü boyu sizlərə peymanım, atam!

Vətən övladlarına ömrünü sən həsr elədin,
Uca dağ tək qürürum, şöhrət ilə şanım, atam!

Vətəni ömrü boyu qəlblə tərənnüm elədin,
Bilinər qədrin qəzəllərlə, qəzəlxanım, atam!

Almışıq səndən həmişə biz həyat dərsimizi,
Verərək qiymətini, insan ucaldanım, atam!

Yetirib sən də həyat verdin oğul, qızlarına,
Bir vurardı ürəyin, hər günün, hər anın, atam!

Elm dəryasına girdin, sükanı bərk tutdun,
Bunu mən yad edirəm, fəxr ilə fərmanım, atam!

Ata dərdi böyük imiş ki oğul dərdindən,
Aparıb birdəfəlik özü ilə dərmanım, atam!

Yetəcək öylə zaman qədrini xalqım biləcək,
Əsərlərin olacaq daim ucaldanın, atam!

Əlli il birgə çəkibsiz anamızla zəhmət,
Dərdləşin, birgə bölün dərdi, pasibanım, atam!

Cüt məzar çevriləcək məbədə övladlarına,
Olacaq mehriban onlar da, mehribanım, atam!

Cismini alsa da torpaq, sən özün ölməmisən,
Olacaqdır qələmin indi yadigarın, atam!

Sənsiz olmaz bir anı Ramiz Zəkəriyyanın!
Razıyam olmağa hər an belə qurbanın, atam!

***Ramiz Zəkəriyya oğlu Mehdizadə***

## Ön söz

# Tanınmış psixoloq-alim, professor Zəkəriyyə Mehdizadə

Azərbaycanda psixologiya elminin təşəkkülü və inkişafının ilk mərhələsi akademik A.O.Makovelskinin, professor Ə.Zəkuzədənin, professor F.İbrahimbəyovun adı ilə bağlıdır. Bilavasitə onların qayğısı və elmi köməyi ilə az sonra yeni psixoloqlar nəsli yetişdi ki, onların da tanınmış nümayəndələrindən biri ***Zəkəriyyə Məmməd oğlu Mehdizadədir.***

Mehdizadə Zəkəriyyə 24 mart 1913-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində Məmməd kişinin ailəsində dünyaya gəlib. Atası Azərbaycan sovetləşdirilənə kimi kəndlərindəki dövlət məktəbində Azərbaycan dilindən dərs demişdir. Təlim rus dilində olan həmin məktəb Çar Rusiyası tərəfindən Daşkəsən kəndində 1914-cü ildə açılmışdı. 1920-ci ildə pedaqoji təhsili olmayan Məmməd kişi müəllimlikdən uzaqlaşdırıldığından o, özünə məxsus təsərrüfatda əkin-biçinlə məşğul olub. 1928-ci ildə kənddə təşkil edilən kollektiv təsərrüfata daxil olaraq, kolxoz quruculuğunda fəal iştirak edən Məmməd kişi, 1932-ci ildə

vəfat edib. Anası Tamaşa Muxtar qızı da kənddə kolxoz quruculuğunda fəal iştirak edən qadınlardan olub, təqaüdə çıxana kimi burada işləyib və 1970-ci ildə vəfat edib.

Zəkəriyya Mehdizadə ilk təhsilini 1920-1924-cü illərdə doğma kəndlərindəki ibtidai məktəbdə alıb. 1926-30-cu illərdə Cəbrayıl qəzasının Qaryagin (indiki Füzuli) şəhərindəki II dərəcəli məktəbdə (doqquzillik) oxuyub. Tərcümeyi-halında yazdığına görə, 1930-1931-ci illərdə Xızı rayonunda natamam orta məktəbdə müəllim işləyib. 1932-1936-cı illərdə V.İ.Lenin adına APİ-nin Fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsində təhsil alıb.

1936-cı ildə Azərbaycan XMK tərəfindən Cəbrayıl rayonuna riyaziyyat müəllimi göndərilən Zəkəriyya Mehdizadə 1936-1942-ci illərdə Cəbrayıl rayonunda müəllim, M.Qorki adına orta məktəbdə direktor müavini (dərs hissə müdiri), direktor, rayon Xalq Maarif Şöbəsində inspektor və müdir vəzifələrində işləyib. 1926-cı ildə ÜİLKGİ-nin, 1931-ci ildə Ümumittifaq Həmkarlar İttifaqları Şurasının, 1940-cı ildə Sov.İKP-nin üzvü seçilib. İdarəçilik qabiliyyəti, siyasi yetkinliyi və insanlarla işləmək bacarığı ilə rayonda tanınan Zəkəriyya Mehdizadə az sonra partiya işinə irəli çəkilib. 1942-1944-cü illərdə Cəbrayıl rayon partiya komitəsininin təbliğat və təşviqat şöbəsinin müdiri, 1944-46-cı illərdə isə rayon partiya komitəsinin II katibi vəzifələrində çalışıb.

Qələbə ilə başa çatan sovet-alman müharibəsindən sonra Zəkəriyya Mehdizadə Bakıya gəlir və bir müddət (1946-1947-ci illərdə) Bakı şəhər Xalq Maarif Şöbəsində metodist və 1 saylı məktəbdə riyaziyyat müəllimi işləyir. Onun şəhərə gəlməkdə əsas məqsədi qardaşı Mehdi Mehdizadə kimi elm yolunu seçmək idi. O, şəhərə gələndə böyük qardaşı Mehdi Mehdizadə elmi-pedaqoji sahədə xeyli uğurlara imza atmışdı. Belə ki, APİ-nin aspiranturasını uğurla başa vuran Mehdi Mehdizadə artıq elmlər namizədi idi, 1941-ci ildə "Azərbaycan məktəblərində savad təliminin tarixi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Pedaqoji İnstitutda dekan (1934), elmi işlər üzrə direktor müavini (1934-1937) vəzifələrində işləmişdi. 4 il alman faşizminə qarşı vuruşan Mehdi Mehdizadə müharibədən qayıdaraq, Pedaqoji İnstitutda elmi-pedaqoji fəaliyyətini davam etdirir, elmi işlər üzrə direktor müavini vəzifəsində çalışırdı.

Elm yolunu seçən Zəkəriyya Mehdizadə, 17 iyul 1947-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun direktoru Ə.Seyidova ünvanladığı ərizədə onu psixologiya ixtisası üzrə aspiranturaya daxil olmaq üçün imtahana buraxmağa icazə verməsini xahiş edirdi. Həmin dövrdə (elə indi də) aspiranturaya qəbul imtahanında iştirak etmək üçün ixtisas üzrə referat yazmaq tələb olunurdu.

Zəkəriyya Mehdizadə "Təsəvvür və onun uşaqlarda inkişafı" mövzusunda referat işi yazır və həmin referatı

rəy almaq üçün Psixologiya kafedrasına təqdim edir. Həmin dövrdə Psixologiya kafedrasına görkəmli psixoloq-alim Əhməd Zəkuzadə rəhbərlik edirdi. Referatla tanış olan Ə.Zəkuzadənin 4 sentyabr 1947-ci ildə imzaladığı rəydə iş yüksək qiymətləndirilir və iddiaçının imtahanlara buraxılması tövsiyə olunur. Aspiranturaya qəbul imtahanları Zəkəriyya Mehdizadə üçün uğurlu olur. Marksizm-leninizmin əsasları, psixologiya, alman dili, ali sinir fəaliyyətinin fiziologiyası fənlərindən "əla" qiymət alan Zəkəriyya Mehdizadə, Pedaqoji İnstitut üzrə 21 noyabr 1947-ci il tarixli əmrlə Psixologiya kafedrasına aspirant təyin olunur. Görkəmli psixoloq-alim, fəlsəfə elmləri doktoru Əhməd Zəkuzadənin elmi rəhbərliyi ilə "V-VII sinif şagirdlərində riyazi təfəkkürün inkişafı" mövzusunda yaradıcılıq axtarışlarına başlayır. Aspirantura illəri onun üçün fərəhli olur, həm kafedrada assistent kimi fəaliyyət göstərir, həm ciddi elmi yaradıcılıqla məşğul olur, həm də nəzərdə tutulan imtahanların hamısından "əla" qiymətlər alır. II tədris ilinin attestasiyasının nəticələrinə - alman dili, psixologiya tarixi, eksperimental psixologiyadan "əla", ixtisasa dair referatdan məqbul aldığına görə, Psixologiya kafedrasının 8 iyun 1949-cu il tarixində keçirilən iclasında onun Stalin təqaüdünə təqdim edilməsi haqqında qərar qəbul edilir. Ümumiyyətlə, Zəkəriyya Mehdizadə aspirantura illərində imtahan verdiyi bütün fənlərdən (rus dili, dialektik və tarixi materializm, alman

dili, psixologiya tarixi, ali sinir fəaliyyəti fiziologiyası, eksperimental psixologiya, ümumi psixologiya) "əla" qiymət almış, hər semestrin sonunda ixtisasla bağlı referat təqdim etmişdir. Aspiranturada oxuyarkən "Sovet psixologiyası inkişafının əsas yolları" (1947), "Təfəkkür nəzəriyyəsinin tarixi inkişafına dair bəzi mülahizələr" (1948) mövzularında yazdığı irihəcmli referat işlərinin hər biri ciddi elmi araşdırmaların nəticəsində ərsəyə gələn, aktuallığını itirməyən elmi-tədqiqat işləri kimi bu gün də maraq doğurur. Hər iki referat işi professor Əhməd Zəkuzadə tərəfindən yüksək dəyərləndirilmişdir.

1950-ci ildə aspiranturanı müvəffəqiyyətlə başa vuran Zəkəriyya Mehdizadə, Azərbaycan SSR Maarif Nazirliyinin göndərişi ilə Ağdam İkiillik Müəllimlər İnstitutuna göndərilir. O, 1950-1952-ci illərdə həmin İnstitutun Pedaqogika kafedrasında baş müəllim vəzifəsində çalışmaqla bərabər, həm də dissertasiya işi ilə bağlı Ağdam rayonunun məktəblərində eksperimentlər aparır. 1952-ci ilin payızında Bakıya qayıdan Zəkəriyya Mehdizadə, pedaqoji fəaliyyətini APİ-nin Psixologiya kafedrasında davam etdirir. 1953-cü il onun üçün daha uğurlu və yaddaqalan olur. Belə ki, o, illərlə üzərində çalışdığı dissertasiya işini müdafiə etmək üçün Moskvaya ezam olunur. 1953-cü il, dekabr ayının 23-də (protokol №44) RSFSR Pedaqoji Elmlər Akademiyasının Psixologiya Elmi-Tədqiqat İnstitutunun Şurasında "Ədədlərin bölünməsi və kəsirlərlə

əməliyyatların mənimsənilməsində əsas çətinliklərin psixoloji təhlili və bu çətinliklərin aradan qaldırılması yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. 1954-cü ilin 31 martında SSRİ Mədəniyyət Nazirliyi yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən ona "pedaqoji elmlər namizədi" elmi dərəcəsi verilir.

Zəkəriyya Mehdizadə 1954-cü ildə Azərbaycan KP MK-nın sərəncamı ilə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna göndərilir. Səkkiz il burada işləyən Zəkəriyya Mehdizadə, bir müddət pedaqogika-psixologiya şöbəsinə, daha sonra isə psixologiya laboratoriyasına rəhbərlik edir. Bir-birinin ardınca maraqlı elmi əsərlərin nəşrinə nail olan Zəkəriyya Mehdizadəyə SSRİ Ali Təhsil Nazirliyi yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən 6 sentyabr 1958-ci ildə "Psixologiya" ixtisası üzrə "baş elmi işçi" elmi adı verilir.

1961-ci ildə Zəkəriyya Mehdizadə yenidən doğma təhsil ocağına, bir vaxtlar tələbəsi, aspirantı və müəllimi olduğu Pedaqoji İnstituta qayıdır. 18 oktyabr 1961-ci ildə İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasına baş müəllim təyin olunur, az sonra Psixologiya kafedrasına dəyişdirilir. 1961-1966-cı illərdə Psixologiya kafedrasında baş müəllim, 1966-1975-ci illərdə dosent vəzifələrində çalışır. 20 iyul 1966-cı ildə SSRİ Ali və Orta İxtisas

Təhsili Nazirliyi yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən ona Psixologiya kafedrası üzrə "dosent" elmi adı verilir. Dosent Zəkəriyya Mehdizadə ümumi psixologiya, uşaq psixologiyası, yaş və pedaqoji psixologiya fənlərindən mühazirələr oxumaqla yanaşı, həm də ciddi elmi yaradıcılıqla məşğul olur, doktorluq dissertasiyası üzərində işləyir. Doktorluq dissertasiyasını tamamlamaq və müdafiəyə təqdim etmək üçün ona APİ üzrə 6 mart 1965-ci il tarixli əmrlə 6 aylıq yaradıcılıq məzuniyyəti verilir. O, qısa bir vaxtda mövzu ilə bağlı 30-a yaxın elmi məqalə (onlardan 20-si rus dilində) nəşr etdirir. Doktorluq dissertasiyasını vaxtında başa çatdırır və müdafiəyə təqdim edir.

Azərbaycan Pedaqoji İnstitutunun Yaş və pedaqoji psixologiya kafedrasının 12 fevral 1975-ci il tarixli iclasının protokolundan çıxarışda göstərilir ki, Zəkəriyya Mehdizadənin həmin əsəri Gürcüstan Dövlət Universitetinin Psixologiya kafedrasında geniş müzakirə edilərək, yüksək qiymətləndirilmiş və doktorluq dissertasiyasının bütün tələblərinə cavab verən bir əsər kimi müdafiəyə buraxılmışdır. Həmin dövrdə Zaqafqaziya respublikalarından yalnız Tbilisidə pedaqogika və psixologiyadan regional doktorluq Müdafiə Şurası fəaliyyət göstərirdi. Bu səbəbdən də müdafiə ilə bağlı xeyli növbə yaranırdı. Bütün çətinlikləri dəf edən Zəkəriyya Mehdizadə, nəhayət ki, 1975-ci ildə Tbilisi Dövlət Universitetinin Müdafiə Şurasında "Hesab

və cəbr materiallarının mənimsənilməsi prosesində şagird-lərin qarşılaşdıqları çətinlikərin tədqiqi və onların psixo-loji təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Dissertasiya rəsmi opponentlər, aparıcı təşkilat və Müdafiə Şurasının üzvləri tərəfindən yüksək dəyərləndi-rilir. Məlumat üçün qeyd edək ki, 1934-cü ildən 1993-cü ilə kimi, müttəfiq respublikalarda müdafiə olunan nami-zədlik və doktorluq dissertasiyaları SSRİ Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilirdi. Əks halda, əsərə görə iddiaçıya elmi dərəcə verilmirdi. Tbilisi Dövlət Uni-versitetinin Müdafiə Şurası tərəfindən Zəkəriyyə Mehdi-zadənin doktorluq dissertasiyası müdafiə protokolu və di-gər sənədlərlə birlikdə təsdiq üçün Moskvaya göndərilir. SSRİ Ali Attestasiya Komissiyasında dissertasiya prof. Natalya Aleksandrovna Mençinskayaya rəy üçün təqdim olunur. Zəkəriyyə Mehdizadənin doktorluq dissertasiya-sının mövzusu prof. N.A.Mençinskayaya çox yaxın idi. Belə ki, hər ikisinin də tədqiqat sahəsi eyni idi. N.A.Men-çinskaya "Hesab təliminin psixologiyası" (1952) əsərinə görə psixologiya elmləri doktoru elmi dərəcəsi almışdı. Zəkəriyyə Mehdizadə RSFSR Pedaqoji Elmlər Akade-miyasının Psixologiya Elmi-Tədqiqat İnstitutunun Şura-sında namizədlik dissertasiyası müdafiə edəndə N.A.Men-çinskaya həmin İnstitutda işləyirdi. Eyni problem üzərin-də işlədiklərinə görə, aralarında baş verən elmi mübahi-sələr, N.A.Mençinskaya tərəfindən şəxsi qərəzçiliyə çev-rilmişdi. Məhz elə buna görə də o, sonralar Zəkəriyyə

Mehdizadənin doktorluq dissertasiyasına müsbət rəy verməmiş, əsərdə bəzi məsələlərin dəyişdirilməsini, onun irəli sürdüyü müddəalara uyğunlaşdırılmasını tələb etmişdir. Bu sahənin tanınmış mütəxəssislərindən biri olan Zəkəriyya Mehdizadə, Ali Attestasiya Komissiyasının ekspert şurasının iclasında rəyçi ilə razılaşmadığını, əsərdə heç bir dəyişiklik etməyəcəyini bildirərək, özününküləri "özgələrdən" (milli respublikalardan) üstün tutan, qəlbi də, ruhu da soyuq olan Moskvadan vətənə qayıtmış, elmi-pedaqoji yaradıcılığını və fəaliyyətini davam etdirmişdi. Həmin dövrdə Zəkəriyya müəllimin qardaşı Mehdi Mehdizadə nəinki Cənubi Qafqazda, həm də SSRİ-də tanınmış pedaqoq-alim, pedaqoji elmlər doktoru, professor, SSRİ PEA-nın həqiqi üzvü idi. İkinci dəfə idi ki, Azərbaycanın Maarif Nazirliyinə rəhbərlik edirdi. Zəkəriyyanın özü namizədlik dissertasiyasını Moskvada müdafiə etmişdi, rus psixoloq alimləri onu yaxşı tanıyırdı. Digər tərəfdən, həm də zəngin yaradıcılığa malik idi. Mütəmadi olaraq, Tbilisidə keçirilən Zaqafqaziya psixoloqlarının konfranslarında maraqlı məruzələrlə çıxış edirdi. Zəkəriyya müəllimin bir daha doktorluq dissertasiyasının təsdiqi ilə maraqlanmaması, bununla bağlı nə ekspert komissiyasının, nə də Ali Attestasiya Komissiyasının sədrinin qapısını "döyməməsi", qardaşı Maarif Naziri, akademik Mehdi Mehdizadəni "narahat etməməsi" onun prinsipiallığının və özünəhörmətin əlaməti kimi dəyərləndirilməlidir.

Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi Kollegiyasının 13 noyabr 1974-cü il tarixli qərarına müvafiq olaraq, Pedaqoji İnstitutun Psixologiya kafedrasının bazası əsasında iki kafedra - Ümumi psixologiya və Yaş və pedaqoji psixologiya kafedraları yaradıldı.

Pedaqoji İnstitut üzrə 2 aprel 1975-ci il tarixli 1/115 saylı əmrlə müsabiqədən keçdiyi üçün 14 mart 1975-ci ildə Yaş və pedaqoji psixologiya kafedrasına müdir və dosent vəzifəsinə seçilən Zəkəriyya Mehdizadə, 1 sentyabr 1987-ci ilə kimi həmin vəzifədə çalışıb. Kafedranın elmi və tədris fəaliyyətinin səmərəli qurulmasında, yaş və pedaqoji psixologiya ilə bağlı tədris resurslarının hazırlanmasında onun mühüm xidmətləri olub.

Tanınmış psixoloq-alim Zəkəriyya Mehdizadə tədris və elmi nailiyyətlərinə görə, 10 iyun 1984-cü ildə APİnin Yaş və pedaqoji psixologiya kafedrasına professor vəzifəsinə seçilib. SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən 24 may 1985-ci ildə ona "professor" elmi adı verilib. İki il həmin vəzifədə uğurla çalışan Zəkəriyya müəllim, 29 avqust 1987-ci ildə öz ərizəsi ilə təqaüdə çıxdığı üçün işdən azad olunmuşdur. İki ildən sonra o, 20 sentyabr 1989-cu ildə yenidən Yaş və pedaqoji psixologiya kafedrasına professor-məsləhətçi təyin olunub, ömrünün sonuna kimi həmin vəzifədə çalışıb. Professor Zəkəriyya Mehdizadə 18 noyabr 1990-cı ildə Bakı şəhərində vəfat edib.

Professor Zəkəriyya Mehdizadə respublikamızın və universitetimizin elmi-pedaqoji, ictimai-siyasi həyatında mühüm rol oynayan, pedaqoji-psixoloji araşdırmaları ilə seçilən ziyalılardan biri olub. 1971-76-cı illərdə İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsində (indiki İbtidai təhsil fakültəsi) partiya təşkilat katibi olub. Ümumittifaq və Zaqafqaziya psixoloqlarının qurultay və konfranslarının fəal iştirakçılarından biri olub. Zaqafqaziya psixoloqlarının Tbilisidə (1959) keçirilən I, İrəvanda (1960) keçirilən II, Bakıda (1974) keçirilən VI, Tbilisidə (1977) keçirilən VII, Bakıda (1989) keçirilən IX qurultaylarında və digər elmi simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir.

Arxiv sənədlərində Zəkəriyya Mehdizadəyə aid sənədlərin içərisində ona müxtəlif vaxtlarda verilmiş xasiyyətnamələr saxlanılır. Bütün xasiyyətnamələrdə o, vicdanlı bir işçi, bacarıqlı insan, peşəkar tədqiqatçı alim, institutun ictimai və elmi həyatında fəal iştirak edən aspirant, dosent, professor kimi səciyyələndirilir. Obyektivliyi, səmimiliyi, aydın və səlis nitqi, yüksək səviyyəli mühazirə oxumaq qabiliyyəti ilə seçilən müəllim-tərbiyəçi və nüfuzlu psixoloq-alim kimi təqdir olunur.

O, respublikamızda “Uşaq psixologiyası” kursunun proqramının və ona dair tədris materiallarının yaradıcılarından biri hesab olunur. Məhz onun rəhbərliyi ilə kursun proqramı və üç hissədən ibarət dərs vəsaiti (“Uşaq psixo-

logiyası". I hissə. (1982), "Uşaq psixologiyası". II hissə. (1984), "Uşaq psixologiyası". III hissə. (1988)) hazırlanaraq nəşr olumuşdur. Respublikada iki hissəlik Yaş və pedaqoji psixologiya ilə bağlı tədris vəsaitinin ("Yaş və pedaqoji psixologiya". I-II hissə. (1977, 1978)) ərsəyə gəlməsində də həmkarları kimi, onun da mühüm xidmətləri vardır.

Professor Zəkəriyya Mehdizadənin psixoloq alimlərin yetişməsində mühüm xidmətləri olub. Uzun müddət Gəncə Dövlət Universitetində Psixologiya kafedrasının müdiri vəzifəsində çalışan dosent Zülalə Aslanova, hazırda ADPU-nun Şəki filialının elmi işlər üzrə direktor müavini işləyən dosent Nurəli Çələbiyev öz dissertasiyalarını onun elmi rəhbərliyi altında hazırlayıblar. Dosent N.Çələbiyev danışır ki, 1986-cı ildə "Yaş və pedaqoji psixologiya" ixtisası üzrə APİ-nin aspranturasına daxil olmuşdum. Məni "Yaş və pedaqoji psixologiya" kafedrasına təhkim etdilər. Kafedra müdiri professor Zəkəriyya Mehdizadə idi, o məni yaxşı tanıyırdı. APİ-də oxuyarkən (1977-1981) mənə "Psixologiya" fənnindən mühazirələr oxumuşdu, bir neçə dəfə onun rəhbərliyi ilə Tələbə Elmi Cəmiyyətinin konfranslarında məruzələrlə çıxış edib, uğur qazanmışdım. Namizədlik dissertasiyama həvəslə elmi rəhbər olmağa razılıq verdi. O dövrdə Oğuz rayon Təhsil Şöbəsində inspektor işlədiyimdən, aspiranturanın qiyabi şöbəsinə daxil olmuşdum. Mən elmi rəhbərimlə

ancaq tətillərdə görüşə bilirdim. Zəkəriyya müəllim yay tətilində Şüvəlandakı bağ evində qalırdı. Oğlu Ramizin ailəsi də onunla birlikdə yaşayırdı. Mən yay aylarında bağ evinə gedər, həftələrlə onlarda qalardım. Zəkəriyya müəllim dissertasiya ilə bağlı yazdığım hissələri mənə oxutdurar, özü isə qulaq asardı. Harada nələri əlavə etmək və ya çıxarmaq lazım olanda, mənə qeydlər aparmağı tövsiyə edərdi. Çox səmimi, mehriban, qayğıkeş və qonaqpərvər ailə idi. Mənə övladları kimi nəvaziş göstərirdilər. Dəfələrlə Zəkəriyya müəllimin Bakıxanov qəsəbəsindəki evində də olmuşam. O, çox zəhmətkeş, həyatsevər, şən və gümrah insan idi. Həyətlərində müalicəvi suyu olan kəhriz var idi. Zəkəriyya müəllim səhər saat 6-da yuxudan qalxar, üzüm və əncir ağaclarına qulluq edər, həmin sudan içər, müalicəvi əhəmiyyətindən danışardı. Kükürd-yod qarışıqlı həmin suyun spesifik iyini indi də xatırlayıram. Mən Zəkəriyya müəllimin evinə elmi rəhbərimin, müəllimimin evindən daha çox baba evi kimi baxırdım. Bu şəraiti o, özü, oğlu Ramiz və onun ailəsi yaratmışdı. Mən son dəfə 1990-cı ildə, Zəkəriyya müəllimin vəfatından bir neçə gün qabaq onlarda olmuşdum. Həmin vaxt o, halsız halda uzanmışdı, deyəndə ki, Nurəli gəlib, gözünü açdı və mənə baxdı, çöhrəsi nurani bir görkəm aldı. Bir neçə gündən sonra haqq dünyasına qovuşdu. Dissertasiyam hazır olsa da, müdafiəmi görmək ona nəsib olmadı. Zəkəriyya müəllim mənim üçün böyük müəllim, təmənnasız

və xeyirxah insan, görkəmli psixoloq-alim, bacarıqlı kafedra müdiri, səmimi elmi rəhbər idi.

Professor Zəkəriyya Mehdizadə geniş yaradıcılıq kredosuna malik tədqiqatçı olub. Ümumtəhsil məktəblərində riyaziyyat və fizika fənlərinin mənimsənilməsində şagirdlərin qarşılaşdıqları çətinliklərin tədqiqi və onun psixoloji təhlili, onun yaradıcılığının əsas istiqamətini təşkil edir. Onun "Nisbət anlayışı və şagirdlər tərəfindən onun mənimsənilməsi" (1956), "Faizlərin mənimsənilməsi psixologiyası" (1961), "Səkkizinci sinifdə cəbr materiallarının mənimsənilməsi psixologiyası haqqında", "Tənasüb bəhsinin mənimsənilməsində bəzi çətinliklərin analizi və aradan qaldırılması haqqında" (1966) kitablarında, "Kəsr rəqəmlərinin mənimsənilməsində şagirdlərin rast gəldikləri çətinliklərin psixoloji təhlili" (1956), "Sadə cəbr əməllərinin mənimsənilməsi psixologiyası haqqında" (1960), "Tam cəbri ifadələrlə əməliyyatın mənimsənilməsi psixologiyası" (1960), "IX sinifdə loqarifmalar mövzusunun mənimsənilməsi psixologiyası" (1962), "Müxtəsər vurma düsturlarının mənimsənilməsi psixologiyası" (1963), "Hesab kursunda metamorfoza" (1966) adlı məqalələrində məhz bu problem ətraflı şərh edilmişdir.

O, uşaqlarda təfəkkür və nitqin (1966), məktəbəqədər yaşda uşaqlarda qavrayışın (1970), bağça yaşlı uşaqların şəxsiyyətinin (1979), kiçikyaşlı məktəblilərin iradəsinin

(1985) inkişafına dair maraqlı araşdırmaların müəllifidir.

Ümumiyyətlə, professor Zəkəriyya Mehdizadənin 35-dən çox dərslik, dərs vəsaiti, kitab və kitabçası, 50-dən artıq elmi məqaləsi və məruzə tezisi nəşr olunmuşdur. Onun "Məktəb direktoru üçün sorğu kitabı" (1959), "Uşaqlarda təfəkkür və nitqin inkişafı" (1966), "Uşaqlarda nitq və təfəkkürün inkişafı" (1968) kitabları indi də öz əhəmiyyətini qoruyub saxlayır. Tanınmış metodist-alim, professor Yəhya Kərimovla birlikdə yazdığı "Əlifba" dərsliyi 6 il dalbadal nəşr olunub. Qeyd etmək yerinə düşər ki, dərsliyin ilk tirajı 150 min nüsxədən çox olub.

Professor Zəkəriyya Mehdizadə həm də peşəkar tərcüməçi kimi tanınıb. O, N.A.Dobrolyubovun "Seçilmiş pedaqoji əsərləri"ni (Ə.Zeynalovla birlikdə) və "IV sinifdə riyaziyyat" kitablarını dilimizə tərcümə edib. Pedaqoji və elmi-pedaqoji kadr hazırlığında mühüm xidmətləri olan Zəkəriyya Mehdizadə, həm də yeni psixoloji baxış və nəzəriyyələrin təbliğatçısı kimi tanınıb. Müxtəlif qəzet və jurnallarda psixologiya elminin təbliği ilə bağlı onlarla məqalə nəşr etdirib.

Zəkəriyya müəllimi Pedaqoji İnstitutda oxuyan illərdə tanımışam. Lenin təqaüdü ilə oxuyan tələbə kimi 1981-1982-ci illərdə Pedaqoji fakültənin Elmi Şurasının üzvü olmuşam. Həmin illərdə Yaş və pedaqoji psixologiya kafedrası Pedaqoji fakültənin nəzdində idi. Bütün kafedra müdirləri kimi, Zəkəriyya müəllim də fakültə Elmi Şura-

sının üzvü idi. Yaxşı yadımdadır, onda tez-tez fakültə Elmi Şurasının iclasları keçirilər, fakültənin tədris və elmi həyatı, müəllim və tələbələrin fəaliyyətləri ilə bağlı hər bir xırda məsələ ciddi şəkildə müzakirə olunardı. Zəkəriyya müəllim iclaslarda çox danışmağı sevməzdi, qoç bürcündən olsa da, harmoniya və mütənasibliyi qoruyub saxlayan tərəzi bürcünün insanlarını xatırladırdı. Nüfuzlu insan idi, hər hansı bir məsələnin müzakirəsindən sonra, Musa müəllim (fakültənin dekanı): "Zəkəriyya müəllim, nə məsləhət bilirsiniz"- deyə, ona müraciət edirdi.

Bu yazını hazırlayanda vaxtı ilə onunla birlikdə işləmiş həmkarları ilə zəngləşdim, xatirələr dilə gəldi, hamı onu görkəmli alim, bacarıqlı kafedra müdiri, səmimi və xeyirxah insan, tələbələrin sevimlisi kimi dəyərləndirdi. Professor Ramiz Əliyev isə, sanki deyilənləri ümumiləşdirdi: Zəkəriyya müəllim ciddi bir şəxsiyyət, ağırtaxtalı, pak və ləyaqətli klassik kişilərdən biri idi.

Zəkəriyya Mehdizadə həm də gözəl ailə başçısı olub. Həyat yoldaşı Sona xanımla qurduğu ailədə 3 qız (Dilşad, Gülşad, Növrəstə) və 2 oğlan (Rəşid, Ramiz) böyüyüb.

Professor Zəkəriyya Mehdizadənin elmi-pedaqoji yaradıcılığı və ictimai fəaliyyəti həmişə yüksək qiymətləndirilib. Pedaqoji elmlər namizədi elmi dərəcəsinə, baş elmi işçi, dosent, professor elmi adlarına layiq görülüb, fakültə partiya təşkilatının katibi, kafedra müdiri seçilib. SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən "Qafqazın

müdafiəsinə görə" (1944), "Böyük Vətən müharibəsində vicdanlı əməyə görə" (1945), "Zərbəçi əməyə görə" (1949) medalları, müxtəlif Fəxri Fərman və diplomlarla təltif olunub.

Professor Zəkəriyya Məmməd oğlu Mehdizadə çətin, acılı-ağrılı, gərgin əmək, zəhmət və yaradıcılıqla dolu şərəfli ziyalı ömrü yaşayıb. Belə ziyalılar heç vaxt ölmür, yaddan çıxmır, ailə üzvlərinin, qohumlarının, tələbələrinin, yetirmələrinin xatirələrində və bir də yazdıqları kitabların səhifələrində yaşayır, insanlara ziya və nur bəxş edirlər.

**Fərrux Rüstəmov**

*ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı,*
*Pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi, Beynəlxalq Pedaqoji*
*Akademiyanın həqiqi üzvü,Pedaqoji və Sosial*
*Elmlər Akademiyasının akademiki,*
*"Akademik Mehdi Mehdizadə", "Gənc alimlər"*
*və "Qızıl qələm" mükafatları laureatı*

# REDAKTORDAN

Babam - psixoloq-alim, professor Mehdizadə Zəkəriyya Məmməd oğlunun “Mən fəxr edirəm Azərbaycan Vətənimdir!” adlı qəzəllərindən ibarət kitabı işıq üzü gördü. Atam Ramiz Zəkəriyyanın böyük həvəslə hazırladığı, lakin ömrü vəfa etmədiyinə görə başa çatdıra bilmədiyi kitabın nəşri Mehdizadələr ailəsi üçün böyük xoşbəxtlikdir. Xüsusən, Azərbaycan xalqının Vətən müharibəsində qələbə qazandığı günlərdə sevincimizin həddi-hüdudu yoxdur.

Zəkəriyya Mehdizadə çoxşaxəli fəaliyyət göstərib. Həm dövlət xadimi kimi, həm də elm və təhsil sahəsində hər zaman xalqına, millətinə vicdanla xidmət etməyi qarşısına məqsəd qoyaraq, şərəfli bir ömür yolu keçmişdir. Dəyərli ziyalı, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov çox böyük əmək sərf edərək, arxiv materiallarını araşdırmış, professor Zəkəriyya Mehdizadənin həyatı və əmək fəaliyyəti haqqında geniş məqalə yazmışdır ki, həmin məqalə bu kitabda oxucuların diqqətinə çatdırılır. Fədakar əməyinə görə Fərrux müəllimə Mehdizadələr ailəsi adından dərin təşəkkürümüzü bildiririk.

Zəkəriyya müəllim poeziyaya da böyük maraq göstərib. Bu kitabda onun 316 qəzəli toplanıb. Z.M.Mehdizadənin yazdığı poema, satirik şeirlər və qəzəllər müxtəlif mövzuları əhatə etsə də, yaradıcılığı ilə tanış olan hər

kəs Zəkəriyya müəllimin Vətən sevgisinin yüksək səviyyədə olduğunun şahidi ola bilər. Vətənpərvərlik hisslərinə, ictimai problemlərə, psixoloji mövzulara, sevgiyə, məhəbbətə həsr edilmiş qəzəllər bu kitab vasitəsilə oxuculara çatdırılır. Vətənpərvərlik ruhunda yazılmış "Mən fəxr edirəm Azərbaycan Vətənimdir" qəzəlini xüsusi qeyd etmək istəyirəm:

*Mən fəxr edirəm Azərbaycan Vətənimdir,*
*Min laləli, min güllü, çiçəkli çəmənimdir.*

"Açılıb qönçə kimi aləmə şayan oldun" qəzəlində Zəkəriyya müəllim Azərbaycana olan sevgisini belə bildirir:

*Açılıb qönçə kimi aləmə şayan oldun!*
*Mənə sən - doğma Vətən, Azərbaycan oldun!*

"Çəkərəm min cürə zəhmət Vətənim-canım üçün" qəzəlində müəllif Vətəni ana kimi sevməyi, Vətən uğrunda çalışmağı təbliğ edir:

*Zəkəriyya, Vətən eşqiylə çalış, bir anadır,*
*Sən xeyirxahlıq elə, Azərbaycanım üçün.*

Zəkəriyya müəllim "Şad olaq gəl, gözəlim, sevgili dövrandı bu gün" qəzəli ilə Vətənin gözəlliyini tərənnüm edir:

*Anamız, nazlı Vətən gör nə qədər gülşəndir,*
*Zəkəriyya da onun mehrinə qurbandı bu gün.*

1970-ci ildə qələmə aldığı "Mən bilirdim dönəcək il, yeni dövran olacaq" qəzəli ilə müəllif köhnə dünyanın dağılacağına, yeni dövranın gələcəyinə, Azərbaycanın Şərqdə bir ulduz kimi parlayacağına işarə edir:

*Mən bilirdim dönəcək il, yeni dövran olacaq!*
*Köhnə dünya dağılıb, xak ilə yeksan olacaq!*

*Zəkəriyya, sən unutma bu gözəl sözlərimi,*
*Şərqə örnək yenə də Azərbaycan olacaq!*

Zəkəriyya müəllim psixoloq kimi psixoloji mövzuları əhatə edən qəzəllər də yazmışdır. "Hər anda çatır dadıma hər yerdə təfəkkür" qəzəlində təfəkkür, idrak, duyğu, təsəvvür, şüur kimi terminlərdən istifadə edərək, mənalı bir qəzəl yaratmışdır:

*Yol göstərə hər şəxsə gərək əqli, şüuru,*
*Şəxsiyyətə şöhrət gətirər, bir də təfəkkür!*

Həyatı boyu rüşvətxorluqla mübarizə aparan Zəkəriyya Mehdizadə ictimai problemlərə də biganə qalmamış, "Borcluyam hər şeydən əvvəl, ey könül, vicdanı-

ma" qəzəlində rüşvətə qarşı olduğunu bədii dillə bəyan etmişdir:

*Sındırıb balu pərin rüşvətpərəst insanların,*
*Baxmadım ki, böylə nakəslər susarlar qanıma.*

*Elçilər göndərdilər ki, onları təkrar edim,*
*Rədd qıldım hər zaman, kim elçi gəldi yanıma.*

Həmçinin hər bir insanın xalq üçün fəaliyyət göstərməli olduğunu, rüşvətin ictimai bəla olduğunu qəzəl vasitəsilə çatdırır:

*İnsan gərək öz zəhmətini xalqına versin,*
*Xalqın nəfinə olmayan zəhmət də bəladır.*

*Ziddir, bunu aləm də bilir zəhmətə rüşvət,*
*Kim getsə bu yolla, ona rüşvət də bəladır.*

Zəkəriyya Mehdizadənin yaradıcılığında sevgiyə, məhəbbətə həsr edilmiş qəzəllər üstünlük təşkil edir. "Ey zülfü qara, qaşları xəm, ləbləri püstə" qəzəli də məhəbbət mövzusundadır:

*Ey zülfü qara, qaşları xəm, ləbləri püstə,*
*Küsdün deyəsən məndən o gün, söylə, nə üstə?*

*Sevirəm mən səni, ey şux, buna agah ol sən,*
*Çəkirəm eşqin əzabın, ürəyimdir xəstə.*

*Nə dedim, xətrinə dəydi, bu ki bir sirr deyil?*
*Səndəki səbri, gülüm, görməmişəm heç kəsdə.*

*De görüm hansı qəbahətlə səni incitdim?*
*Sənə min səcdə edim, bəxş eləyim güldəstə.*

*İnanırsan, gözəlim, təkcə sənin vurğununam,*
*Olmuşam küllü-vücudumla sənə vabəstə.*

*Rəhm qıl, qoy Zəkəriyya da sevinsin qəlbən,*
*Sənə xidmət edəcəkdir, onu bil, peyvəstə.*

Kitabda çap edilmiş qəzəllərin redaktə olunmasında böyük zəhməti keçən tarix elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Məcməüş-şüəra” ədəbi məclisinin sədri Şahin Fazil müəllimə dərin təşəkkürümüzü bildiririk.

“Mən fəxr edirəm Azərbaycan Vətənimdir!” kitabını Müzəffər Azərbaycan Ordusunun Qarabağda - Vətən müharibəsində qazandığı Qələbəsinə həsr edirik!

**Samir Mehdi-zadə**

*«Qəzəldir səfabəxşi-əhli-nəzər,*
*Qəzəldir güli-busitani-hünər...*
*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola».*

*Məhəmməd Füzuli*



***

Əcəb bərabəridir hüsndə Züleyxanın,
Çəməndə lalələrin, sünbülün də, reyhanın.

Mələk nədir ki, ona hüsndə bərabər ola,
Həyatə ziynət olub gözləri bu insanın.

Baxanda qamətinə can alır vücudilə,
Sanırsan hökm edəcək qətlinə dili-canın.

Onun gözəlliyi bənd eyləmiş bu könlümü bil,
Qorxuram fəraqə düşəm fitnəsilə şeytanın.

Əgər ki boynuna qol salmağım nəsibim ola,
Tutardı qibtəsi, ey dil, behiştə qılmanın.

Unutma ki, Zəkəriyyə, sənin də bəxtin var,
Gözəl seçəndə gülün vurmusan bu dünyanın.

*1944*

***

Bil ki, ey gül, sənə mən afəti can söyləmişəm,
Dil şəkər, qönçə dodaq, ruhi-rəvan söyləmişəm.

Leyliveş zülfün inan, əqlimi almış başdan,
Qaşla kipriklərinə oxla-kaman söyləmişəm.

Qaşların tağının altındakı şəhla gözlər,
Mənə ilham gətirir, mən ki hər an söyləmişəm.

O dodaqlar bəzəyir qönçə dəhanın, görürəm,
Mən onün rənginə al, ruhinə qan söyləmişəm.

O pərizadəliyin əzbər olub dillərdə,
Bir mələksən, deyə hər yerdə inan, söyləmişəm.

Zəkəriyyanı götür, bağına bağban olsun,
Mən əzəldən sənə bu sirri nihan söyləmişəm.

*1945*

***

***"Sənin kimi, gözəlim, gülüzarımız vardır,***
***Xəzanə dinməyəcək novbaharımız vardır".***

***Əliağa Vahid***

Fərəh bu ölkəmizə, novbaharımız vardır,
Çiçəklə, güllə dolu laləzarımız vardır.

Təbiətin də gücü qarşımızda acizdir,
Onunla gündə bizim kəsbi-karımız vardır.

Vətən məhəbbəti dillərdə səslənir, hər kəs
Deyir ki, "cənnətə bənzər diyarımız vardır".

Yolumuz xoş günə getməkdə bizim çoxdandır,
Ona qovuşmağa da iqtidarımız vardır.

Diyarımızda ki xoşbəxtdi Vətən övladı,
Zəkəriyyə, bu günə iftixarımız vardır.

*1954*

***

Ey gül, sənin aləmdə gözəl bir zəfərin var,
Eşqində cünun olmuş, əcəb bir nəfərin var.

Gündən işıq almış o camalın, ayı neylər?
Gündən də hərarətli ayın var, qəmərin var.

Öldür məni, rəhm etmə əgər varsa günahım,
Kuyində qılıncdan iti bir cüt kəsərin var.

Şuxluq yaraşır sən kimi cananə, əzizim,
Şux tərpənişin, şux gülüşün, qəmzələrin var.

Gülgün o dodaqlar məni atəşlərə atmış,
Nə qüssə bilirsən, nə qəmin var, kədərin var.

Şux gözlərinin vurğunudur, bil, Zəkəriyya,
Şadəm ki, sənin şux baxışın, şux nəzərin var.

*1955*

***

Əcəb pərvanəyəm mən, məskənim eşqi-xiyabandır,
Və ya kim, Məcnun oldum qismətim dəşti-biyabandır.

Sədaqət əhlidir canan, büti-zibadən artıqdır,
Ziyarət eylədikcə ol bütü gördüm ki xəndandır.

Üzün görcək əsir qəlbim, özüm də bilmirəm əsla,
Nədir bu halətə bais, nə möhnət bu, nə hicrandır?

Bu bir insan kimi insandı, bir canan kimi canan,
Özü bir mənbəi-ilhamdı, hüsnü bir gülüstandır.

Zəkəriyya, əgər var qismətin bu baği cənnətdə,
Güvənsin bəxtinə, varsa, bu bir sevdalı dövrandır.

*1958*

***

Ey mah, üzünü görməsəm, hicran mənə bəsdir,
Vəslindən uzaqlarda biyaban, mənə bəsdir.

Mən istəmirəm, püstə dodaqlar sənin olsun,
Ondan süzülən şivəli xəndan, mənə bəsdir.

Dil nalə edir, vəslinə əl çatmır, əzizim!
Hər şamü-səhər naleyi-əfğan, mənə bəsdir.

Fikrən səni idrak edirəm mən gecə-gündüz,
Fikrimdə yanan qönçə zənəxdan, mənə bəsdir.

Sevdin Zəkəriyyanı, gülüm, eşq ola eşqə,
Əhsən ki gözəldir, belə dövran, mənə bəsdir.

*1959*

***

Ey şux, de görüm, vəslinə imkan nə zamandır?
İnsafə gəl, aç qəlbini, bir söz ver, inandır.

Məcnun kimi səhralara düşmək mənə yaddır,
Onsuz da, həyatımda mənim gündə borandır.

Fərhad kimi dağlar yararam şövqi ləbindən,
Şirin kimi sən hiylələrə uyma, amandır.

Eşq əhlinə hər kim ki vəfasız desə, ey gül,
Əlbəttə, inanma, bu söz əlbəttə, yalandır.

Bir busə ver, ey mah, mənə ol şəhdi-ləbindən,
Ondan sora hər gün məni atəşlərə yandır.

Pərvanəyə təlim eləmişdir Zəkəriyya,
Sən sanma ki, eşq atəşinə yanmaq asandır.

*1959*

***

Nə gözəlsən, gözəlim, mahi-münəvvər kimisən,
Bu təravətlə, əzizim, gülü-ənbər kimisən.

Hələ mən mehrü vəfanın demirəm məskənisən,
Ləbləri şəhdi-şəkər, sinəsi mərmər kimisən.

Eşqinin atəşinə yandı könül Məcnun tək,
Ay camalınla, gülüm, sanki münəvvər kimisən.

Yüz min ox düzsən əgər gözlərinin dövrəsinə,
Bircə cüt tazə hilal ilə müzəffər kimisən.

Bu qədər yalvarıram, rəhm eləmirsən mənə sən,
Nə bilim ki, sən ürəkdən belə qənbər kimisən.

Zəkəriyya diləyir, bağbanın olsun kaş,
Novbahar ilə gələn tazə süsənlər kimisən.

*1959*

***

Sevirəm dilbərimi sərvi-rəvan olmasa da,
Gər gözəllikdə də məşhuri cahan olmasa da.

Neylirəm əqldə xəm, gözləri şəhla gözəli,
Bir kamal əhli ola, qönçədəhan olmasa da.

Ola gər batini, əlbəttə, gözəl zahirdən,
Könlümə zövq verən tutizəban olmasa da.

Sanma dünya doludur Leyli, Züleyxalər ilə,
Eşq vardır əgər aləmdə, Kənan olmasa da.

Hərə öz Leylisinə eşqini izhar eləyir,
Özü Məcnun kimi təbdili məkan olmasa da.

Zəkəriyya səni, ey gül, sevəcək ömrü boyu,
Əgər öz əhdinə heç zərrə vəfan olmasa da.

*1959*

***

Vətən bir bağı cənnət, bülbülü yari nigarımdır,
O cənnət ki deyirlər, ol mənim doğma diyarımdır.

Kimin vardır çıxarsın bir Vətən bundan gözəldirsə,
Bu Odlar yurduna rövnəq verən min laləzarımdır.

Bədəndə canım olduqca Vətən bağında bağbanəm,
Sözüm, billah, Vətən fəxrim, vüqarımdır.

Əgər bülbülləri cəh-cəh vurursa gülüzar içrə,
Buna bais çiçəklər, güllər açmış novbaharımdır.

Mənim tək şadman olmuş ürəkdən hər Vətən əhli,
Mənim öz xalqımı fəxrəndə görmək iftixarımdır.

Nə sən məndən, nə mən səndən, Vətən, ayrılmarıq əsla,
Zəkəriyya, həyata gəldiyim gündən qərarımdır!

*1959*

***

Görsəm ol sevgilimin gül üzün, min bahar olar,
Dindirməsə məni, əlbət ki, özü zülmkar olar.

Tapşırmışam ona mən bəslədiyim eşq bağını,
Eylərsə gər xəyanət o, bietibar olar.

Aşiq ilə məşuqənin öz aləmi vardır,
İlqar olar, dəyanət olar, bir qərar olar.

Düşsəm diyari eşqdən azca kənara mən,
Bir gəl təsəvvür et, necə gör intizar olar.

Canan əgər pozarsa öz əhdü vəfasın,
Ürək cigərlə dönər qanə, könül tarimar olar.

Zindanə dönsə bir bədən əlbəttə, qəlb üçün,
Bu macərayə səbəb bil ki, yar olar.

Yazsan, Zəkəriyyə, yara eşqin ərizəsin,
Bil ki, məhəbbət ancaq özü dərkənar olar.

*1959*

***

Gəl, ey bülbül, açılmış gül budağında fəğan eylə!
Vəfadən dəm vuran cananı, bir də imtahan eylə!

Əgər əhdi-vəfadən bir əsər yoxdursa qəlbində,
Bu sirri kimsədən gizlət, onu daim nihan eylə!

Sakın hər saxta sövdadən, qəmu-dərdə rəfiq olma,
Səni həsrət bizar edər, bu şərti hər bir zaman eylə!

Çalış, məzmunə ol vaqif, çək əl sürətpərəstlikdən,
Nə tutinitqə aldanma, nə əzbərdən güman eylə!

Nə etsən, qoy şüur etsin, məbadə hiss ola qalib,
Nə etsən, ey Zəkəriyya, ona hökmən inan, eylə!

*1960*

***

Zülfün mənə zənciri-cünun olmuş əzəldən,
Tale mənə rəhm etmədi, dün olmuş əzəldən.

Əğyar ilə cananını həmdəm görən aşiq,
Həycana gələr, dərdi füzun olmuş əzəldən.

Aləmdə, gülüm, sən də bir aləm kimi oldun,
Sirrin mənə dəryayi-fünun olmuş əzəldən.

İlhamımı hər gün alıram gül nəfəsindən,
Eşqin ki bu ilhamə sütun olmuş əzəldən.

Saldıqca məni gündə sən əndişələr içrə,
Rəngim saralır, qəlb də xun olmuş əzəldən.

Xoşbəxt o kəslərdi ki, eşq əhlidir onlar,
Sanma, Zəkəriyya, bu oyun olmuş əzəldən.

*1960*

***

Bütün sitəmlərinə dözməyim vəfadəndır,
Bu hala düşmüşəm, ey mah, yəqin cəfadəndır.

Mənə təbib nə lazım, özün ki loğmansan,
Verən bu xəstə qəlbə can,sənin ifadəndir.

Səninlə hər gün əgər söhbət etsəm aləmdə,
Qəm etmərəm, gözəlim, bu özü şəfadəndır.

Qəmi özümə mən həmişə dost tuturam,
Qəm aləmində mənim aldığım səfadəndır.

Xəyal içində taparsan bu Zəkəriyyanı,
Fəzayi-eşqdə bu hali-irtifadəndir.

*1960*

***

Aya, nə oldu görən, parə gəldi dünyayə?
Yəqin həya eləyir, ruyinə salıb sayə.

Dünən baxanda o mah əcəb münəvvər idi,
Şəbahəti var idi həzrət İsayə.

Görəndə Şəmsi, Qəmər zəfəran kimi saralır,
De, bəs nə düşmüş ona, üz tutub kəlisayə?

Gəlib qürur ilə keçdi, var idi haqqı onun,
Onu kim idi salan zor ilə bu qovğayə?

Şimalə baxmaq ilə keçsə də günüm daim,
Mənim bu karimə eşq olmuş əldə sərmayə.

Əgər gözəllərin, ey dil, vəfası olsa idi,
Tutardı verdiyi vədin o, Zəkəriyyayə.

*1960*

***

Aç camalın, gözəlim, cümlə-cahan nur alsın,
Vəcdə gəlsin sarı bülbül də ki, qoy şur alsın.

İstərəm bir kərə də görməsin əğyar səni,
Bəs rəvadırmı, gülüm, şirəni zənbur alsın?

Bu günəş şakəridir, sən də ki öyrənməlisən,
Şöləsin ilk dəfə hər yerdə gərək Tur alsın.

Sevmirəm mən o rəqibi, nə qədər yaltaqdır,
Yarəni ilk dəfə məndən qoy o mənfur alsın.

Zəkəriyyanı salıb eşqinə məftun etdin,
Qoyma biçarəni gəl, bir bu qədər cur alsın.

*1960*

***

Ey lalə yanaqlım, de, bu halət nədən oldu?
Birdən-birə səndə bu səxavət nədən oldu?

Bir anda üzün döndü, qəzəb həmdəmin oldu,
Mən bilmədim ey gül, bu ədavət nədən oldu?

Tab eyləmədin, könlümü axır ki sən aldın,
Ey mahi-münəvvər, bu hərarət nədən oldu?

Zindanə salıb qəlbimi, azad da sən etdin,
Ey afəti-can, söylə, bu adət nədən oldu?

Qəlbimdəki eşqin,gözəlim, xaliqi sənsən,
Söylə, belə bir xilqətə hacət nədən oldu?

Bəxtin elə bəd gəlmiş idi, ruzi əzəldən,
Axır, Zəkəriyya, bu səadət nədən oldu?

*1960*

***

Eşqin, ey dil, görürəm ki nə qədər qüdrəti var,
Hanı bir qüvvə, onun bir bu qədər hikməti var?

Eşqdir dəhrdə Məcnuni biyabanə salan,
Soruş ondan desin, eşqin nə qədər zilləti var?

Bisütun dağını Fərhad nə üçün yardı, deyin?
Şövqi vəsl idi səbəb, gör nə qədər zəhməti var?

Saldı Kənanı Züleyxa nə üçün zindanə?
Bu "cinayət" işinin, eşq kimi illəti var.

Eşq dəryasını kim səbrlə seyr eyləsə, bil,
Zəkəriyya, onun əlbəttə, səmimiyyəti var.

*1960*

***

Ey şux, o qarə zülfünə bir şanə çək, görək,
Mahi-münəvvərin üzün aç, yanə çək, görək.

Badi-səbayə qarışdır ol müşki ənbəri,
Ətrilə onun məst oluban biz də keyf çəkək.

Üstündə sənin bağlamışam xarə ədavət,
Vəslinlə o xarə mən özüm dağ çəkəm gərək.

Göstər mənə sən varsa, görən xardən səmər,
Çıxsın cəmaət içrə onu xalqa göstərək.

İnsan da bir dəniz kimi gəlsin təlatümə,
Biz böylə natəmizləri sahildə gözləyək.

Bülbül kimi ilham alaq öz güllərimizdən,
Bülbüllərə mübariz olmağı da bizlər öyrədək.

Sən də Vətənin oğlusan axır, Zəkəriyya,
Azdır sənə qələm götürüb, şeir söyləmək.

*1960*

***

Vəsli yarə yetməsə, hicranə tab etməz könül!
Özgə bir mahi münəvvər intixab etməz könül!

Sinəmi qıllam sipər cananımın müjganına,
Cümlə cövrə tab edər kim, inqilab etməz könül!

Surətin hərdən əgər görsəm güli-rüxsarımın,
Möhnəti-hicrandan artıq iztirab etməz könül!

Göz yaşım leysan kimi seyrab edibdir aləmi,
Şövqi vəsl olmuş səbəb, heç irtikab etməz könül!

Eşq bağın əşk ilə tez-tez ürək sirab edər,
Curlardən özgə bir şey iktisab etməz könül!

Zəkəriyya, vəsli-şövqin sən əzəldən duymadın,
Hər yetən səyyarəni, bir afitab etməz könül!

*1960*

***

Həyatımın, gözəlim, sən fərəhli qüvvəsisən,
Gözəllik aləminin sən nə dadlı meyvəsisən?

Nə xoş dəqiqələr idi, keçirdiyim günlər,
Təbiətin mənə, ey gül, dəyərli töhfəsisən.

Sənin bu nazını çəkmək ilə mən xoşbəxtəm,
Özün şikəstə nəfəs, varlığın da şivəsisən.

Sənə qəmər deməzəm, şöləsin Günəşdən alır,
Sən afitabımızın bir ziyası, şöləsisən.

Çəkən zəbanə şami-səhər gülüzar içrə,
O nazlı bülbülün, ey şux, könül tərənəsisən.

Ötən gecə sənə mən ki, rəqibə baxma, dedim,
Bu hüsnə tənə yaraşmaz, sən inci danəsisən.

Dedin ki, mən səninəm, özgə bir kəsim yoxdur,
Odur ki, gözlərimin parlayan şərarəsisən.

Zəkəriyya, sənə aləm açıq paxıllıq edir,
O mahiparənin ancaq üzündə haləsisən.

*1960*

### *Qəzəl-təzmin*

***Görüm, ey zülfi-girehgir, pərişan olasan,***
***Mən tək aşüftələnib bisərü saman olasan!***

***Ağaəli bəy Naseh***

***

“Sən gərək gül tək açıb, aləmə məşhur olasan,
Nə ki bir qönçə kimi pərdədə məstur olasan".

Bu gözəllik ki sənə bəxş edilib fitrətdən,
Haqlısan, hüsnün ilə daima məğrur olasan.

Açma söz sən mənə gəl qüssə, kədərdən, qəmdən,
Gərək, ey nazlı sənəm, daima məsrur olasan.

Aşiqin borcu budur ki, çəkə min cövri-cəfa,
Sən də bu zülmün ilə eşqdə mənsur olasan.

Dözəcəkdir Zəkəriyya, verəsən min bir əzab,
Nə qədər zülm eləsən də, yenə məzur olasan.

*1960*

***

Mənə röyadə da ilham verən, ey gül, sənsən,
Ruhə can, əqlə qida, eşqə verən dil, sənsən.

Şahısan qönçələrin baqi-gülüstan içrə,
Nə bilim nərgizi-əla, ya qərənfil, sənsən.

Məni eşq atəşinə yaxdı kaman əbrulər,
Səbrimi, taqətimi əldən alan bil, sənsən.

Mən əgər Yüsifi-Kənanı deyilsəm əsrin,
Bu həqiqətdi, Züleyxayə müqabil sənsən.

Zəkəriyyanı salıb odlara, yandırdın onu,
Məni işgəncələrə salmağa qabil, sənsən.

*1960*

***

Gör nə xoşbəxtəm ki, yarəb, yar ilə bir yerdəyəm,
Lal olub nitqim mənim, heç tapmıram bir söz deyəm.

Məhrum oldum mən, əcəb idrakdən gerçəkliyi,
Sanki ehsas etmirəm, mən yerdəyəm, ya göydəyəm.

Öylə şadəm mən ki, idrak etmirəm hicran nədir?
Ol mələk bir şəmdir, mənsə bir pərvanəyəm.

"Hansı bürcdür məskənim", sordum sürəyyadan dünən,
Söylədi: - "Mən ülkərəm, ancaq günəş bürcündəyəm".

Sirdaşım daim Günəşdir, həmdəmim Zöhrü-Zühəl,
Bir günəş timsalıyam, əlbəttə, ondan baqiyəm.

Seyr edirsən, Zəkəriyya, yenə səyyarə ilə,
Söyləməzsən bir də sən: - Qəm mülkünün sultaniyəm.

*1960*

***

Dedim sənə, gözəlim, böylə imtahan olmaz,
Bu sirri heç kəsə sən verməsən, əyan olmaz.

Hər əhl-halə dünən eşqdən sual verdim,
Mənə yetən dedi ki, "eşqsiz cahan olmaz".

Məzəmmət etmə məni, mən gözəllik aşiqiyəm,
Sevib, sevilmək üçün böylə bir zaman olmaz.

Şəkər ləbindən əgər bircə busə lütf etsən,
Savab olar, gözəlim, sən inan ki, qan olmaz.

Yəqin özün də bilirsən, gözəllərin gülüsən,
Sənin kimi, mələyim, qönçə bir dəhan olmaz.

Zəkəriyyanı da pərvanələrə tay etdin,
Kimsə bunun qədər o eşqinə giryan olmaz.

*1960*

***

Çoxdandı görünməyir, ey gül, sərv qamətin,
Söylə, bəs hansı səmtə düşüb istiqamətin?

Əğyar ilə o gün dedilər həmdəm olmusan,
Batsın görüm sənin belə yöndəmsiz adətin.

Düşsəydin əgər mən kimi eşqin fəzasına,
Məlum olardı aləmə sənin şücaətin.

Eşqin məni o gündən edib dərdə mübtəla,
Çatmaz bu xəstəyə gücü heç bir təbabətin.

Hicran fəraqə qardaş olub, üz verən zaman,
Bir gəl təsəvvür eylə, bunun sən fəlakətin.

Görmə Zəkəriyyayə rəva böylə aqibət,
Bu tarmar edər, əlbəttə, onun xəndə halətin.

*1960*



***

***“Hər lalərüxün şəm kimi eşqinə yandım,***
***Bir ləhzə xəbər tutmadı pəjmürdəliyimdən".***

***Əliağa Vahid***

Məst oldum hilal qaşlarının tirəliyindən,
Naz ilə baxan gözlərin işgəncəliyindən.

Göstər mənə sən aşiq, əgər varsa cahandə,
Məşuqəyə söz açmaya divanəliyindən.

Surət ki, təsəvvürdə dolanmır gecə-gündüz,
Küssün o da qoy yoxluğu əfsanəliyindən.

Bir dəfə də heç vədə xilaf olmamısan sən,
Saldın məni lap heyrətə mərdanəliyindən.

Leyli tutub üz Məcnuna yalvardı nəhayət,
Məcnun ona dil vermədi biganəliyindən.

Sən gəl, Zəkəriyyanı xilas eylə bu oddan,
Qoy yanmasın atəşlərə pərvanəliyindən.

*1960*

***

Dur gedək, yarə dedim, eylədi dad, istəmirəm!
Eyləsən də dedi fikrində inad, istəmirəm!

Mənə xoşdur bu məkan, guşeyi-cənnətdi bura,
Bunu hər kəs mənə eylərsə irad, istəmirəm!

Eşq mülkündə bu yer xaneyi-rizvandı mənə,
Eşq bazarını əlbəttə kasad, istəmirəm!

Olmaram razı yanam şəm tək öz atəşimə,
Mən ki, pərvanəni atəşdən azad istəmirəm!

Bura cənnətdi mənə, burda yox hicran əsəri,
Burda vəsl aləmi var, özgə murad istəmirəm!

Məni ağuşuna sən burda alıb oxşamısan,
Başqa bir guşəni sən eyləmə yad, istəmirəm!

Zəkəriyya, bu məhəbbət nə qədər məsumdur,
Bunsuz aləmdə yəqin başqa həyat, istəmirəm!

*1960*

***

Eşqin, ey gül, badəsin içdim dünən mərdanə mən,
Artırıb öz dərdimi, düşdüm qəmi hicranə mən.

Gözləri bir cüt müdəvvər aləmin timsalıdır,
Dönmüşəm göylərdə ulduz axtaran insanə mən.

Gün keçir, dövran keçir, üşşaqə rəhm etmir zaman,
Aşiqəm hər şeydən əvvəl böylə bir dövranə mən.

Vəsl zövqün bilməyən aqil deyil, divanədir,
Vəsl qədrin duymaram, gər düşməsəm hicranə mən.

Eşq zövqündən səmər görməz dəli-divanələr,
Bənzəyirdim eşq mülkündə o gün sultanə mən.

Zəkəriyya, sən ki hər dərdin bilirdin çarəsin,
Düşmüşəm bir dərdə, möhtac olmuşam dərmanə mən.

*1960*

***

Dila, bil, dərdi möhnətdən fələkdə afitab, ağlar!
Münəvvər ruyinə örtər qəmər, hərdən niqab, ağlar!

Könül hicranə düşsə eşq zövqündən, fəlakətdir,
Tökər qan-yaş, edər fəryad, çəkər daim əzab, ağlar!

Əgər pərvanə kam almazsa bir şəmin ziyasından,
Yanar atəşlərə tez-tez, edər bağrın kabab, ağlar!

Həvadır dəhrdə hər bir hübabın varlığı, ey dil,
Həvadan tarmar olduqca hər gün, hər hübab, ağlar!

Könül azad olarsa vəsli möhnətdən, səadətdir,
Görüb öz zindəganında böyük bir inqilab, ağlar!

Zəkəriyya, tükənmiş taqət ol vəsli-hicrindən,
Edər dərd əhlinə hər gün səhər, axşam xitab, ağlar!

*1960*

***

***“Sevgilim, eşq olmasa varlıq bütü əfsanədir,***
***Eşqdən məhrum olan insanlığa biganədir".***

***Əliağa Vahid***

Etibar olmazsa, ey gül, eşq evi viranədir,
Atəşi-eşqə yananlar dəhrdə pərvanədir.

Varmı bir xoşbəxt, xəbərsiz eşq zövqündən, deyin?
Böylə əşxasə məkan şamü səhər meyxanədir.

Hər kamal əhlində ilham eşqdən peyda olur,
Hər kimin ilhamı yoxsa, qəlb evi qəmxanədir.

Hansı sənətdir deyin, ilhama möhtac olmasın?
Hər sənət günhündə ilham olmasa, əfsanədir.

Zəkəriyyanı həvayi-eşqdir dilxun edən,
Sanmayın kim binəva Məcnun olub, divanədir.

*1960*

***

***"O qara zülf ki, hər an dolaşır şanələrə,
Göstərir eşq kəməndin dili-divanələrə".***

***Əliağa Vahid***

Yenə tezdən dolamış zülfün o məh şanələrə,
Bu gözəlliklə əcəb bənzəyir əfsanələrə.

Dərdi hicranına hər gün necə tab etsin ürək,
Qorxuram göndərə tez-tez məni meyxanələrə.

Birgə nuş eylər idik Şəms, Qəmər şölələrin,
Bir baxardıq gecə biz göydəki səyyarələrə.

Vəsl şövqinə ümid eylər idi gündə məni,
Zidd çıxıbdır deyəsən etdiyi peymanələrə.

Özü bir şəm kimi, mənbəyi eşq olmuş idi,
Məni döndərmiş idi dəhrdə pərvanələrə.

Bu həqiqətdi, gözəllərdə vəfa olmaz imiş,
Bir an içrə məni tay eylədi biganələrə.

Zəkəriyya, necə gördün bu gözəllər gözəlin?
Qoyma əmsal eləsin sizləri divanələrə.

*1960*

***

***"Ey dil, hezar şükr xəbər gəldi yardən,***
***Olduq xilas dərdü-qəmi intizardən".***

***Əliağa Vahid***

Fəraqin ayrı salıbdır sevəni vəsli-yardan,
Məhrum edib fələk məni ol gülüzardən.

Şamü səhər yanır ürəyim eşq narına,
Xoşdur, şikayət eyləmirəm ruzigardən.

Bais bu macərayə yəqin, ey mələk, özün!
Qəlbin nə halə düşüb gör qübardən.

Duydum qəzəb dünənki baxışlarda aşikar,
Sandım ki, keçirdin məni sən zülfüqardən.

Əda ilə nə üçün, söylə, bəs keçib getdin,
Saqit sanırmıdın məni sən etibardən?

Sən gəl öyünmə hüsnünə çox da Züleyxa tək,
Bir gül kimi sən də yetişdin bahardən.

Bu hüsnünə Zəkəriyya da bənd olub qalmış,
Nə halə salmısan onu bax, intizardan.

*1960*

***

Mən heyranam, gözəlim, sənin sədaqətinə,
Odur ki, tab edirəm zülmünə, əsarətinə.

Dedin mənə: - "Sənə mən yar olub cəfa çəkərəm,
Çatarsan onda yəqin əhdinə, səadətinə".

O gün ki, surətini görməsəm qanım qaralır,
Vurulmuşam mən onun şövqinə, məlahətinə.

Yaraşmayır sənə heç də o günkü qanqaralıq,
Mən aşiqəm üzünün bil gülər əlamətinə.

Bu ah ki mən çəkirəm kainatı yandıracaq,
Yəqin ki, tab eləməzsən onun hərarətinə.

Nə Şəmssən, nə Qəmərsən, yəqin Sürəyyasən,
Qalıbdır insaf, əzizim, sənin səxavətinə.

Buna inan, Zəkəriyya səninlə fəxr eləyir,
Kim aşiq olmaz, ey afət, o sərv qamətinə.

*1960*

***

Hüsnün, ey gül, dedilər xəstəyə dərmandı sənin,
Kuyinə söz ola bilməz ki, gülüstandı sənin.

Hər mərəz çarəsini qönçə dodağından alır,
Yeri vardır desəm o ləblərə loğmandı sənin.

Saçların rayihəsi müşkdən artıqdı mənə,
Leyliveş zülfün inan, sünbülü reyhandı sənin.

Buxaq altında gəzən təkcə xalın vurğunuyam,
Hüsnə rövnəq gətirən sevgili mərcandı sənin.

Məni hər gün, gözəlim, Şəmsdən artıq isidən,
Gözlərin bərq kimi aləmə şayandı sənin.

Vermisən dil dedilər dəhrdə biganələrə,
Bu yalandır, mələyim, şəninə böhtandı sənin.

Zəkəriyya səni sevmiş, sevəcək ömrü boyu,
Gündə min dəfə yəqin eşqinə qurbandı sənin.

*1960*

***

Sənə ömür boyu, ey gül, həmzəban olan mən idim,
Məhəbbət ilə sənə mehriban olan mən idim.

Bu gülşən ölkəmizi sən ki, laləzar elədin,
Bu cür kəramətinə şadman olan mən idim.

Məni fəraq oduna yandırıb yaxan sənsən,
O şövqi vəslin ilə bağrı qan olan mən idim.

Baxanda əyri göz ilə rəqiblər üzünə,
Yəqin ki, şübhə ilə bədguman olan mən idim.

Kəməndi-eşqinə hər kəs düşüb cünun olmuş,
Cəfayi-eşqinə tək kamiran olan mən idim.

Məhəbbətin Zəkəriyyanı xoşkəlam etmiş,
Onun səadətinə canfəşan olan mən idim.

*1961*

***

Könül istər xəbər, badi-səba, öz Afitabindən,
Buyur ver bir xəbər, qurtar onu eşqin əzabindən.

Kəsib vəslin yolun hicran əlində qanlı şəmşiri,
Könül hər gün yeyir odda yanan bağrın kəbabindən.

Yerin hicran verəndə vəslə əhvali-səadətdir,
Könül rəncidə qalmaz, böylə vəslin inqilabindən.

Gözümdən qoymaram əsla kənarə mahi-rüxsarı,
Ürək qan ağlasın bir də bu eşqin iztirabindən.

Vətəndə, ey güli-rənam, bilirsən hörmətin çoxdur,
Tamam məmlüvu olur aləm sənin ətri gülabindən.

Zəkəriyyanı neçin qərq eylədin söylə, sirişkində,
Gözəllər imtina etsin gərək öz irtikabindən.

*1961*

***

Varmı aya, görəsən çarəsi divanələrin?
Mərəzi olsa əgər eşq bu biçarələrin.

Gündə bir şam oduna min dənə pərvanə yanır,
Nədir aya, görəsən taqsırı pərvanələrin?

"Eşq sevdası vüsaldır buna bais" dedilər,
Ki, məzacında əlamətdi bu mərdanələrin.

Necə Məcnun deyəsən dəhrdə hər sərsəriyə,
Rəğbəti varmı görən eşqə bu biganələrin?

Vətən azad olar, əlbəttə, bu "Məcnunlardan"
Bağlasan gər qapısın dəhrdə meyxanələrin.

Zəkəriyya, eləmə tənə bu pərvanələrə,
Yanır aləm oduna gündə pərizadələrin.

*1961*

***

Söylə mənasını, ey gül, belə bəd rəftarın,
Başı batsın səni yoldan çıxaran əğyarın.

Sən ki, gül üzlü, təravətli mələkzibasən,
Neçin uydun sözünə bəs elə bir idbarın?

Yanıram şam-səhər atəşi-hicranına mən,
Bir müəmma kimi qalmış mənə o əsrarın.

İnanım bəs necə mən söylədiyin sözlərinə,
Hanı, ey vədəxilaf, bağladığın ilqarın?

Sənin eşqində cəfa mülkünə sultanəm mən,
Məni yaxdıqca yaxır qəlb evinə odların.

Nə qədər məndən uzaqsan, gəzəcəksən qəm ilə,
Arzum olmaq idi hər gündə sənin qəmxarın.

Zəkəriyyanı dedin sevməmisən ömründə,
Onu görcək nə üçün bəs qızarır rüxsarın.

*1961*

***

Eyləməzdim dərd əgər görsəydim ol cananımı,
Mən fəda eylərdim o şuxə, inan, öz canımı.

Zərrəcə etsəm xəyanət əhd ilə peymanıma,
Razıyam, əlbəttə, ol məh axıtsın qanımı.

Mən əsiri-eşqiyəm öz laleyi-rüxsarımın,
Qoymaram sansın sədaqət, gəzdirən peymanımı.

Əhli-halın atəşi-eşqindən aldım min şəfa,
Tapdım onda mən bu gün öz dərdimi, dərmanımı.

Mən rəqibdən qorxmuram, cananımın ilqarı var,
Zəkəriyya, gözlərəm ol yardən fərmanımı.

*1961*

***

Gül üstə xar görməsə, bülbül fəqan etməz,
Sədaqət əhlini, ey şux, kimsə imtahan etməz.

Çəmən çiçəklərinin şirəsin ləbindən alan,
Bəlali aşiqə ehsan olar ki, qan etməz.

Sənə nə xeyri var, aşiq düşə biyabanə,
Bunu sən eyləsən, ey məh, yəqin zaman etməz.

Üzün məlalını gördüm, qəm ilə həmdəm idin,
Bu qəm uzun zaman, ey şux, aşiyan etməz.

Gərək cəfalara dözsün o kəs ki aşiqdir,
Həqiqi aşiqini heç nə bədgüman etməz.

Sədaqət aşiqiyəm, mən ki Zəkəriyyayəm,
Bir özgə qəlbdə qəlbim, inan, məkan etməz.

*1961*

***

Sənin eşqində, gülüm, dərdə giriftar mənəm,
Atəşi-eşqinə yanmaqda həvəskar mənəm.

Qoymaram kəm baxa biganə o gül rüxsarə,
Belə biganələrə dəhrdə əğyar mənəm.

Bu Vətən bağçasının qönçəsi sənsən, gözəlim,
Bülbüləm, qönçələrin bağda xiridarı mənəm.

Gözlərin bərq verir gündə bu eşq aləminə,
Məxfi qalsın, bu işin əsl səbəbkarı mənəm.

Əhdimiz qurmaq idi eşqimizə kaşanə,
Eşq kaşanəmizin dəhrdə memarı mənəm.

Zəkəriyyayə ayır guşeyi-qəlbində məkan,
Aşiqəm, çünki bunun gündə tələbkarı mənəm.

*1961*

***

***“Hanı o mah ilə mən işrət etdiyim gecələr,
Tülüi sübhə kimi söhbət etdiyim gecələr".***

***Seyid Əzim Şirvani***

Tükənir sübhə qədər səbri qərarım gecələr,
Mənə röyadə də rast gəlmədi yarım gecələr.

Mən xəyalımda onun surəti-halın görürəm,
Surət olmuşdu mənim əsl vüqarım gecələr.

Çəkirəm şəhdi ləbin busəsinin həsrətini,
Bunu vəd eylədi dünyada nigarım gecələr.

Versə o mahi-münəvvər mənə bir busə əgər,
Şəms tək bərq verər, şəbidə tarım gecələr.

Can verən dəmdə tutub əllərimi oxşasa yar,
Şəm tək şölə salar onda məzarım gecələr.

“Səbrdir, çareyi-eşqə belə məlhəm” dedilər,
Səbr olubdur, Zəkəriyya, yenə karım gecələr.

*1961*

***

Söylə, kimdir, gözəlim, bəs sənə həmdəm gecələr,
Kim çəkir nazını, kimdir sənə məhrəm gecələr?

Şövqi vəslinlə yanır atəşi-hicranə könül,
Dürtülür qəlbimə hər an neçə min qəm gecələr.

Səni əğyar ilə bir yerdə əgər görsə gözüm,
Çeynəyər onda mənim qəlbimi şübhəm gecələr.

Üzünü görmədiyim gün ürəyim qanə dönür,
Taqətim lap kəsilir, səbrim olur kəm gecələr.

Dolaşır gündə xəyal aləmini ruhi-tənim,
Yatmıram sübhə qədər hər belə mübhəm gecələr.

Zəkəriyya da zənəxdanına olmuş məftun,
Onun eşqilə olur daima xürrəm gecələr.

*1961*

***

Atıb xədəngini, ey gül, yamanca qan elədin,
Bu vəsl hicrini sən gör nə pis zaman elədin.

O nazi qəmzələrin ki yadımdadır daim,
Cəfalarınla məni, yoxsa imtahan elədin?

Kəsildi səbri-qərarım bu hicr evində mənim,
Bu sərv qəddimi sən, gör necə kaman elədin?

Əgər desən düşərəm xaki-payinə hər gün,
Bu gizli sirrimizi bəs neçin əyan elədin?

Sənin gülər üzünün afitabə bənzəri var,
Mənə qəmər deyərək, xeyli bədgüman elədin.

Utanmadın, Zəkəriyyanı saldın odlarə,
Səbəb nə oldu, onun halını yaman elədin?

*1961*

***

Şurə gəl, bülbül, duyaq yar eşqinin mənasını,
Nuş edək aləmdə eşqin hərgiz istiğnasını.

Eşqdən ilham alır hər bir Vətən övladımız,
Anlayır hər kəs yəqin öz eşqinin mənasını.

Bir cəmiyyət qurmaq olmuşdur bizim amalımız,
Xalqımız öncə gərək qursun bəşər dünyasını.

Məşəl olmuş ölkəmiz səyyarələr dünyasına,
Eyləməzsək Afitabın gərçi istisnasını.

Dəhrdə amal eşq olmuş hər insan oğluna,
Can atır görsün həqiqət hər kəs öz xülyasını.

Zəkəriyya, sən də xoşbəxtsən bu gün xalqın kimi,
Arzun görməkdir ancaq yeni bir dünyasını.

*1961*

***

Zülfün, ey gül, necə gör türreyi-tərrar olmuş,
Onu görcək bu könül eşqə giriftar olmuş.

Doladın boynuma geysulərini bir-bir sən,
Elə bildim ki, onun hər biri şahmar olmuş.

Gülün eşqilə yanan dəhrdə bülbüldür, bax,
Gülə həmdəm, işə bir bax, dedilər xar olmuş.

Eşq mülkün deyəsən qəsb eləmiş biganə,
Əsl aşiq niyə bəs bunca günahkar olmuş?

Onu salmış bu kədər dəhrdə qəm məhbəsinə,
Binəvanın günü gör bir nə yaman tar olmuş.

Zəkəriyyadı dedin, saldın onu odlarə,
Sənin eşqində bilirsən necə bimar olmuş?!

*1961*

***

Sənə ömür boyu mən şadiyanəlik dilərəm,
Səninlə gündə, gülüm, mən də şad olub gülərəm.

Əgər qonaq gələsən bu Badikubəmizə,
Sənin qabağına mən Afitabı endirərəm.

Yanaqların gül, üzün ay, ləbindi şəhd-şəkər,
Üzündə qatlarını bircə cüt hilal bilərəm.

Sapa özüm düzərəm mən fəzanın incilərin,
O gül camalına, canan, hədiyyə göndərərəm.

Unutma sən, Zəkəriyyadı bil nigahbanın,
Vüsalın ilə hicr atəşini söndürərəm.

*1961*

***

Qaşın şəbahəti var, yaylı bir kəmanə, gülüm,
Səni nə yaxşı yetirmiş bizim zəmanə, gülüm!

Sən olmasaydın əgər ki mənim nigahbanım,
Mən onda gəlməz idim inan ki, cəhanə, gülüm!

Dedin sabah çıxarıq seyrə, kamiran olarıq,
Bu gün nədir yenə kəşf etmisən bəhanə, gülüm?!

Mənə gül yanağından əgər bircə busə lütf etsən,
İnan ki, daim onu etmərəm nihanə, gülüm!

İnanmayırsan əgər sən mənim sədaqətimə,
Buyur, çək indi məni sən yüz imtəhanə, gülüm!

Dedin ki sevməmisən sən özün Zəkəriyyanı,
Neçin salırsan onu xeyli bədgümanə, gülüm!

*1962*

***

Öp, ey badi-səba erkən sən ol cananın alnından,
Qovuş ilhamə tezdən, şöleyi-eşqin vüsalından.

Siqəl ver zülfünə yarın, sən hər gün şanədən əvvəl,
Alım ilhamımı mən də, o gülzarın camalından.

Saqın hər cür xəyanətdən, məni məhbusi qəm etmə,
Çıxar birdəfəlik sevdayi-eşqi xam xəyalından.

Gecəm də gündüzüm tək nurə qərq olmuşdur hər bir vaxt,
Desəm səhv etmərəm əsla, yarın bir cüt hilalından.

Bu ay üzlüm, qələm qaşlım buti-zibadən artıqdır,
İraq olsun görüm, yarəb, yaman gözlər zavalından.

Zəkəriyya, fəzayi-eşqdə pərvaz edər könlün,
Əgər ilhamını alsan sən ol xurşid misalından.

*1962*

***

Mehriban gördüm bu gün mən, ey hilaləbru, səni,
Hüsnün etmişdi əsir, eşq anlayan hər kimsəni.

Eyləməzdim səhv əgər, mərmər desəydim sinənə,
Leyliveş zülfün sənin olmuşdu müşkün məskəni.

Bir nəzər saldın mənə, min işvə idrak eylədim,
Mən eşitdim ki, gözəllər səndən almış şivəni.

Bir təsəvvür naminə günlərlə idrak eylədim,
Xeyli cəhd etdim görüm kim xəlq edibdir bu təni.

Zəkəriyya, özgə yerdə xaliqi axtarma sən,
Böylə min-min nazənin xalq eyləyən bil Vətəni.

*1962*

***

Günüm nə xoş keçir, ey dil, nigar olan yerdə,
Yetərmi bülbülə qəm novbahar olan yerdə?

Mənə behişt kimidir bu duyduğum aləm,
Könül də şurə gəlir, iftixar olan yerdə.

Desəm qanım qaralır, çünki bir həqiqətdir,
Zamanə qəsd eləyən, fitnəkar olan yerdə.

O kəs ki xalqını sevmir, biganədir Vətənə,
Vətən ona nə verər, qəm-qubar olan yerdə?

Mənim də xalqım ilə taleyim, işim birdir,
Buna nə şübhə olar, etibar olan yerdə?

Qəm eyləmə, Zəkəriyya, bizim bu aləmdə,
Gözəl səfası olur, gülüzar olan yerdə.

*1962*

***

Dünən görəndə səni novbaharə bənzətdim,
Dübarə dərk elədim, nazlı yarə bənzətdim.

O sərv qəddinə baxdıqca şad olur könlüm,
Coşan bu hissimi mən, iftixarə bənzətdim.

Səninlə dəhrdə hər gün keçirdiyim günlər,
Vicudi tərk edən halı, qubarə bənzətdim.

Gözüm qabağına fikrən gəlir o şux duruşun,
Sənin bu halını, ey şux, vüqarə bənzətdim.

Behişt bağının ətrin verən çiçəklərini,
O güllü bağçanı mən, laləzarə bənzətdim.

Məni fəraq oduna sən ki yandırıb yaxdın,
Gözümdə möhnətimi intizarə bənzətdim.

Zəkəriyya, o gözəllər ki vəfa sahibidir,
Mən onların hərəsin bir nigarə bənzətdim.

*1962*

***

Səni gördükdə, gülüm, sanki gülüstan görürəm,
Saçı ənbər ətirli, yanağı gül kimi insan görürəm.

Çıxıb əflakı mələklərlə dolandın gəldin,
Eşq mülkündə səni, gör necə sultan görürəm?

Eşq mülkünə bu əğyar izi hardan düşmüş?!
Xeyir olsun, səni mən didəsi giryan görürəm.

İntiqam almağa amadə ikən əğyardan,
Əllərində nədi, şəmşir ilə qalxan görürəm!?

O gözəllər ki vəfasızlıq edir aşiqinə,
Bunu, əlbəttə, onun şəninə nöqsan görürəm.

Bəzədin hüsnün ilə dəhrdə kaşanəmizi,
Ziynətindən evimi xaneyi-rizvan görürəm.

Zəkəriyyadı sənə bəxş eləyən ruhi-tənin,
Onda şövq ilə yanan, eşqli bir can görürəm.

*1962*

***

Ey gül, sənə bu hüsn, sədaqət halal olsun,
Qəlbindəki eşq ilə səxavət, halal olsun.

Ənbər saçının rənginə bənzər qara gözlər,
Gözlərdən axan bunca ədalət, halal olsun.

Mən indi inandım nə şirin püstə dilin var,
O qönçə dodağında təravət, halal olsun.

Xar ilə eşitdim yenə cəng eyləmisən sən,
Əğyarə olan bunca ədavət, halal olsun.

Saldın Zəkəriyyanı da odlara əzəldən,
Çox "yaxşı" bir iş tutdun, ey afət, halal olsun.

*1962*



***

Görəndə surətini lalə xar olur, ey gül!
Sən hansı bağçada varsan, laləzar olur, ey gül!

Təbiətlə birgə gülürsən, bu yaxşı şakərdir,
Həmişə sən gələli novbahar olur, ey gül!

Səninlə həmdəm olub ömr sürdüyüm gündə,
Saatlarım elə bil, ixtisar olur, ey gül!

O hüsnünə bu təravət desəm əcəb yaraşar,
Mənə həmişə bu hal iftixar olur, ey gül!

Düşmə kənara gözündən çalış Zəkəriyyanın,
Məhəbbət ilə əkiz etibar olur, ey gül!

*1962*

***

Bilməm niyə, ey məh, mənə biganə, sən oldun?
Üşşaqin atan guşeyi zindanə, sən oldun.

Hər gün mənə ilham verən, ey mahi münəvvər,
Mane olan, əlbəttə, bu imkanə, sən oldun.

Dikdim gözümü o gülü rüxsarə həmişə,
Baxdıqca üzün döndərən hər yanə, sən oldun.

Sən Leylimisən, söylə görüm, ey gülü rəna,
Məcnunu salan guhi-biyabanə, sən oldun?

Şirin ki deyilsən, deyim, ey gözləri şəhla,
Fərhadı atan onda kuhistanə, sən oldun?

Geydin yenə bir tirə libas əyninə sən də,
Axır Zəkəriyya, düşən hicranə, sən oldun.

*1962*

***

Günəş olmazsa bu aləmdə, gülüm, nur olmaz,
Hər görən şöləsini ol günəşin, kur olmaz.

Günəş eşqilə baxın, yer də olub pərvanə,
Fitrətindən dolanır, bax bu qədər, cur olmaz.

Atəşi-eşq ilə bir sinədə yanmazsa ürək,
Eşq dünyasına Məcnun kimi, məşhur olmaz.

Etmərəm səhv əgər eşq desəm musiqiyə,
Olmasa musiqi segah, nə də ki, şur olmaz.

Eşqdir dəhrdə hər qəlbə səadət gətirən,
Eşqsiz bir ürək əlbəttə ki, məsrur olmaz.

Eşq açarıdır aləmdə bütün əsrarın,
Zövqi eşqə bu həqiqətdi ki, məcbur olmaz.

Eşq insana nəsib oldu təbiət içrə,
İnsan oğlu necə bu eşqlə, məğrur olmaz?

Tövqi-zəncirinə saldın Zəkəriyyanı da sən,
Belə bir halətə eşq olmasa, məcbur olmaz.

*1962*

***

*M.Füzuliyə nəzirə*

***"Lalə tək bağrım mənim, ey nazənin, yüz parədir,***
***Yandıran hər parəni, ol atəşin rüxsarədir".***

Aşiqə eşqin əzabı bir səadətdir, gülüm,
Eşq dərdindən düşən səhralara avarədir.

İncəlib hər gün mərəzi-eşqdən bir şam kimi,
Vəslə yetməzdən qabaq, ölmək özü pis çarədir.

Yandırır qəlbin qəmu-möhnətdə əhl-eşq olan,
Eşq sevdası ona, sanki bir atəşparədir.

Eşq zövqündən xəbərsiz aşiqin dünyasına,
Şurdən məhrum olan, bir canlı tək nəzzarədir.

Zəkəriyya, eyləmə hərgiz şikayət dəhrdən,
Çünki məşuqən sənin bir afəti-məhparədir.

*1962*

***

Xəyal-vəsl-yar ilə bağrım kabab olub,
Guya şüur-karidə bir inqilab olub.

İstəməm mən tərki-dünya, şən həyat eşqindəyəm,
Karım həmişə xalqıma bir xoş xitab olub.

Şövqi gül ilə bülbül olub, naz çəkəndə mən,
Ziyayi-eşqi rahimə əfşan afitab olub.

Xain çıxanda bir əbnayi-bəşər xalqa müdam,
Karı həmişə xalqa onun irtikab olub.

Həmişə xalqı ilə dost olub Zəkəriyya da,
Amalı xalqının ona, bir afitab olub.

*1962*

***

Bir yaman dərdə giriftar görüm, xar olsun!
Onu məndən də betər dərdə giriftar olsun!

Hansı gül bəxş eləyir rayihəsin bülbülünə,
Belə güllər bizim aləmdə gərək, var olsun!

Bənzər pərvanəyə kim gündə yanır eşq oduna,
Nə ki xar ola o aşiqə, əğyar olsun!

Sevməyən sevgi nədir, dərk eləməz aləmdə,
Harda var sevgi, gərək orda da, ilqar olsun!

Üzü gül, qaşı hilal, gözləri şəhla gözəlin,
Zülfü ənbər qoxuyan, türreyi-tərrar olsun!

At üzü qarə telin dairəsindən baxsın,
Dalda keysulərinin hər biri, şahmar olsun!

Sərv tək qəddi, kamal əhli olan bir sənəmi,
Sevməyən hər kişiyə mən deyərəm, ar olsun!

Bir məhəbbət yolunun yolçusudur, söylə görək,
Zəkəriyya nə üçün burda günahkar olsun?!

*1962*

***

Şad olaq gəl, gözəlim, sevgili dövrandı bu gün,
Məni Məcnun eləmə, gəl, ürəyim yandı bu gün.

Bir nəzər sal gözümün hər gün axan yaşına sən,
Tökülən didələrimdən, gözəlim, qandı bu gün.

Sərvi qəddin mənə bir mənbəi-ilham olmuş,
Mərəzi-eşqimə də bax, hələ dərmandı bu gün.

Vəsli şövqin məni Fərhad eləmişdir, gözəlim,
Rəhm edib bircə demirsən ki, bu insandı bu gün.

Anamız, nazlı Vətən gör nə qədər gülşəndir,
Zəkəriyya da onun mehrinə qurbandı bu gün.

*1962*

***

Nədir səbəb de, sənin duymuram səxavətini,
Utanma, söylə, əzizim, bu sirrin illətini.

Payızda, yayda da bax, çiçəklərin vardır,
Məgər bahar aparıb sənin təravətini?

Fəqani-bülbülə bais həmişə hüsnündür,
O qönçələrdən verən bülbülə səadətini.

Düşəndə yadıma günlər ki, onda həmdəm idin,
Mənə dübarə qaytarır onlar fəxarətimi.

Günah özündədir, afət, neçin çıxıb getdin,
Mənə açıb demədin o gizli söhbətini.

Bu hala yandı ürəkdən inan, Zəkəriyya da,
Kim istəyir ki, itirsin sənin tək afətini.

*1962*

***

Ey şux, bu qədər işveyi-naz eyləmə barı,
Kim görsə üzün, yada salar fəsli baharı.

Gül lalələr açmış görürəm al yanağında,
Qoyma bu çəmənzarə yaxın gəlməyə xarı.

Fəxr eylə ki, bu hüsnü təbiət sənə vermiş,
Ondan da gərək öyrənəsən əsl vüqarı.

Ardınca düşən hər kəsə Məcnun kimi baxma,
Məcnun olanın badə gedər şamı, naharı.

Saf eşqini bəxş eyləmə hər qaşı qaraya,
Ömrün yoluna yaxşı nəzər sal, səni tarı.

Gör kimdir olan dəhrdə həmdəm sənə, ey gül,
Varmı bu rəfiqin görəsən qeyrəti, arı.

Dəhşətdir əgər qul olasan ehtirasa sən,
Arzu eyləyəcəksən, inan, hər gündə məzarı.

Gözlə, Zəkəriyya kimi aldanma məbadə,
Bir səhvlə dost tutdu əzab ilə qubarı.

*1964*

***

Pərvanəyəm, atəşlərə yannam, kədərim var,
Aşiqlərə məşuqələrindən xəbərim var.

Bülbül kimi cəh-cəh vururam qönçələr üstə,
Eşq aləmini gəzməyə bircə gözəlim var.

Məcnun kimi səhraları avarə dolanmam,
Min dərd ola tab etməyə, bil ki hünərim var.

Divanələr əsrində ki ömr eyləmirəm mən,
İnsanlığa xidmətdə mənim dərdi sərim var.

Artdıqca bu könlümdə mənim eşqin havası,
Mən dərk edirəm sən kimi Şəmsim, Qəmərim var.

Bihudə ki ömr eyləməmişdir Zəkəriyyə,
Ömründə o hər yerdə deməzdi əsərim var.

*1965*

***

Üzündə lalələrin, sevgilim, lətafəti var,
Ətirli güllərin, afət, inan, təravəti var.

Duyan o mavi gözlərinin hərarətin hər gün,
Onun heç olmasa da, nəqdi bir səadəti var.

O zülflərin ki yayır həyatə müşk dalğaların,
O dalğalarda üzən yelkənin fəxarəti var.

Yayır şəfəqlərini sinən üstə rüxsarın,
Tulu edən Günəşə, gülüm, şəbahəti var.

Gözün fəzasını ağuşinə alan qaşlar,
Kamana bənzəsə də, onun öz adəti var.

O qövsi-quzehlərin al rəngidir dodağında,
Bu qönçə ləblərin,ey gül, həyat əlaməti var.

Gülüş gözündən uçur, qonur dodaqlarına,
Mən öylə zənn edirəm bunların zərafəti var.

Gülər üzün Zəkəriyyanı şad edir daim,
Onun öz aləmi, öz zövqü, öz siyasəti var.

*1965*

***

Kimdir deyən sənə, ey dil, bəxti qarəsən?
Ya kim bu halə düşmüsən, artıq biçarəsən?

Səninkidir o gül, aləm duyur təravətini,
Vermə, məbadə fürsəti, gəl təkcə xarə sən.

Özgə xəyalə düşməginən, min günah olar,
İlhamı öz gülündən al, çəkil kənarə sən.

Sədaqət axtarırsan əgər, əhdə sadiq ol,
Sonra bax ondakı möhkəm etibarə sən.

İnsaf ilə nəzər sal, onun gül camalına,
Dəyişmə, heyifdir, onu gəl yüz nigarə sən.

Söylə, Zəkəriyyə, yenə vardırmı həsrətin?
Verdin xitam bir dəfəlik intizarə sən.

*1965*



***

*AİLƏ üzvlərinə ithaf olunur*

Ey Vətən, hüsnündən ilhamlar alan el şad olar,
Gün yanar, ay parlayar, iqlim gülər, yer şad olar.

Bir cəmiyyət qurmuşuq, hər kəs onun memarıdır,
Hansı cəmiyyət bunun tək aləmə İrşad olar.

Döndərər hər guşəni bir cənnətə min laləzar,
Hər Vətən əhli bu sirri dərk edər, Dilşad olar.

Tacın olmuşdur sənin əlvan çiçəklərdən çələng,
Vəcdə gəlmiş kainat, bülbül gülər, Gülşad olar.

Hər çəməndə lalələr, min-min qəşəng Növrəstə, gül,
Öz yaşılbaş Sonasın gördükdə, həp göl şad olar.

Bülbül olmuşdur Cahangir güllərin dünyasına,
Gül açar, quşlar gülər, həp yanda bülbül şad olar.

Ramizin qəlbi deyim, indi coşubdur qəzələ,
Zəkəriyya, qəzəlin də dəxi inşad olar.

*1966*

***

Tükəndi səbri qərarım, nə macəradır bu?
Yəqin ki, aşiqə bir dərd - mübtəladır bu.

Fəzayi-möhnətə atdın məni, çıxıb getdin,
Mən indi bilmirəm, heç nə cür bəladır bu?

Vurulmuşam inanırsan, o bircə cüt qafə,
Əgər ki yüz desələr, səri qaradır bu.

O Qaf ki zirvəsi zülmət, bünövrəsi mərmər,
Ona qəmər deməsəm, bir iftiradır bu.

Neçin o don geyinir, günəş açanda gözün?
Gözəllik aləmində məgər bir ixtiradır bu?

Əgər çıxarsa vəfasız o mahü rüxsarın,
Zəkəriyya, aşiqə bir böyük bəladır bu.

*1967*

***

Nə bahardır, gözəlim, yoxdu gülü, reyhanı?
Min çiçək ətri ilə çulğamamış dünyanı?

O nə bülbüldü ki, biganə olubdur gülünə?
Ucalır şam-səhər ərşə onun əfğanı.

O nə güldür ki, olur həmdəmi bəzən xarın,
Yoxsa təqlid eləyir hərdən o da nisvanı?

O nə pərvanədi, döndərmiş üzün şəmindən,
Girərək zülmətə olmuşdur onun mehmanı?

O nə məşuqədi ki, dərdə salıb üşşaqin,
Əvəz etmir belə bimarı üçün loğmanı?

O nə aşiqdi gedib kuhi-biyabanə düşür,
Bütün ömründə şərəfyab eləyib hicranı?

O nə insandı ki, bəs dostu deyil insanın?
Mən deyərdim ki, onun zərrəcə yox vicdanı.

Kim ki gəlmişdi həkimanə bizim dünyaya,
Zəkəriyya kimi dost tutmalıdır insanı.

*1967*

***

Güllər saralıbdırsa, bu reyhan nəyə lazım?
Bülbüllər uçubdursa, gülüstan nəyə lazım?

İnsandı quran min cürə cənnət bu cahanda,
Gər olmasa bu dəhrdə insan, nəyə lazım?

Bir fikr ilə ömr eyləsə dünyada xəlayiq,
Tövrat ilə, İncil ilə, Quran nəyə lazım?

Dünya kimin olmuş, de kimindir, kimə qalmış?
Söylə, bu qədər sövq-hərisan, nəyə lazım?

Baş kəsməyi, qan tökməyi sənətmi sanırsan?
Əbnayi-bəşər olsa, pərişan nəyə lazım?

Dünyanı kamal ilə dəyiş, cənnətə dönsün,
Zülmün hədəfindən tökülən qan, nəyə lazım?

Bir eşq ilə dünyada gərək ömr edə xalq,
Bəs bir para insanlara zindan, nəyə lazım?

Batsın gərək insanlığa nöqsan gətirənlər,
Nakəslərə, namərdlərə dövran nəyə lazım?

Bir gün gələcəkdir, Zəkəriyyə, bütün aləm,
Bir ömr edəcəkdir, belə divan nəyə lazım?

*1967*

***

Hər qarə zülfə, gözəlim, şanə gərəkdir,
Eşq ilə məhəbbət bizim insanə gərəkdir.

Bir qəlbdə əgər olmasa, asar məhəbbətdən,
Hər böylə ürək bir dəli şeytanə gərəkdir.

İnsaf ilə vicdan nədi duymursa bir insan,
Əslində bir heyvandı, biyabanə gərəkdir.

Fərq qoymamış insanlara xilqətdə təbiət,
Kim qoysa bu fərqi, özü zindanə gərəkdir.

Bülbül kimi insan da, səadətlə əkizdir,
Bülbül kimi insan da, gülüstanə gərəkdir.

Dünya evinin zövqünü dərk etməsə hər kəs,
Bihudə keçən günləri məstanə gərəkdir.

Bir bax, Zəkəriyya, bu gözəl aləmə, fəxr et,
Kimlər ki bəyənmir bunu, divanə gərəkdir.

*1967*

***

Gətirdi vəcdə məni o lalə rüxsarın,
Sədheyf kim olmuş, bilmədim xiridarın.

Üzün məlalını gördüm, qəm ilə həmdəm idin,
Yəqin ki, qismətisən sən də bir idbarın.

O tuti nitqin ilə valeh eylədin məni də,
Bu nitq loğmanıdır hər bir əhli bimarın.

Eşitmisənmi behişt bağının məlahətini?
Onun bərabəridir, sənin bu cür gülzarın.

Görüm iraq olasan bəd-nəzər xətasından,
Uzaq deyil, onu bil, rəqibi-xunxarın.

Olar o bağına bağban inan, Zəkəriyya da,
Sədaqət ilə səninlə bağlayar ilqarın.

*1967*

***

Xurşid üzünə düşsə, gülüm, sayə yaraşmaz,
Qərq olsa bütün zülmətə, dünyayə yaraşmaz.

Məmlüv ola eşq ilə gərək büsbütün aləm,
Eşq olmasa, hər aşiqə sərmayə yaraşmaz.

Qardaş gərək olsun bu gün insanə hər insan,
İnsana əgər hiylə ola, qayə yaraşmaz.

Kim fisqu-ficur ilə edir ömr cahanda,
Hər növi-bəşər düşsə bu sevdayə yaraşmaz.

Eşq ilə səadət qazanar dünyada hər kəs,
Eşqilə əgər üz tuta səhrayə yaraşmaz.

Azdır, çəkə min cövrü cəfa bülbüli-şeyda,
Tək bircə xəyanət güli-zibayə yaraşmaz.

Hər cövrə dözər mən bilirəm eşq yolunda,
Bir zərrə xəyanət Zəkəriyyaya yaraşmaz.

*1967*

***

Sən ey könül çiçəyi, yar-mehribanımsan,
Başımda fikr-xəyalım, bədəndə canımsan.

Fəzayi-zəhmətə mən, səninlə yüksəlirəm,
Mənə qanad gətirən, təkcə bir gümanımsan.

Həyatımın ki özünsən yeganə mənası,
Sinəmdə sən ürəyimsən, içimdə qanımsan.

Gədasıyam, gözəlim, bu eşqi dərgahın,
Ürəkdə vəcdə gələn söhbətim, kamanımsan.

Ümid-vəsl ilə mən səmayə yüksəlirəm,
Fəzayi-eşqdə sən, təkcə bir məkanımsan,

Zəkəriyyanı unutma, odur üşşaqin bil,
Onunla sən gələsən, hər gecə mehmanımsan.

*1967*

***

Dünən bir namə aldım, ey könül, ol mah-tələtdən,
Qızardım lalə tək ondan qopan sönməz hərarətdən.

Məni tənqid edir canan ki, mən ol şuridə xarəm,
Əsər yoxdur vücudimdə, mənim guya məhəbbətdən.

Sözün mənasını bir-bir alıb idrakə verdikcə,
İnandım ki, bu cür sözlər deyilmiş bir siyasətdən.

Yanır bir atəşi-eşqə yazıq könlüm fəraqindən,
Bunu dərk eyləmir zalim, açır söhbət sədaqətdən.

Xəyal dünyasına girdim, rəfiqim min xəyal oldu,
Təsəlli tapmaq istərdim, xəyalımda səadətdən.

Nə gördüm mən, gəlir canan təbəssümlər dodağında,
Görünmür bir əsər, bəxş etdiyi təhriri söhbətdən.

Salıb hicranı zindanə, qıfıl vurduq kədərlərdən,
Qutardım canımı, ey dil, mən ol dostanə töhmətdən.

Böyük bir səltənət qurdum, o gün mən eşq mülkündə,
Zəkəriyyə, adil ol, hərgiz, uzaqlaşma ədalətdən.

*1967*

***

Aruzumdur bu mənim, dərdimi dildarə, deyin!
Mərəzi-eşqimə bais, o səbəbkarə, deyin!

Gördüm avarə gəzir, xarı çəmənzər içrə,
Çıxmasın bir neçə gün yar, o çəmənzarə, deyin!

Bir mələk tək yaradıbdır, onu dünyadə fələk,
Siz gedin, min dəfə əhsən o sənətkarə, deyin!

Göz yaşım gündə fərağında Xəzərlər yaradır,
Lalə tək eyləməsin, bağrımı yüz parə, deyin!

Azmışam bağı-məhəbbətdə yaman dərdim var,
Mənə hər kim bacarır qoy eləsin çarə, deyin!

Şövqi vəsli Zəkəriyyanı da Fərhad eləmiş,
Qoy əlindən nə gəlir eyləsin, əğyarə, deyin!

*1967*



***

Mən fəxr edirəm Azərbaycan Vətənimdir,
Min laləli, min güllü, çiçəkli çəmənimdir.

Pərvaz edirəm göylərə gördükcə camalın,
Göylər də, səmalar da, mənim bali-pərimdir.

Övladı mənəm, bir ana olmuş mənə daim,
Elmim, hünərim nanü-nəmək, pirəhənimdir.

Ağuşinə almış başımı nazlı nigarım,
O nazlı nigarım mənim, ey dil, Xəzərimdir.

Altun süzülür bal kimi qaymaq dodağından,
Xalqımla bu sərvət hələ tək bir səmərimdir.

İlham alıram izzəti, şöhrət-şərəfindən,
İzzət də mənim, şövkəti-şöhrət də mənimdir.

İdrak elədikcə mən onun varlığın hər gün,
Hikmətləri beynimdəki sevdayi-sərimdir.

Ellər həsəd eylər ki səadət də mənimdir,
Bilsin cəmi aləm, buna bais hünərimdir.

Mən mədh edirəm varlığını doğma bu yurdun,
Sən bil ki, bu sözlər, Zəkəriyya, əsərindir.

*1968*

***

Verən hər insana, ey dil, kamalı, tərbiyədir!
Kamalə bəxş eyləyən, ol camalı, tərbiyədir!

O kəs ki, zəhmət ilə ömr edir cəmiyyətdə,
Onun da zəhmət ilə vüsalı, tərbiyədir!

Soran cəmiyyətinin qanın damarlardan,
Verən o cahilə də bu halı, tərbiyədir!

Soyursa xalqını hər kəs, bu bir fəlakətdir,
O xalqa "bəxş" eləyən, zavalı tərbiyədir!

Buyur zəmanəyə bax, kim öldürür, kim ölür?
Zamanə "bəxş" eləyən, məlalı tərbiyədir!

Bir halət ilə gəlir cahanə insanlar,
Pozan bu halı inan, bəlalı tərbiyədir!

Zəkəriyya, bir amal ilə ömr eyləsə insan,
Bu halə bais olan, halal tərbiyədir!

*1968*

***

Səni eşqin, gözəlim, gör necə bimar eləmiş?
Leyli görmüş bu füzun, eşqini çox ar eləmiş.

Söylə, kim eşq yolundan çıxarıb aşiqini?
Belə nakəsliyi, bəs hansı bir idbar eləmiş?

Leyli tək səbr elə, ey şux, hələ əfğan etmə,
Bu bir işdir nə bilim, bəlkə də əğyar eləmiş?

Bilirəm, faciədir eşqdə məğlub olmaq,
Hansı namərd de, səninlə belə rəftar eləmiş?

Safdır eşqin o Günəş tək, bunu aləm də bilir,
Bu günəş eşqini kim söylə görək, tar eləmiş?

Ömür bir yoldur, onun hər qarışı maneədir,
Ömrə xidmət belə bir yolda vəfadar eləmiş.

Bəxtəvər ömr eləyənlər, Zəkəriyya, çoxdur,
Belə xoşbəxtliyi dildarına dildar eləmiş.

*1968*

***

Verdiyin hər bir sözün, ey nazənin, ilqardır,
Qönçələr açmış gülüstanın, əcəb gülzardır.

Qoyma xarı vəcdə gəlsin, söhbət açsın eşqdən,
Bir nəzər salsan, görərsən xar deyil, xunxardır.

Vəsli-hicran, qəlbi-viran, ürəyi-qan eyləyən,
Ey büti-ziba, bilirsən, bax, həmin idbardır.

Hansı qəlbin eşqi yoxdursa, inan, qəmxanədir,
Qəmləri hər yerdə bil, pamal edən dildardır.

Eşq dəfnin gözləmə, Leyla kimi dünyadə sən,
Heç əbəs zənn etmə, Məcnun eşqdən bizardır.

İxtilaf əhd ilə etməz Zəkəriyya da, gülüm,
Eşq mülkündə o Fərhaddan füzun bidardır.

*1968*

***

Bəh-bəh, nə gözəl ətirli bir gül-çəmənin var,
Min gül bitirən şanlı, şərəfli Vətənin var.

Mən şahidiyəm əsrimizin görmədim əsla,
Cənnət kimi aləm ki, bu torpaqda sənin var.

Tarix sənə etmişdi xəyanət lap əzəldən,
Sən zənn eləyirdin, diri ikən kəfənin var.

Min əsrdə kabusa büründün gecə-gündüz,
Hiss etmədi ömründə cəmiyyət ki sərin var.

Haqqın da, hüququn da, sənin olmadı, ey şux,
Sən duymadın axır ki, nə Şəmsin, Qəmərin var.

Zillət də, zəlalət də, sənin həmdəmin oldu,
Heç görmədin arxanda sənin bir nəfərin var.

Bükdün o qara günlərini çadraya atdın,
Dərk eylədi ellər ki sənin də hünərin var.

Min badəni nuş eylədin ilham bulağından,
Dünyadakı hər sirrdən artıq xəbərin var.

Fəth eyləmisən göylərini doğma bu yurdun,
Pərvaz eləyirsən, deməli bali-pərin var.

Sən yaxşı bilirsən, Zəkəriyya səni sevmiş,
Şükr eylə ki, dünyada nə dərdin, kədərin var.

*1968*

***

Ənbər yayan bu aləmə, ey dil, zülf-yardır,
Səhv etmərəm desəm ona mən gülüzardır.

Dünya dolarsa ətri ilə gül çiçəklərin,
Bu şübhəsiz, zəmanəmizin iftixarıdır.

Sultan olarsa aləmə eşq ilə səadət,
İnsanların həyata bu bir etibarıdır.

Vahiddi fəth eləyən fəzayi eşqimizi,
Bu doğrudur, Füzulimizin yadigarıdır.

Qəfəsdə bülbül olub təranələr oxuyan,
O da Azərbaycanımızın Şəhriyarıdır.

Dünya dönəcək cənnətə, bu bir həqiqətdir,
Bizim bu şən diyarımız onun novbaharıdır.

Məzlumların həyatına azadəlik verən,
Zülm ilə bağlananların öz zülfüqarıdır.

Zalım nədir, azadəliyi umma sən ondan,
Sən bil, Zəkəriyya, sözümün ixtisarıdır.

*1968*

***

Sevirəm bir gözəli, hüsndə min aya çatar!
Bir günəş tək alışıb, şöləsi dünyaya çatar!

Şövqi vəsl ilə yanan aşiqə yüz cur yetər,
Tab edər curlərə, cur ilə sevdaya çatar!

Duymasa eşqin havasın, bəşər övladı inan,
Bütün ömründə cəhənnəm kimi qovğaya çatar!

Kim ki, idrak eləmir dünya həqiqətlərini,
Mənzili məscidə, yainki kəlisaya çatar!

Min mələk səcdə edir bizdəki hər bir gözələ,
Hüsndə hər biri Leylaya, Züleyxaya çatar!

Azəri yurduna rövnəq gətirən xublərin,
Biri də Azəri oğlu Zəkəriyyaya çatar!

*1968*

***

Sən gül, gözəlim, bağda çiçəklər də gülüşsün,
Əğyar evinə hər cürə qoy səksəkə düşsün.

Gözlər də, dodaqlar da gülüşsün səhər, axşam,
Xarın üzünə vahimədən min ləkə düşsün.

Zövq almasa xar, aşiqə yüz cür sitəm etməz,
Aşiq gərək hər xar ilə bir qovğayə düşsün.

Eşq atəşinə yansa bizim dəhrdə hər kəs,
İnsafdımı Məcnun kimi, səhralarə düşsün?

Divanəyə min eşq-məhəbbət əsər etməz,
Fərhad kimi, eşq əhli gərək zəhmətə düşsün.

Eşqin sənin hər yerdə əməkdir, Zəkəriyya,
Zənn eyləmirəm, başqa xəyal ortaya düşsün.

*1968*

***

Əgər məstanəsən hər gün, bunu meyxanədən görmə!
Gəmin dəryada azmışdırsa, gəl tərsanədən görmə!

Yükün ləli cəvahirdirsə, ey qafil, qürur etmə,
Xəyanət bəhrəsin təzvir edib, əfsanədən görmə!

Təyəqqüz eylə vaxt ikən, kamali-rahə üz döndər,
Əgər dövr etsə çərxin tərsinə, mərdanədən görmə!

Kamali-ehtiramə bir nəzər sal, cərgədən çıxma,
Sənin yurdunda bayquş banlasa, viranədən görmə!

Sənə bir şəm gərək olsun bu doğma xalqın amalı,
Yanırsa atəşi eşqə, onu pərvanədən görmə!

Təfəkkürdür, şüurdur hər kəsə yol göstərən, rəhbər,
Edirsə min qəbahət, sən onu divanədən görmə!

Kəməndi-ehtirasə dəhrdə sən bağlanıb qalma,
Bu cür bir fürsətin bəxşin, yəqin zəmanədən görmə!

Salıb vücdanı zindanə, səadət seyrinə çıxma,
Əgər məqsəd yoxundursa, onu rindanədən görmə!

Zəkəriyyə, bilir hər kəs, sən öz xalqınla xoşbəxtsən,
Səadətlər çatar ondan, onu dürdanədən görmə!

*1968*

***

Gül, lalələr olmazsa, gülüstan ola bilməz,
Hər yerlə əgər vəsl ola, hicran ola bilməz.

Bülbül gülə, gül bülbülə aşiqdir əzəldən,
Dost olmasa gül xar ilə, əfğan ola bilməz.

Ömr eyləyər eşq ilə çəmənzardə bülbül,
Eşq olmasa, bülbül də qəzəlxan ola bilməz.

İlhamını zəhmət çəmənindən alır hər kəs,
Zəhmət çiçəyin dərməyən, insan ola bilməz.

Ehsas ilə dərk etməsə, insanı hər insan,
Hər kimsədə hiss olmasa, vicdan ola bilməz.

Yoxdursa gözəllərdə vəfa dövri-əzəldən,
Qismət, demə Məcnuna biyaban ola bilməz.

Haqq aşiqinə, yaxşı bilərsən, Zəkəriyya!
Hər bir gözəlin busəsi ehsan ola bilməz.

*1968*

***

Ey Kəbutər, mehrini hər yerdə avaz eylədin,
Bir həyat eşqilə sən, göylərdə pərvaz eylədin.

Min kədərdən tutdun üstün bir təbəssüm zövqünü,
Sən bunu, ey Mahru, əslində mümtaz eylədin.

Sülh ilə ilhaq olub, ismin əzəl gündən sənin,
Hər zimistan gəldi, sən ondan da bir yaz eylədin.

Zülmdən tirə libasın geysə göylər dəmbədəm,
Sülh iksirilə sən, hər yerdə ayaz eylədin.

Aşiq oldun bax, bəşər dünyasına eşq ilə sən,
Bir Simurğ oldun, əmək dünyasına naz eylədin.

Dəstpərvərdən olubdur, Zəkəriyya da sənin,
Sən bu karınla onu, hər gün sərəfraz eylədin.

*1968*

***

Ey büti-ziba, neçün sən bunca incitdin məni,
Tulladın atəşlərə, bir dəfəlik getdin məni.

Aşiqə verdin cəhənnəm, xarə verdin cənnəti,
Ey mələk, axır ki, sən hər cövrə öyrətdin məni.

Söndürüb eşqin ziyasın, yandırıb hicran odun,
Mən yanarkən bir tərəfdən, sən də seyr etdin məni.

Sən inan, min dəfə Məcnundan füzun bir aşiqəm,
Düşmərəm səhralərə, dünyada xar etdin məni.

Eşq şəmşirin çəkib, min-min kədər qətl eylədim,
Bir dənizdim sahilimdən sən ki, tərpətdin məni.

Mən ki Fərhadam külüngüm lərzə salmış dağlara,
Sən bəs, ey namərd, neçün Məcnunə bənzətdin məni?

Mən də insanam, varımdır mənliyim bu dəhrdə,
Zəkəriyyanın neçün, ardınca söylətdin məni?

*1968*

***

Hüsnün sənin, ey şux, gülə də min əsər eylər,
Əfqana gələr, şam-səhər dərdi sər eylər.

Göstər mənə bir gül ki, saçın tək saçı olsun,
Gördükdə yanağında özün, min kədər eylər.

Kim gözlərini güldə görübdür sənin, afət?
Bir qıyğacı baxmaqla yüz işvə, xəbər eylər.

Var min çiçəyin hüsnü, təravətləri səndə,
Bunlar, gözəlim, aşiqini bəxtəvər eylər.

Yeganə yaranmışdı sənin bağı behiştin,
Bağbanlığı zənn etmə ki, hər bəhrəvər eylər.

Sən fəxr eləyirsən bu gözəllik ki sənin var,
Bu fəxri nə bir gül, nə də bir neylufər eylər.

Min bir çiçəyin hüsnünü idrak edir, ey məh,
Kim bağı gülüstanına tez-tez səfər eylər.

Mən də sənə çox gül demişəm, incimə məndən,
Hərdən Zəkəriyya da sözün müxtəsər eylər.

*1968*

***

Ey dil, işimiz gör nə yaman müşkülə düşdü,
Əğyar ilə gəldik sözə, dildən-dilə düşdük.

Hicran elinin sakiniyik hər ikimiz bil,
Vəsl olmadı qismət, canımız nisgilə düşdü.

Oldu dedilər, xar ilə həmdəm gülü ziba,
Ah eyləməyin növbəsi bax, bülbülə düşdü.

Yaz gəldi, bahar oldu, təbiət dilə gəldi,
Hüsnilə bu gün fəxr eləmək sünbülə düşdü.

Şadlıq gəlib "işğal" elədi doğma bu yurdu,
Qaçmaq dəmi bu dəhrdə bir nisgilə düşdü.

Şad ol, Zəkəriyya, belə bir xalq ilə sən də,
Şadlıq dediyin öncə bizim bu elə düşdü.

*1968*

***

Mən dedim canımı, ey gül, sənə qurban edərəm,
Söylə, bundan belə bəs mən kimə iman edərəm?

Pozdun öz əhdini, rüsvayi cahan oldun sən,
Deməmişdin səni ömründə pərişan edərəm.

Əgər əğyar ilə öz əhdini pozsan, afət,
Mən bu sirri inanırsan, hələ pünhan edərəm.

Atma gəl sən məni bir küncünə qəmxanələrin,
Dözə bilməm belə bir cövrünə, üsyan edərəm.

Eşq sərgəştəsiyəm, ruhi-təbibim sənsən,
Mən sənin eşqini öz ruhimə dərman edərəm.

Bir məhəbbətlə əgər eşqə imarət qursaq,
Mən onun hər tərəfin baği gülüstan edərəm.

Zəkəriyya kimi insanlığı dost tutsan əgər,
Mən ölüncə inanırsan, sənə iman edərəm.

*1968*

***

Dünyada kamal ilə çatar şöhrətə insan!
Layiqli kamal olmasa hər töhmətə insan!

Xəlq eyləyən insanları zəhmətdi cahanda,
Heykəl qoya hər yerdə gərək, zəhmətə insan!

İnsan əlinin bəhrəsidir cümlə məlahət,
Baisdi bu dünyada bütün ziynətə insan!

Bəxş eyləmiş insanlığa hər əhli səadət,
Layiqdi səadət ilə hürriyyətə insan!

İnsan gərək ömr eyləsin azadə Vətəndə,
Bəs söylə, nə layiqdi düşə zülmətə insan!

Pərvaz eləyir göylərə səyyarələr ilə,
Talib olur hər gün yeni bir hikmətə insan!

İnsanlığa xidmət elə sən də, Zəkəriyya!
Ömründə gərək düşməyə pis niyyətə insan!

*1968*

***

Salan məni bu qədər cəfayə, yar özüdür!
Sitəmlərilə edən hər gün, iftixar özüdür!

Vüsali şövqi ilə hicr evində mən yandım,
Mənə o zülm eləyən, əsl zülmkar özüdür!

Dəhani sirrimi mən açmamış o Mahruya,
Mənə əzəlcə edən eşqini, nisar özüdür!

Diyari hicrdə, ey dil, o məndən az yanmır,
Edən şən ömrümüzü böylə ixtisar, özüdür!

Mələk desəm ona mən, yanılmaram haşa,
Gözəllik aləminə yoxsa şəhriyar, özüdür!

Çiçəklər içrə onun bərabəri yoxdur,
Bu səhv olarmı desəm, əsl novbahar, özüdür!

Bizim bu yurdumuzun hər əhli xoşbəxtdir,
Deyin, öyünməsin o, təkcə bəxtiyar, özüdür!

O yar ilə, Zəkəriyya, inan ki, fəxr edirəm,
Həyatda dərdimizə əsl qəmküsar, özüdür!

*1969*

***

Ey dil, o dilrüba Vətənin iftixarıdır!
Bilməm, o hansı bəxtəvərin nazlı yarıdır?

Çoxdan vurulmuşam o qara gözlü dilbərə,
Aləm bilir ki, gözləri lap zil xumardır!

Almış bütün təravətini gül-çiçəklərin,
Səhv etmərəm desəm, zəmanəmizin novbaharıdır!

Pərvanə olmaq istərəm, ol şəmə hər gecə,
Mən qorxuram, deyirlər o çox zülmkardır!

Bülbül kimi təranəsi doldurmuş aləmi,
Yəqin ki, baği gülüstanımızın nəğməkarıdır!

Naz ilə şanə çəkməyi var qarə tellərə,
Aşiq üçün, Zəkəriyya, bu gözəl intizardır!

*1969*

***

Sən gedirsən, gözəlim, get elə bir qan olmaz!
Hər vəfasız gözəlin busəsi ehsan olmaz!

Bivəfa xublərin hicri şərəf, şandır bil,
Yanar atəşlərə aşiq, sənə qurban olmaz!

Gər xəyanət edə şam dəhrdə pərvanələrə,
Yanıb eşq atəşinə heç biri büryan olmaz!

Etibar ilə vəfa aşiqə həmdəm yaranıb,
Bivəfa olsa mələk, dəhrdə insan olmaz!

Görsə məşuqəsini xar ilə bir yerdə əgər,
Aşiq ömründə ürəkdən belə xəndan olmaz!

Zəkəriyya, necə gördün səni atdı o gözəl,
Bilirəm ki, bu yaman dərdinə dərman olmaz!

*1969*



***

Ey fələk, zənn eləmə, mən yox ikən var oldum!
Nagəhan aləmi-nasutidə, izhar oldum!

Mən bir övladi-bəşərtək doğulub dünyada,
Bütün ömrümdə mən insanlığa, qəmxar oldum!

Bivəfalar, biədalardan uzaq gəzdim özüm,
Sevgili yarıma hər yerdə, vəfadar oldum!

Bir mələkmənzərə verdim mən ürək sirlərin,
Dedim axır, belə bir eşqə, səbəbkar oldum!

Alıb ağuşuna gördüm onu qəm dalğaları,
Eşq yelkənim ilə mən ki xilaskar oldum!

Əhd-peyman elədik, dəhrdə aşiqlər tək,
Mən inandım ki, bu mahə, əbədi yar oldum!

Özgə sevdaya düşüb, gördüm o gül rənanı,
Nə yaman dərddi ki, mən yar ikən, əğyar oldum!

Əriyib şam kimi yandım oduma şam-səhər,
Vəsldən məhrum olub, hicrə səzavar oldum!

Zəkəriyya, gəlib ol məh mənə çox yalvardı,
Satmadım mənliyimi, mən də sitəmkar oldum!

*1969*

***

Vəfasız çıxdı yarın, ey könül, gəl xarə, yalvarma!
Qəm ilə həmdəm ol daim, sən ol dildarə, yalvarma!

Sən eşqindən bəlalar çək, bəlalardən sən ilham al,
Məbadə, hissə ram olma, gedib xunxarə, yalvarma!

Könüldə saxta eşq ilə, vəfasız min gözəl vardır,
Üzü gül, nitqi bülbül, ruhi çirkin yarə, yalvarma!

Vəfasız hər gözəl bənzər çəməndə əsl zənburə,
Düşüb odlara yansan da, gedib idbarə, yalvarma!

Bu bəsdir ki sən eşqində sədaqət göstərib durdun,
Nə lazım, dönmə Məcnunə, tapıb bir çarə, yalvarma!

Əgər mehr eyləmişdirsə, özü xarə o Gülzarın,
Atıb namusu, arı sən gedib Gülzarə, yalvarma!

Şərəfsizlər səni atsa, sənə min-min şərəfdir bu,
Zəkəriyya, sən ucal, fəxr et, gedib biarə, yalvarma!

*1969*

***

Söylə, ey dil, bax bu sirri can bilir, mən bilmirəm!
Atəşi eşqə yanan canan bilir, mən bilmirəm!

Xalqlara dillərdə dastandır bizim amalımız,
Çox təəssüf, güllü şəhristan bilir, mən bilmirəm!

Gül sücud eylər dəmadəm bülbülü-şeydasına,
Bağ bilir, bağban bilir, bostan bilir, mən bilmirəm!

Vəsl cövlan eyləyir dövrəmdə ənbər - bu kimi,
Bəh, əcəb qəflətdəyəm, hicran bilir, mən bilmirəm!

Can xilas olmuş mərəzdən, min şəfa tapmış tənim,
Can bilir, canan bilir, dərman bilir, mən bilmirəm!

Kamran oldum səfayi vəsldən şam-səhər,
Zəkəriyya, sən demə, dövran bilir, mən bilmirəm!

*1969*

***

Mənə bu naz ilə, ey gül, dünən də baxmış idin,
Atıb fəraq oduna, yandırıb da yaxmış idin.

Rəqiblər dedi guya ki, sən "vəfasızsan,
O güllü bağçana xarı özün buraxmış idin".

Rəqibin hər sözünə inanmaram əsla,
Ki, sinəsinə xədəngi əlinlə taxmış idin.

Baxanda gözlərinə, lalətək qızardın sən,
Uçub müvazinətindən, neçin karıxmış idin?

Görən kimi Zəkəriyyanı cuşə gəldi qanın,
Onun üçün deyəsən, yaman darıxmş idin.

*1969*

***

Mənə çox cövr elədin, qoy sənə qurban olsun,
Aşiq eşqində gərək didəsi giryan olsun.

Sənin eşqində, gülüm, bunca bəlalər çəkirəm,
Nə rəvadır ki bəlalər mənə, mehman olsun?

Eşq millət tanımır, mehri vəfadan başqa,
Söylə, tərsa nə gərəkdir ki, müsəlman olsun?

Şeyx-Sənan necə gör atdı təriqət yolunu,
Belə zənn eylədi ki, sevdiyi insan olsun.

Vursa bir yerdə əgər şam-səhər bir cüt ürək,
Dönüb aləm nəyə lazımdı, gülüstan olsun?

Bir mərəzdir bunu bil, aşiqə eşqin cövrü,
Saf məhəbbət gərək axır ona, dərman olsun.

Eşqə xidmət ki, şəfa bəxş eləyir aşiqinə,
Bir "gəda" olmalıdır, gərçə, Süleyman olsun.

Eşq mülkündə də sultan, Zəkəriyya, kimdir?
Onun eşqi bütün ömründə qoy ehsan olsun.

*1969*

***

Ey dil, səni canan nə qədər danlasa bəsdir?
Hər töhməti yarın bilirəm, özgə həvəsdir.

Canan ilə pərvaz edirəm göylərə hər gün,
İblis kimi ortaya düşən xar nə kəsdir?

Ondan mənə, məndən ona min fitnə də açsa,
Yüz cəhd edə xar, çəkdiyi zəhmətlər əbəsdir!

Min hiyləsi baş tutmadı xarın yenə, ey dil!
Gördüm ki qaçır xarı, o gün təngənəfəsdir.

Kim xarı görübdür ki, o insansevən olsun,
Xarın yeri, ey dil, inan, hər yerdə qəfəsdir.

Sən eşqinə sadiq-qədəm olsan, Zəkəriyya,
Əğyarə inanma, nə desə, bir quru səsdir.

*1969*

***

Aşiqə ilk dəfə ilqarını canan eləmiş,
Eşq mülkün ona vermiş, hələ sultan eləmiş.

Hicri əğyarə verib atmışıq onu zindanə,
Aşiqi hər gecə öz vəslinə mehman eləmiş.

Alıb ağuşuna öz aşiqini şam-səhər,
Belə bir karı ilə xarı pərişan eləmiş.

Ləblərindən süzülən şəhdi əta etmiş ona,
Busəsin aşiqinə şur ilə ehsan eləmiş.

Dözüb hər cövrünə eşqin nə bəlalər çəkmiş,
Bütün ömrün belə saf eşqinə qurban eləmiş.

Yaxşı bir bax, Zəkəriyya, bu gülün mehrinə sən,
Canını eşqinə hər yerdə nigahban eləmiş.

*1969*

***

Əgər eşq əhli hicranə düşərsə, min qubar eylər!
Şəfayi-vəsl ilə güllər açar, daim tumar eylər!

Ötər bülbül kimi, eşqin havasından alar ilham,
Bəlayi-hicri qəlbindən məharətlə, kənar eylər!

Qədəm bassa çəmənzarə, əgər min naz ilə ol şux,
Öz hüsnilə çəmənzarı bəzər, bir gülüzar eylər!

Qərənfillər durub səf-səf, sücud eylər itaətlə,
Bükər boynun bənövşə, surəti-halından ar eylər!

Vətən bağında bir güldür, alır ətrin bu torpaqdan,
Onun hüsnilə hər bülbül, çəməndə iftixar eylər!

Çəkəndə zülfünə şanə, əcəb çin-çin durur tellər,
Müdəvvər dalğalar ilə, güli-ənbər buxar eylər!

Alışmış gün kimi ruxsarı, bir eşqin səfasından,
Süzülmüş şöləsilə aşiqin, tez-tez xumar eylər!

Görəndə hər zaman, hər an, o mahin surəti halın,
Ki, guya bağıban öz meyvə bağında, nübar eylər!

Fəzayi-ruyinə girmiş, o sanki bir tülək tərlan,
Cəmali-hüsnünə düşmən, nə var bir-bir fərar eylər!

Baxıb fəxr eyləyirsən bu cəmalə, Zəkəriyya, sən
Ürək şövq ilə bu mahə, dəmadəm etibar eylər!

*1969*

***

Ey gül, səni kim vəsl elədi xarə əzəldən?
Mehr eyləmədin sən də bu idbarə əzəldən.

Min nalə edib, göz yaşı tökdün gecə-gündüz,
Olmazdımı bu halətə bir çarə əzəldən?

Bax gör necə aşiq sənə vabəstədir, ey şux,
Yaxdın belə biçarələri narə əzəldən.

Heç yoxlamadın kimdir olan ruhinə həmdəm?
Oldun bu səbəbdən də günü qarə əzəldən.

Xurşidi sən olseydin əgər aşiqi zarin,
Ömrün səfər eylərdi, o gülzarə əzəldən.

Ömr ilə zarafat eyləmə gəl, Zəkəriyya,
Səy ilə sal öz mehrini, dildarə əzəldən.

*1969*

***

Ey gül, səni kim vəsl elədi xarə əzəldən?
Mehr eylədin axır ki, o idbarə əzəldən.

Min nalə edib, göz yaşı tökdüm gecə-gündüz,
Rəhm eyləmədin mən kimi bimarə əzəldən.

Birdən birə döndərdin üz, əhd ilə vəfadən,
Hardan belə rast gəldin o xunxarə əzəldən?

Min nəqd nəsihət sənə kar etmədi, ey məh,
Eşq aləmini gəzmisən avarə əzəldən.

Ar eyləmədin, gül kimi əldən ələ keçdin,
Hüsnün ilə döndün hələ zəvvarə əzəldən.

Sən gözləmədin mənliyini dəhrdə barı,
Eşq eylədin hər yerdə bir idbarə əzəldən,

Ardınca inan, düşməyəcəkdir Zəkəriyyə,
Eşqin gər ola ömrünə bir çarə əzəldən.

*1969*

***

Məni, ey şux, desəm səhv etmərəm ki, xalın aldatdı!
O sərvi-qamətin, gül surətin, şux halın aldatdı!

Vüsali-eşqə yad oldum, əzəldən duymadım səd heyf,
Məni əslində, ey zalım, o məh cəmalın aldatdı!

Mənimlə söhbət açdın sən məhəbbətdən, sədaqətdən,
Sarıldın boynuma hər gün, şirin vüsalın aldatdı!

Gəlib məzmununa üstün, sənin ol surəti halın,
Tənində al-qumaş paltar, başında şalın aldatdı!

Qanadlar verdim ehsasə, şüuru məhbəsə saldım,
Sözündə qurduğun hərdən, çürük xəyalın aldatdı!

Zəkəriyyanı, ürəkdən sevməyirsən söylənən dəmdə,
Üzündə əks edən tez-tez, saxta məlalın aldatdı!

*1969*

***

Gör nə xoşbəxtəm ki mən, qəm mülkünə xan olmuşam!
Rəhm edən yoxdur mənə, odlarda büryan olmuşam!

Bir dəni qəvvas kimi batdım qəmin dəryasına,
Bivəfa məşuqəmin dərdinə dərman olmuşam!

Vəsldən məhrum olub, odlarda yandım dəmbədəm,
İndi mən hər gün qəmə sadiq, nigəhban olmuşam!

Kim bəlayi-eşqə düşsə, rəhm qıllam mən ona,
Neyləyim ki, mən əzəldən böylə insan olmuşam!?

Bülbüli-zarəm, gülüm xar ilə ülfət bağlamış,
Mən kənardan seyr edib, didəsi giryan olmuşam!

Eybi yoxdur, Zəkəriyyə, səbrə sirdaş olginən,
Söyləyərsən bir zaman, mən vəsl canan olmuşam!

*1969*

***

Əhsən o gül-cəmalə, gülüstanə dönmüsən!
Hüsnün düşübdü dillərə, dəstanə dönmüsən!

Min-min gülümüz var, bu gün insan çəmənində,
Sən də birisən, bir gülü-xəndanə dönmüsən!

Şəhla gözün, lalə ruxun, şəhd ləblərin,
Bəh-bəh, mələk baxışlı bir insanə dönmüsən!

Sən naz ilə çıxanda çəmən seyrinə hərdən,
Aləm görur ki, sən də xuramanə dönmüsən!

Cəlladın qılıncına bənzər əyri qaşların,
Fəth etmisən gözəllik aləmini, xanə dönmüsən!

Səcdə edir bütün aləm xaki payinə,
Səhv etmərəm, desəm ki, o Rizvanə dönmüsən!

Min heyflər olsun ki, vəfa olmadı səndə,
Axır Zəkəriyya üçün hicranə dönmüsən!

*1969*

***

Ey mələk, fəxr eləmə, səndə əda görməmişəm!
Bivəfasan, gözəlim, səndə vəfa görməmişəm!

Eşq sevdasını sən anlamadın dünyadə,
Mənə çox cövr elədin, bunca cəfa görməmişəm!

Sən deyildinmi verən dil hələ biganələrə?
Bu qədər vəsl ilə eşqində səfa görməmişəm!

Məni bimar eləyən eşqdir aləmdə, inan,
Mən vəfasızların eşqində şəfa görməmişəm!

Can əsirgərmi bir aşiq belə cananından,
Aşiqi-zaridən heç yerdə xəta görməmişəm!

Zəkəriyya, sən öz eşqində vəfadar oldun,
Vəsldən aşiqə mən, özgə dəva görməmişəm!

*1969*

***

Ey dil, nə gözəl gündü, bu canan yenə gəldi!
Eşqilə verən ruhimə yüz can, yenə gəldi!

Əğyar ilə dil tapmadı sevdaya girişsin,
Oldu necə gör halı pərişan, yenə gəldi!

Ar eylədi öz tutduğu namərd əməlindən,
Mərdliklə dönüb sərvi xuraman, yenə gəldi!

Öz atəşinə şam kimi yanmış görürəm mən,
Olmuşdu o qəm mülkünə sultan, yenə gəldi!

Aldatmış idi gözləri ol mahi-nigarı,
İdrak ilə ol, Xosrovu-xuban, yenə gəldi!

Əql ilə açıb gözlərini aləmə baxdı,
Əğyarı qoyub gözləri giryan, yenə gəldi!

Bülbül kimi nalə edirdim gecə-gündüz,
Min naz ilə o afəti-dövran, yenə gəldi!

Şad ol Zəkəriyyə, yenə sən yarə yetişdin,
Öz eşqinə o oldu nigəhban, yenə gəldi!

*1969*

***

Eşq zövqün duymayan hər kəs, gərək sevdadan əl çəksin,
Qəm ilə aşinadırsa, gülü şeydadən əl çəksin.

Əgər eşq əhli canandan vüsal yox, hicran almışsa,
Qəmu-zindanə ram olsun, büti-zibadən əl çəksin.

Sevilmək, sevməyi kim anlamırsa kainat içrə,
Sənəmlərdən götürsün əl, məhiliqadən əl çəksin.

Zəkəriyyə, can verən hər aşiqə bil, eşqdir,
Bunu dərk eləyən hər kəs, gərək röyadən əl çəksin.

*1969*

***

Aşiq eşqilə gərək daima xəndan olsun!
Nə üçün dərdə düşüb, halı pərişan olsun?

Eşq bir qüvvədir, aləm yaranır hökmündən,
Hər sınıq qəlbə gərək, eşq özü dərman olsun!

Vətən eşqilə vuran qəlblərə əhsən deyirəm,
Aşiq hər yerdə gərək yurduna, qurban olsun!

Sorsalar səndən əgər, söylə nə verdin Vətənə?!
Öylə sözlər, Zəkəriyya, demə böhtan olsun!

*1969*

***

Ey dost, bu cahan mülkünü avarə dolanma!
Bihudə keçən günlərini sərfəli sanma!

Divanə də olsan, Vətənin var sənin axır,
Bir sənətə qurşan, ona xidmətdə yubanma!

Səndən gərək ibrət ala öz nəsli nəcibin,
Tut öylə bir iş ki, sən o nəslindən utanma!

Beş gündü bu dünya, desələr işrətə meyl et,
Sən gəl belə əyyaşlara ömründə inanma!

Keçdikcə nəsillər səni yad eyləyər hər an,
Cəhd eylə ki, düşmən kimi xəlvətdə dayanma!

Ölməz Vətənə, xalqına xidmət edən hər kəs,
Mərd ol, Zəkəriyya, düşüb hər rəngə boyanma!

*1970*

***

Bülbül, de görək, sən o rəzil xarə, neylədin?
Eşqin nə olduğun bilməyən idbarə, neylədin?

Dərk eyləməz məhəbbəti avarə ömr edən,
Tərk eyləyən məhəbbət aləmini yarə, neylədin?

Şami-səhər fəqanə gəlirsən ehtiras ilə,
Tapdınmı, söylə, dərdinə bir çarə, neylədin?

Mən dərk edirəm dərdini, ey dərdi bidəva,
Çıxdın o çəmən seyrinə biçarə, neylədin?

Məcnun kimi müsibətini el bilir sənin,
Gəldin bəlayi-eşqdə zinharə, neylədin?

Səbr ilə hər dərdə dözər əhli-eşq olan,
Oldun Zəkəriyyə kimi xuddarə, neylədin?

*1970*

***

Görüm əğyarımızı zəmanə xar eləsin!
Bu bəd əməlləri ilə o bəlkə ar eləsin!

Gül ilə qol-qola versin çiçəklər hər yanda,
Çəməndə şurə gəlib, bülbül iftixar eləsin!

Ədalət ilə hərarət paylasın cahanə günəş,
Bu doğma yurdumun hər fəslin ilk bahar eləsin!

Vətən gözəlləri seyranə çıxsın əldə çiçək,
Hərə öz aşiqinə eşqini nisar eləsin!

Səadət eşqilə qursun, yaratsın ellərimiz,
Gərək hər əhli-Vətən, nəfsin ixtisar eləsin!

Bir olsun işlərimizlə təfəkkür aləmimiz,
Bizim sabahkı günə hər kəs etibar eləsin!

Hər aşiqin, Zəkəriyya, dərdinə əlac olsun,
Sənin də dərdinə çarə, sevdiyin nigar eləsin!

*1970*

***

Eşq zövqün duymayan cananı, canan bilmərəm!
Eşq odunda yanmayan hər canı, mən can bilmərəm!

Vəslə yetməzsə bir aşiq, hicr evin məskən tutar,
Vəsl ilə vəsl olmayan hicranı, hicran bilmərəm!

Haqqı var azadə ömr etsin bütün növi bəşər,
Zülm ilə abad olan dövranı, dövran bilmərəm!

Hiss ilə dünyanı hər aqil gərək dərk eyləsin,
Hissdən məhrum olan vicdanı, vicdan bilmərəm!

Ədl ilə insan gərək insanla rəftar eyləsin,
Ədldən naqis olan insanı, insan bilmərəm!

Daima fərman verilsin qoy səadət eşqinə,
Qeyri məqsəddən doğan fərmanı, fərman bilmərəm!

Eşq ilə bimar olan hər kəsə dərman vəsldir,
Zəkəriyya, özgə bir dərmanı, dərman bilmərəm!

*1970*

***

Niyə kəm baxdın, əzizim, gül açan mehrimizə,
Sənə yüz dəfə dedim, aləmi güldürmə bizə.

Sevmişik bir-birini, gəl çəkək öz nazımızı,
Nəyə lazımdı ki, yadlar girələr qəlbimizə.

Şövqi-vəslinlə mənə əmr elə, Fərhad olaram,
Ehtiyac varmı düşək şam-səhər dağə, düzə.

Can deyək, can eşidək, biz belə dövranda, gülüm,
Qoy hər ədna həsəd etsin, bu təmiz sevgimizə.

Gəl quraq, gəl yaradaq, xalqa səadət gətirək,
Desin əhsən, cəmi aləm belə tədbirimizə.

Olmamış dost Zəkəriyya o gədalarla, inan,
Ki, xəyanətləri tez-tez toxunur qəlbimizə.

*1970*

***

Məcnuna kim söyləsə divanə bir əfsanədir!
Varmı bir aşiq deyin, Məcnun kimi mərdanədir!?

Həmdəmi ahular olmuşdu diyari hicrdə,
Hansı namərd söyləmiş, Məcnuna kim rindanədir!

Birbəbir gəzmiş, dolanmış binəva səhraları,
Görmüş aləm hicr ilə hər aşiqə qəmxanədir!

Vəsl şövqilə gəzib, tənha dolanmış dağları,
Sanki şəmin başına dövr eyləyən pərvanədir!

Pozmamış əhdin tənindən can gedincə rəhlətə,
Hər görən aqil deyərmiş sanki bir divanədir!

Binəva bülbül kimi əfqan edərmiş dəmbədəm,
Duymamış ömründə heç mazi nədir, fərda nədir?

Verdi can, çatdı vüsalə, qəbrdə Leyla ilə,
Ruhi Məcnunun desək, səhv etmərik xəndanədir!

Zəkəriyya, sən də Məcnun tək sözündə sadiq ol,
Hər sədaqətdən doğan kar inan, dürdanədir!

*1970*

***

Verən hər aşiqə, ey dil, səfa məhəbbətdir!
Məhəbbət ilə ömr eləmək əcəb səadətdir!

Nə lazım aşiqə cənnət ki bəhr mehrdədir,
Bütün bu aləm ona diyari cənnətdir!

Bəlayi-eşq ilə Məcnun düşübsə səhrayə,
Siz öylə zənn edin, bu bir zərafətdir!

Vüsal dərdinə kim dəhrdə düçar olmuş,
Yəqin bilin ki, onunçün bu bir şərafətdir!

Diyari-hicrdə ömr eyləmək yaman dərddir,
Salan hər aşiqi dərdə yəqin bir afətdir!

Hər aşiqəm deyənə etibar edərmi gözəl?
Bu eşqbazlar üçün özgə bir siyasətdir!

Xilafi eşq ilə ömr eyləyən gədalərdir,
Məhəbbət aləminə bir böyük xəyanətdir!

Qəm eyləmə, Zəkəriyya, bizim bu aləmdə,
Verən hər əhlə səadət, bir əsl niyyətdir!

*1970*

***

Qibləm sən olmusan mənim, ey mahi-tələtim,
Artır cəmali-hüsnünə hər gündə rəğbətim.

Aləm behiştə dönsə də, dözməm fəraqinə,
Vəslinlə, ey mahiparə, sönər eşqi həsrətim.

Nitqin sənin kim olduğunu açmamış mənə,
Vardır hələ səninlə mənim xeyli söhbətim.

Olsan vəfalı yarım əgər, fəxr edərəm mən,
Gəzməz onda cəmiyyət içrə mənim qeybətim.

Hicran bəlasını yaradan xar olur müdam,
Artır görməsəm də, o idbarə nifrətim.

Hər gündə min zəfər çalıram xalqın eşqinə,
İlhamı səndən almasam, artarmı qüdrətim?!

Bihudə gün keçirməmişəm gülsün el mənə,
Mən də, Zəkəriyya, deyim alçaldı hörmətim.

*1970*

***

Qəm eyləmə, bülbül, bu gülüstan ki sənindir,
Güllər də, çiçəklər də sənin öz vətənindir.

Sən bilmədin ömründə zimistan nə deməkdir,
Hər ilk baharın gül-çiçəyi, tacı sənindir.

Pərvaz eləyirsən alıb ilhamını güldən,
Güllər də, çiçəklər də sənin bali-pərindir.

Məcnun kimi səhraları gəzsən görəcəksən,
Həmdəm olan ancaq sənə əczayi-tənindir.

Xar ilə əcəb cəngə girirsən, ürəyin var,
Qüvvət verən o qəlbə gülündur, çiçəyindir.

Fəxr et, Zəkəriyya, bu Vətən güllərilə sən,
Hər cür belə güllər bitirən öz çəmənindir.

*1970*

***

Açılıb qönçə kimi aləmə şayan oldun!
Mənə sən doğma Vətən, Azərbaycan oldun!

Görürəm körpələri, dərk edirəm mən kim idim,
Körpəlikdən mənə sən, əsl nigahban oldun!

Cismimi xəlq elədin, nanü nəmək verdin ona,
Sən bu xəlq eylədiyin cismimə, həm can oldun!

Mənə öz nitqini təlim elədin şam, səhər,
Elm verdin mənə sən, sən mənə ürfan oldun!

Nəfəsim, təndə qanım, pirəhənim də sənsən,
Bütün övladlarına sən ki zərəfşan oldun!

Xəzərinlə veribən qol-qola min-min illər,
Odur öz xalqına hər gündə, dürəfşan oldun!

Dəyişib surətini, Şərqə Günəş tək doğdun,
Gündoğan ölkələrə sən ki nurəfşan oldun!

Naxələf çıxsa bir övladın, ona ar olsun,
Tifl ikən bir ana tək sən ona səhman oldun!

Zəkəriyya sənə xidmət edəcək ömru boyu,
Çünki hər dərdinə sən dəhrdə dərman oldun!

*1970*

***

Sənə gözəllərin, ey şux, mahiparəsi dedilər,
Günəş fəzasının afət, sitarəsi dedilər.

Bəlayi-eşqə düşüb, dolandım aləmi mən,
Sənə bu dərdimin təkcə çarəsi dedilər.

Baxanda gözlərinə mayıl oldum ol şuxə,
Ona günəş selinin şərarəsi dedilər.

Nə həddi var buludun tay ola o müşk telə,
Gözəllərin sənə ən zülfü qarəsi dedilər.

Baxanda surətinə günəş doğur guya,
O gül yanaqlarına, xüld laləsi dedilər.

O mahə bax, Zəkəriyya, behişt hurisidir,
Sədəf dəhaninə eşqin piyaləsi dedilər.

*1970*

***

Ey mələk, min nalə etdim, yetmədin imdadıma,
Səbr ilə guş eylədin, sən də mənim fəryadıma.

Eşq odunda mən yanarkən bir nəhəng pərvanə tək,
Görmədim bir kimsə, kim mane ola ifsadıma.

Hicr mülkün fəth edib qəm leşkərilə bir zaman,
Ehtiyat etdim ki, nöqsan söyləyərlər adıma.

Etiqadım qalmamış, səndə ədalət görmədim,
Kimə sən rəhm etmisən, ömrümdə düşmür yadıma.

Gör nə zalımsan ki sən, cəhd eylədin hər bir zaman,
Bəxtiyarlıq bəxş edilsin tək mənim həssadıma.

Zəkəriyya, tab elə min bir bəla çəksən də sən,
Bil ki, hər aqil deyər, qoy haqq yetişsin dadıma.

*1970*

***

Bu hüsnün ilə, gülüm, min könül viran olacaq!
Min aşiq eşqə düşüb, gündə bağrı qan olacaq!

Salıb hər aşiqi dərdə bağrın kəbab edəsən,
O sərv qəddi dönüb, bəlkə də kəman olacaq!

Bəlayi-eşqinə hər kəs düşsə yüz cəfa çəkəcək,
Hər aşiqə belə bir cövr imtəhan olacaq!

Zəmanəmizdə hələ biəda gədalər var,
Səninlə dərdə, qəmə, sanma mehriban olacaq!

Kəməndi-eşqin ilə bağlanan hər aşiq inan,
Sənin əməllərinlə gündə bədgüman olacaq!

Əgər desən sevirsən bizim Zəkəriyyanı,
Onun məkanı inan, ancaq asiman olacaq!

*1970*



***

Mən bilirdim dönəcək il, yeni dövran olacaq!
Köhnə dünya dağılıb, xak ilə yeksan olacaq!

Açacaq min cürə gül, gündə çəmənzarında,
Bu elin hər bucağı bağı gülüstan olacaq!

Verəcək könlünü öz bülbülünə şövq ilə gül,
Bülbülə öz gülünün busəsi ehsan olacaq!

Bir hüquq ilə öz ömrün sürəcək növi-bəşər,
Nanəcib xarlərin qətlinə fərman olacaq!

Zülm zalımlar ilə dəfn olacaq dünyadə,
Sülh, səadət günəşi aləmə əfşan olacaq!

Bəşəriyyət quracaq şövq ilə öz dünyasın,
Əmək hər yerdə hər insana şərəf, şan olacaq!

Zəkəriyya, sən unutma bu gözəl sözlərimi,
Şərqə örnək yenə də, Azərbaycan olacaq!

*1970*

***

Bir güli rəna ki, hər gün min könül viran edir,
Söylə, ey dil, bəs kimin eşqilə o cövlan edir?

Aşiyanından uçarkən bir gözəl tərlan kimi,
Səidkən səyyadə dönmüş, gündə bax min qan edir.

Lalələr, güllər həya eylər o məhruxsardan,
Çünki öz hüsnün o, eşq aləminə əfşan edir.

Qisməti yüz dərd olur, kim surətin idrak edir,
Əhsənullah, bir təbibdir, busəsin dərman edir.

Mən dünən gördüm onu, qəm bəstərin məskən tutub,
Yoxsa bu Leyla bizim Məcnun üçün əfqan edir?

Sən də gördün, Zəkəriyya, nə çəkir ol afət,
Yüz əzab ilə o, öz dərdin əcəb pünhan edir.

*1970*

***

Get, get gözəlim, sən məni atəşlərə yaxdın,
Məcnun kimi axır məni səhrayə buraxdın.

Məcruh elədin qəlbimi can çıxdı tənimdən,
Bir köhnə müqəvva kimi bostanlara taxdın.

Bir vaxt var idi başına hər gün dolanırdım,
Pərvanə mən idim, sən isə nurlu çıraqdın.

Eşq aləmini seyr eləyirdim gecə-gündüz,
Min töhmət ilə bunları sən başıma qaxdın.

Mən neyləyim, ey gül, sevirəm bil ki, ürəkdən,
Atdın məni getdin elə bildin ki, qonaqdın.

Xoşbəxtliyini şur ilə hər yerdə deyərdin,
Saldın məni odlara, dönüb yadlara baxdın.

Bir bax, Zəkəriyyə, sənə çox zülm edən olmuş,
Əhsən sənə, zülmün gözünə səbr ilə baxdın.

*1970*

***

Mən aşiqəm, gözəlim, eşqin olduğun bilirəm,
Çiçəklərin nə zaman, harda solduğun bilirəm.

Qəm ilə həmdəm olub səadət axtardım,
Məhəbbətin arabir boğulduğun bilirəm.

Bəlalər aşiqi Məcnun batanda bəhri qəmə,
Onun qəm ilə əkiz doğulduğun bilirəm.

Gül üstə xarı görən bülbülün sədasına bax,
Onun da qəlbinə qəmlər soxulduğun bilirəm.

Fəraqinə dözə bilmir bu Zəkəriyya da,
Onun da qəmlər ilə, qəlbi dolduğun bilirəm.

*1970*

***

Ey dil, bu Vətən torpağı cənnətdi bizimçün,
Övladı Vətən mülkünə, ziynətdi bizimçün.

Min neməti vardır onun hər bir qarışında,
Hər neməti bu dəhrdə, şöhrətdi bizimçün.

Fəxr eyləyirik vəslini duyduqca həmişə,
Olmazsa Vətən torpağı, firqətdi bizimçün.

Yadlara Vətən olmamış ömründə bu torpaq,
Bu şübhəsiz, əslində, səadətdi bizimçün.

Qoymam dolana xarı bu gülzari-çəməndə,
Xar girsə Vətən mülkünə, töhmətdi bizimçün.

Bülbül kimi cəh-cəh vurur hər kəs Vətənində,
Hər kəs Vətənin sevsə, qənimətdi bizimçün.

Xalqın, Vətənin sevməyən insan deyil əsla,
Sən bil, Zəkəriyya, bu həqiqətdi bizimçün.

*1970*

***

Saldın məni, ey şux, bu qədər möhnətə hər gün,
Layiqmi mən oldum bu qədər töhmətə hər gün?

Şirin süxənindən bir əsər duymuram indi,
Saldın məni bu adət ilə, heyrətə hər gün.

Tutma məni söz atəşinə, şam-səhər gəl,
Həsrət qalarıq onda biz hüriyyətə hər gün.

Zəhr ilə suvarma sözünün hər birisin bax,
Şəhd ilə qarışdır ki, minə qiymətə hər gün.

Bir ömr verib hər kəsə dünyadə təbiət,
Sərf eyləməsin kimsə gərək qeybətə hər gün.

Göndər məni eşqinlə edim aləmi rövşən,
Xoşdur salasan min bu qədər zəhmətə hər gün.

Eşq şəmini Zəkəriyya ilə yandır daim,
Vəsl eyləyəsiz şan, şərəf, şöhrətə hər gün.

*1970*

***

Çəkərəm min cürə zəhmət Vətənim-canım üçün,
Verərəm canımı mən, böylə zərəfşanım üçün.

İftixar ilə elin dərdini hər gün çəkərəm,
Qalmaram qeydimə gər, fərz ola dərmanım üçün.

Arzu eylərəm öz xalqıma xoş günləri mən,
Qəti cəhd eyləmərəm, saxta şərəf, şanım üçün.

Bütün ömrümdə Vətən bağına bağban olaram,
Taparam min cürə gül, baği gülüstanım üçün.

Zəkəriyya, Vətən eşqiylə çalış, bir anadır,
Sən xeyirxahlıq elə, Azərbaycanım üçün.

*1970*

***

Sədayi bülbülə bax, gör necə fəqan eləyir!
O yoxsa sevgilisin bir də imtahan eləyir?!

De, kimdi ərz eləyən bülbülə vəfasızdır?
O gül budağını hər yerdə aşiyan eləyir!

Nə zülm bülbülə gül eyləmiş cahanda deyin?!
Deyilmi, bülbülə gül qoynun asiman eləyir?!

Rəqibi bülbülün hər yerdə xar olur daim,
Odur ki şura gəlib dərdini bəyan eləyir!

Öz eşq badəsini bülbülə verib güllər,
Bu hal inan, Zəkəriyyanı şadman eləyir!

*1971*

***

Ağlama sən, gözəlim, mən sənə qəmxar ollam!
Bütün ömrümdə sənə, əsl cəfakar ollam!

Qoymaram xarı dolansın o çəmənzarında,
Bu təmənna ilə hər xarə özüm xar ollam!

Razı olmam düşəsən bəhr-qəmə aləmdə,
Nə qədər ömr eləsək, əhdə vəfadar ollam!

Gül açar qönçələrin baği gülstanında,
Hər gün ol qönçələrə, mən də xiridar ollam!

Bu yaman dərddi ki sən əhdə vəfa etməyəsən,
Onda gör mən necə bir dərdə giriftar ollam?!

Sən öyünmə, Zəkəriyya, bu qədər xoşbəxtsən,
Mən də xoşbəxtlik üçün eşqə fədakar ollam!

*1970*

***

Hər sevən aşiq gərək, cananına can söyləsin!
Kuyinə min gül açan, baği gülüstan söyləsin!

Eşq ilə hər gün dolansın başına pərvanə tək,
Hüsnünə bülbül kimi, şövq ilə dastan söyləsin!

Badə qaldırsın nigarın eşqinə sevda ilə,
Zülfünə ənbər saçan, sünbüli-reyhan söyləsin!

Eşq dünyasında pərvaz eyləsin şahin kimi,
Eşq mülkün fəth edən, kəndinə sultan söyləsin!

Xurşidə tutsun bərabər dilbəri-rənasını,
Tapmasın şəninə kim, bilmərrə nöqsan söyləsin!

Xar ilə sülh etməsin aşiq gərək, nöqsan olar,
Xarə adətdir bu bir hər yerdə, böhtan söyləsin!

Zəkəriyya, sadiq ol eşqinə sən Fərhad kimi,
Qoy bunu dildən-dilə, hər aqil insan söyləsin!

*1970*

***

Sən əsir etdin məni eşqində, canım səndədir!
Gər şəfa tapsam inan, ancaq gümanım səndədir!

Yoxdu bir Məkkəm, Mədinəm, dinim, imanım mənim,
Həm mənim Məkkəm, Mədinəm, din, imanım səndədir!

Hicr evində dövrəmi qəm leşkəri tutmuş bu gün,
Qalmışam tənha, mənim eşq süpahım səndədir!

Məcnun olmaq niyyətim yoxdur diyari-hicrdə,
Fərhad olsam, ey güli-rəna, günahım səndədir!

Qəlbimə ilham verən vəsli xəyalımdır mənim,
Min təsəvvürdən yaranmış bir xəyalım səndədir!

Şadman ömr eyləmək hər şeydən əfzəldir bizə,
Şadlığım, şövqüm, səfam, eşqim, vüsalım səndədir!

Eşqsiz insan qanadsız quş kimi biçarədir,
Zəkəriyyayəm, mənim eşqim, məlalım səndədir!

*1971*

***

İstəməzdim, gözəlim, dəhrdə sən xar olasan!
Arzu eyləmişəm, eşqə giriftar olasan!

Qurasan bir gözəl insanla həyat aləmini,
Eşqinə daima, hər yerdə vəfadar olasan!

Bəsləyib şövq ilə bir yerdə məhəbbət bağını,
Açılan qönçələrə, gündə xiridar olasan!

Bağbanı olasan böylə gülüstanın özün,
Hər xəta gəlsə, yaxınlaşsa, xəbərdar olasan!

Bu təbiət nə qədər türfə gözəllər yaradıb,
Sən gərək tərbiyədə onlara sərdar olasan!

Zəkəriyyə səni sevmiş, bunu aləm də bilir,
Aruzumdur mənim, sən də tərəfdar olasan!

*1971*

***

Dünən gördüm gəlir, o dilbəri rəna vüqar ilə!
Könüldə eşq sevdası, ürəkdə etibar ilə!

Yaxınlaşdıqca mən, bihuş olurdum rəngi-ruyindən,
Ki, guya min çiçək addımlayır, bir novbahar ilə!

Ürək cəhd eyləyirdi kim çıxıb dursun qabağında,
Şüur idraka dalmışdı, böyük bir iftixar ilə!

Nə xoşbəxtdir məhəbbət tellərilə bağlanan canlar,
Xudavənda, görüşdur onları sən bəxtiyar ilə!

Məhəbbət bağlarilə mən də bağlandım nigarımla,
Zəkəriyya, sən də xoşbəxt ol, bu sevdiyin nigar ilə!

*1971*

***

Gəl ey mahim, təbiət bəxş edib, min bir camalın var!
Təbəssümsüz gəzərdin, mən dünən gördüm, məlalın var!

Əgər dünyada insanlar gəzirsə bir hilal ilə,
Fəzayi-ruyinə rövnəq verən bir cüt hilalın var!

Üzün xurşidə bənzər, lalələr açmış yanağında,
Buxaq üstə vüqar ilə gəzən bir hindu xalın var!

Səni təqlid edir: lalə, qərənfil, nərgiz - əla!
Bənövşə, hər güli-ziba, səmimi bax, böylə halın var!

Boyun ərər, sinən mərmər, siyah tellər qiyamətdir,
Buyur, ayinəyə bir bax, özün gör nə cəlalın var!

Qoyubsan hicr evində sən məni bimar könlümlə,
Məni min cövr ilə məhv etməyə yoxsa xəyalın var?

Zəkəriyya tab edər hər dərdinə min iftixar ilə,
Yadımdan çıxmamış, ey gül, sənin bal tək vüsalın var!

*1971*

***

Gəl, ey badi-səba, tez gəl, o mahin tellərin oynat!
Gətir min lalədən, güldən ona hər cür təravət qat!

Qucub boynun, dağıt keysulərin, keç zağı-zülfündən,
Yetiş kama, yüz ilham al, nə lazım eyləmək fəryad!

Nə xoşbəxtsən, şikarındır gözəllər hər güzərgahdə,
Bu adətdir, düşər ovlar dalınca hər zaman səyyad!

Sən idrak etmədin əsla bu dünyada nədir hicran,
Nələr çəkmiş bizim Məcnun, nələr görmüş bizim Fərhad!

Öpürsən sən güli-zibaların hər gün dodağından,
Nədir bunca sızıldarsan, sənə kim eyləsin imdad?

Mənim hər gün yanır canım, inan hicran ocağında,
Aramızda düzəlmir yar ilə çoxdan bir ittihad!

Zəkəriyya, qəm yemə, yarın yanında etibarın var,
Gələr bir gün, bu qəmlərdən olarsan sən də bax azad!

*1971*

***

Bu hüsn səndə ki var, gülüm, bir afətdir!
Sənin öz aşiqinə, mənbəi səadətdir!

Əgər ki əhdə vəfa etməsən bu dəhrdə sən,
Gözəllik aləminə bir böyük xəyanətdir!

Bütün gözəllərə de, Leylidən bir ibrət alın,
Bu şöhrəti ona bəxş eyləyən dəyanətdir!

Sən eşq mülkünü tərk eyləyib gedəndə məgər,
Ki, böylə zənn elədin, bu bir zərafətdir?!

Küsürsən, eyb eləməz, bu yaxşı şakərdir,
Küsüb barışmaq, əzizim, bu başqa söhbətdir!

Əgər ki şəm kimi yansan öz atəşində inan,
Bizim həyatımız üçün məhşəri qiyamətdir!

Əlimdən hər nə gəlirdi mən eylədim, ey yar,
Sən indi tərslik edirsən, bu pis siyasətdir!

Nə eyləsin Zəkəriyya, dözür cəfalarına,
Cəfaya dözmək, əzizim, onda bir əlamətdir!

*1971*

***

Ey şux, səni mən arifi-canan kimi sevdim!
Bir gül kimi, bir sünbülü-reyhan kimi sevdim!

Hüsnün səni məşhur eləmiş aləmə,ey məh,
Aləmlə səni mən ki, zərəfşan kimi sevdim!

Sən gərdəni mina, boyu ərər kimi cansan,
Ey gül, səni mən sərvi-xuraman kimi sevdim!

Dünya evini dolduran insanlar içində,
Gəzdim səni mən, əsl bir insan kimi sevdim!

Şahin kimi eşq aləmini seyr eləyirdin,
Onda səni bir eşqə nigahban kimi sevdim!

Bülbülləri hüsnilə edən kəndinə məftun,
Min gül bitirən bağı-gülüstan kimi sevdim!

Qoydun Zəkəriyyanı da hicran bucağında,
Hicran çölünü güllü xiyaban kimi sevdim!

*1971*

***

Bülbul, nə oldu söylə, gülüstanə gəlmədin?!
Güllü, çiçəkli, seyrili bustanə gəlmədin?!

Veribdi xar ilə qol-qola gördünmü, güllərin?!
Bəs söylə nə oldu ki, əfqanə gəlmədin?!

Min bir cəfa çəkirsən, əzizim, sən də eşqdən,
Söylə görək, ey taleyi kəm, canə gəlmədin?!

Dərdin əyibdi qəddini bir nunə döndərib,
Tapdınmı çarə dərdinə, dərmanə gəlmədin?!

Üz döndərib gedəndə gördüm o gün ilk bahardan,
Getdin bəs hansı səmtə, zimistanə gəlmədin?!

Get tap Zəkəriyyanı, bölüş dərdini barı,
Min dəfə dedim, sən yenə imanə gəlmədin?!

*1971*

***

Kimin, ey şux, görək axır işi əfqan olacaq?!
Hicr odunda yanacaq, bağrı kimin qan olacaq?!

Çox öyünmə, bilirəm, aldadıb əğyar səni,
Görərik, kim hələ qəm mülkünə sultan olacaq?!

Dil sənin, qəlb sənin, sevgi sənindir, afət!
De, bu sevgin kimə dərd, bəs kimə dərman olacaq?!

Sən deyirsən ki, bütün aləmə laqeydəm mən,
Belə bir hal ilə insan necə insan olacaq?!

Hələ nitqində sənin doğru fikir duymayıram,
Nə qədər sirrlərin aləmə pünhan olacaq?!

Sənə saf eşqim ilə mən bu qədər yalvardım,
Elə bildin sənə bir özgə nigahban olacaq?

Eybi yoxdur, Zəkəriyya vuracaq ömrü başa,
Sənin öz sirrin inan, aləmə şayan olacaq!

*1971*

***

Yar eşqə eyləmədi can nisar, qoy getsin!
Yox onda zərrə qədər etibar, qoy getsin!

Düşüb qədəmlərinə minnət eylədim hər gün,
Ona bu sözlər etmədi heç zərrə kar, qoy getsin!

İcazə vermədi mən güllü bağçasın dolanım,
Rəqibə vermiş idi ixtiyar, qoy getsin!

Qəm ilə qol-qola verdik, vüsalı axtardıq,
Bizə təsadüf eylədi tək intizar, qoy getsin!

Sevib sevildiyini bilsə də məharət ilə,
Bunu o eyləmədi aşikar, qoy getsin!

Mən ağladım, o gülürdü mənim müsibətimə,
Demə o bundan edir iftixar, qoy getsin!

Qəm eyləmə, Zəkəriyyə, bu öylə bir dərddir,
Ona hər aşiq olubdur düçar, qoy getsin!

*1971*

***

Sən gəl insaf elə, ey gül, belə tüğyan eləmə,
Aşiqi-zarinin hər gün ürəyin qan eləmə!

Qoyma əğyarı dolansın o çəmənzarında,
Hər gəda şövqinə gəl, eşqini qurban eləmə!

Axtar öz sevgini tap, düşmə təsadüflərə sən,
Buraxıb kuyinə hər nakəsi mehman eləmə!

Hər gəda eşq nədir dərk eləməz aləmlə,
Sən o saf eşqini hər xəstəyə dərman eləmə!

Sən bilirsən nə qədər aşiqi-zarin vardır?
Aşiqindən, gözəlim, eşqini pünhan eləmə!

Kim səni sevməsə, sən sevsən onu, faciədir,
Belə bir dərdə düşərsənsə, gəl əfqan eləmə!

Zəkəriyyadı ürəkdən sevən ömründə səni,
Qeyri bir aşiqi eşqinlə firavan eləmə!

*1971*

***

Tab etmərəm, ey şux, mənə hicrin qənim olsa!
Cənnət bütün ömrümdə mənim məskənim olsa!

Eşqində bəlalər çəkərəm, şam-səhər mən,
Min dərdinə məskən inanırsan, tənim olsa!

Xof eyləmərəm düşsəm əgər bəhr qəm içrə,
Min şamlı çıraq tək yanan eşqin mənim olsa!

Şad ollam inan, sən nə qədər zülm eləsən mən,
Eşqinlə tikilmiş belə pirəhənim olsa!

Meyl eyləmərəm mehr eləsə gündə min afət,
Səndən də gözəl bir bu qədər gülşənim olsa!

Cənnətlə onun huriləri zahidə qalsın,
Bəsdir mənə yarım kimi bir yavərim olsa!

Ölsəm Zəkəriyya, mənə cənnətdi bu torpaq,
Canan ilə bir yerdə əgər mədfənim olsa!

*1971*

***

El içində məni, ey şux, nə üçün xar elədin?
O rəqib ilə olan eşqini iqrar elədin?

Sənin eşqinlə bu aləm mənə bir cənnət idi,
Bu geniş aləmi birdən başıma dar elədin?

Sənə izhar eləyib eşqimi çox yalvardım,
Yenə fikrində sən, ey məh, belə israr elədin?

Gecə-gündüz çəkirəm surətinin həsrətini,
Məni hicrinlə özün gör necə bimar elədin?

Mənə hər gündə deyərdin: - Səni qəlbdən sevirəm,
İndi söylə, nə üçün sevgini inkar elədin?

Sevməyirdin bunu əvvəlcə deyərdin barı,
Yoxsa o saxta sözündən o zaman ar elədin?

Sevməyir indi inan ki, Zəkəriyya da səni,
O da təkrar eləyir sən necə rəftar elədin.

*1971*

***

Gəl bir bu qədər naz eləmə, ey büti-tənnaz,
Göstər mənə bir bağça ki, heç vaxt gülü solmaz!

Bağçanda açıb min cürə gül, lovğalanırsan,
Ömrün hamısı nə bahar olmaz, nə yaz olmaz!

Ömrün yazı vardır, yayı vardır, qışı vardır,
İnsan olan ömrün vuracaq başa sərəfraz!

Hər kim kəpənəktək çiçək ardınca qaçarsa,
Öz son baharında ona bir gül də tapılmaz!

Sən yaxşı düşün, bel bükülüb, saç ağaranda,
Çox yaxşı demişlər "...bu gözəllik sənə də qalmaz!"

Hər kim ki sənin şirəni zənbur kimi sormuş,
Ömrün qışı gəldikdə səni yadına salmaz!

Eşqində əzəldən belə sadiq qədəm olsan,
Eşqin Zəkəriyyanı sevərsənsə, saralmaz!

*1971*

***

Bax, bu tərsa balası aşiq üçün canə dəyər,
Gündə min bir gül açan bağı-gülüstanə dəyər.

Məskənim olsa o afətlə mənim səhralar,
Onun hər bir bucağı mənzili-rizvanə dəyər.

Zülfu təqlid eləyir dalğaların, dəryanın,
Onun hər bir teli bir sünbülü-reyhanə dəyər.

Göz gülür, üz qızarır, xəndə dodaqlar sevinir,
Nitqi, rəftarı onun bir gözəl insanə dəyər.

Boyu ərər, ləbi kövsər, sinəsi qar kimidir,
Mərifət sahibidir, arifi-cananə dəyər.

Vermərəm hər gülü-rüxsarə mən o lalə ruxu,
Etmərəm səhv desəm, yüz ləbi-xəndanə dəyər.

Qoydu hicran ilə bir yerdə məni getdi o məh,
Mənə bu hicr evi əlbəttə ki zindanə dəyər.

Fayda verməz, Zəkəriyya, nə qədər ah çəkəsən,
Aşiqi-zarın işi, naleyi-əfğanə dəyər.

*1972*

***

Mən istəmirəm özgə çəmənlik, çəmənim var!
Min dürlü təravətli gülüm, yasəmənim var!

Xoşbəxtliyimə hər yetən ədna həsəd eylər,
Çünki mənim, ey dil, belə azad Vətənim var!

İlham alıram mən elimin xoş əməlindən,
Pərvaz edirəm göylərə, çün bali-pərim var!

Dərd-qəm nə deməkdir onu mən eyləmirəm dərk,
Zəhmət çəmənim, nanü-nəmək, pirəhənim var!

Azadəyəm eşqimlə bu insan çəmənində,
Hər gündə mənim eşq ilə min bir zəfərim var!

Mən ellərin, ellər mənim olmuş bu Vətəndə,
Yüz xarüqə hər gündə yaratsam, hünərim var!

Sən gəl Zəkəriyya kimi sev xalqını daim,
Eşq əhlidir, ondan hələ çoxdan xəbərim var!

*1972*

***

Hər gülün, hər sünbülün bir bülbülü-şeydası var!
Hər başın aləmdə, ey dil, özgə bir sevdası var!

Aqil olsun, ya ki qafil, fərqi yoxdur hər kəsin,
Bir-birindən fərqlənən bir daxili dünyası var!

Nitqdir əqlin libası, ey xirədmənd, yaxşı bil,
Arif ol, el məclisində hər sözün mənası var!

Aç dəhanın, hər sözün çıxsın cahana dürr tək,
Çünkü hər bir cümlənin sözlər kimi əzası var!

Bir qəbahət min şüurda bir təsəvvür rəsm edir,
Ey qəbahət sahibi, zənn etmə istisnası var!

Hər kəsin insanlığı nitqində, rəftarındadır,
Şah ola nadan əgər, axır günü, iflası var!

Sanma, dostum, aləmi-nasutimiz əfsanədir,
Hər bir insançün onun məxsusi bir imlası var!

Hər kimin amalı dövlətdir xərabət əhlidir,
Sanma bu "biçarənin" aləmdə istiqnası var!

İnsan ol kəsdir ki, xidmət göstərir insanlara,
Aləmi-nasutidə "Məcnun" deyil, Leylası var!

Zəkəriyya, bax, bu dünyamız əmək dünyasıdır,
Hər əmək gülzarının min-min güli-rənası var!

*1972*

***

Kimə vicdanı yar olsa, bizim aləmdə xar olmaz!
Düşüb dərdi əzab içrə günü ömründə tar olmaz!

Gədalıq halətin sevsə əgər bir mərdümi-qafil,
Düşər axır günündə bir bəlayə, bəxtiyar olmaz!

Riyakar olsa övladi-bəşər xalqa xəyanətdir,
Ona bu dərdə, ey dost, yəqin ki, etibar olmaz!

Hünər əhli əgər meyl etməsə bir karə əvvəldən,
O şöhrət bağçasında boy atıb bir namdar olmaz!

Səmərəsiz, fitnəkar, arsız, çoxüzlü bir adamdan bil,
Vətənçün, xalq üçün, elçün, bəşərçün qəmküsar olmaz!

Soyarsa xalqı bir nadan, yığarsa güllü bir sərvət,
Məzar əhli olan dəmdə bu sərvət yadigar olmaz!

Kiminlə dost olarsa fitnələr, böhtan, qərəz, hiylə,
Səadət aşiyanında onunla bərqərar olmaz!

Təbiətdə, cəmiyyətdə yaşar məxsusi qanunlar,
Zimistan fəsli durduqca açıb min gül, bahar olmaz!

Quru səhraları zəhmət behiştə döndərir bir bax,
Qoşul bu zəhmətə, göstər hünər, ömründə ar olmaz!

Kim öz xalqilə zəhmət bağçasını gülzara döndərsə,
Yaşar dostu səadətlə, bu cür ömr ixtisar olmaz!

Şərəflə ömr edən hər kəs, böyük xəlqilə fəxr eylər,
Yaşarsa min əzab içrə, verər can, fitnəkar olmaz!

Özün mərd ol, sözün düz, xidmətin qoy xalqa həsr olsun,
Kim öz xəlqilə düz gəlməz, ona öz bəxti yar olmaz!

Bacar gün geçməmiş göstər hünər sən doğma yurdunda,
Nə tənbəllik, nə sərxoşluq, el içrə bir şüar olmaz!

Ədalətlə qurulsa bir bina mülki-cahan içrə,
O zülm ilə uçulmaz dövrdə bil, tarmar olmaz!

Ayıl, qəfil, açıq bir gözlə bu dünyanı seyr eylə,
Riyakardan, şərirdən fitnəkardan şəhriyar olmaz!

Şərəfsiz ömr sürməkdən, Zəkəriyyə, kim alıbdır kam,
Tutulsa min pis iş ondan inan, bir iftixar olmaz!

*1973*

***

Bu ayrılıq dəmini sən nə tez xitab elədin?
Fəraq odunda məni yandırıb kabab elədin?!

Yoxsa Məcnun eləməkdir məni fikrin, afət?!
Bu rahi Leyli kimi sən də intixab elədin!

Bəlalər içrə dolandım diyarı firqətdə,
Soruşmadın, necə sən bu cövrə tab elədin?

Şüurun olmadı rəhbər o günki halətinə,
Fəzayi hissinə sən ram olub xitab elədin!

Mənim kimi sənə yüz eşq bağlayan vardır,
Kimə o gül üzünü söylə, afitab elədin?!

Dedim ki, xar ilə girdin bir ittifaqa yəqin,
Bugünki namən ilə sən ki inqilab elədin!

O bağçan içrə açan güllərin səfası ilə,
Nəvalı bülbülünü gör nə feyziyab elədin?!

Vəfalıdır Zəkəriyya, dözər cəfalarına,
Utanma ki, ona sən bir belə əzab elədin!

*1973*

***

Nə üçün nifrət edirsən sənə can-can deyənə?
Min kərə hörmət edirsən sənə böhtan deyənə?!

Bilmədin kim sənə dostdur, sənə kimdir əğyar,
İlk baxışdan vurulursan sənə ceyran deyənə.

Eybi yoxdur, mənə hərçənd yalan satdın sən,
Verginən qəlbini barı sənə insan deyənə.

Çünki insandı bilən qədrini insan olanın,
Vermə fürsət, sənə hər canını "qurban" deyənə!

Kainatı mənə sən dəhrdə zindan elədin,
Verdin öz könlünü sən hər cürə hədyan deyənə!

Sevməsən də Zəkəriyyanı, bu bir eyb deyil,
Verginən mehrini öz eşqinə dərman deyənə!

*1974*



***

Mənə o zülfü qara mahiliqadan dedilər!
Saçı ənbər, üzü gül, badi səbadan dedilər!

Baxdım o şuxə ki, güllər bəzəmiş çöhrəsini,
Bir mələkdir, yerə enmişdi səmadan dedilər!

Bədirlənmiş ayı yad eyləyirəm görcək üzün,
Bu gözəllik ona gəlmişdi xudadan dedilər!

Naz ilə seyrə çıxıbdır, qoşulub gül-çiçəyə,
Enir o afəti-can Turi-Sinadan dedilər!

O mələklər mələyi aləmi sevdaya salıb,
Tutub öz barını ömründə vəfadan dedilər!

Onu kim sevsə tutar bəhri kədər içrə qərar,
Qurtara bilməz o kəs, dərdi-bəladan dedilər!

Eşq dünyasına girmək nə çətindir, ey dil,
Sor bu sirrin səbəbin, Zəkəriyyadan dedilər!

*1974*

***

Göstər camalını, ey şux, aşinalərə,
Döndər o sübh ulduzunu rəhnümalərə.

Şölənlə nurə qərq elə, gəl, güllü aləmi,
Bir az da payə yetişsin binəvalərə.

Naz ilə çəmən seyrinə çıx, görsün el səni,
Göstər nümunə barı bizim biədalərə.

Ver könlünü o şəxsə ki o əhli eşqdir,
Aşiq olan bənzəməz əsla gədalərə.

Əqlin, kəmali-mərifətin məst edib məni,
Dağ çəkmisən bu hüsnün ilə məhliqalərə.

Sən də Zəkəriyya kimi bu dəhrdə mərd ol,
Min nifrəti var eldə gəzən bivəfalərə.

*1974*

***

Bütün gözəlləri mən istərəm ki, Yavər ola!
Mənim də sevdiciyim onlara bərabər ola!

Girək biz eşq bağına, ömr edək məhəbbət ilə,
O bağa bağban olum mən, mənə o yavər ola?

Xilafi eşqlə ömr eyləmək demə səadətdir?
Əgər ki əhdə vəfasızlıq onda şakər ola!

Təbibə ərz elədim, dərdimə əlac eləsin,
Dedi bu dərdə çətindir dəva müyəssər ola!

Rəqibə vermərəm öz sirrimi, o nadandır,
İnanmaram ona mən bu gün peyğəmbər ola!

Bir eşqdir məni bimar edən bu aləmdə,
Bununla istərəm ömrüm mənim münəvvər ola?

Deyil könül inanın, özgə bir təmənnadə,
Mən istərəm ki, yarım bir əsl dilbər ola!

Danış görək, Zəkəriyya, sənin nə dərdin var?
Əgər ki sevdiciyin aya bərabər ola!

*1974*

***

Bəsdir, ey şuxi-zaman, bir bu qədər hicranın,
Təlx edib gör nə qədər ovqatını dövranın.

Vəsl hicran ilə bir yerdə gəlib dünyayə,
Dostudur, yaxşı düşün, hər ikisi sevdanın.

İnsan oğlundakı eşqi bu şüurdur yaradan,
Həm şüur, həm də ki eşq sirdaşıdır insanın.

Ömrə min fəxr verən eşq-məhəbbətdir bil,
Söylə, ey afəti-can, indi nədir fərmanın?

Xəstəyəm, dərdimə yanmırsan, əcəb zalımsan,
Hanı bəs dərdə şəfalər gətirən dərmanın?

Vəslini dərdimə, ey gül, mənə dərman dedilər,
Yanına şur ilə getdimsə mən hər loğmanın.

İndi gəl sən görüşə, mən gedirəm dünyadan,
Bu dəfə rədd qıl, hər bir sözünü ədnanın.

Zəkəriyya, bu qədər etmə şikayət, bəsdir,
Bu nədir, ərşə çıxıb şam-səhər əfqanın!

*1974*

***

Can alansan, gözəlim, aləm olur heyranın,
Olaram şam-səhər mən də sənin qurbanın.

Söylə, kim saldı məni xoş nəzərindən, ey şux?
Yoxsa baxdın sözünə sən də rəzil ədnanın?

Hələ dərk etməmisən aşiqi cananından,
Ayrı salmaq mələyim, sənətidir şeytanın.

Kim ki insandır onun mənliyi var dünyada,
Bir olar verdiyi söz, dəhrdə hər insanın.

Sirrini dəfn edərəm, qəlbdə ta qəbrə qədər,
Əsər etməz mənə bil, zərbəsi hər hədyanın.

Sevmərəm bir gözəli dəhrdə səndən sonra,
Dözərəm versə də yüz cövr-cəfa hicranın.

Sən deyildinmi mənə eşqini elan eləyən?
İndi söylə, kimə lazımdır bu cür böhtanın?

Get gülüm, get gözəlim, incimirəm mən səndən,
Aruzumdur sənə kaş, yar ola öz vücdanın.

Zəkəriyya sevəcəkdir səni bundan sonra da,
Gecə-gündüz eşidər aləm onun əfğanın.

*1974*

***

Şöləsin gizləməsin, siz gedin o ayə deyin!
Salmasın gül üzünə şam-səhər sayə,deyin!

Binəvalər gözünü dikmiş o mahin üzünə,
Hərə istər ki, ala bir azacıq payə, deyin!

Bu gözəllikdə ona yoxdu bərabər bilirəm,
Bənzəyir hüsnü ilə Həzrəti İsayə, deyin!

Gündə min qəlbi çəkir darə o ceyran balası,
Salıb o afəti-can könlümü sevdayə, deyin!

Fələyin dövrü yetirmiş neçə min türfə gözəl,
Neçə min xəlq edəcəkdir hələ fərdayə, deyin?

Eşqdən xali könül varmı görən dünyadə?
Varmı ömrün deməyən eşqinə sərmayə, deyin?

Dolanır başına şəmin gecələr pərvanə,
Yoxmudur burda məhəbbət kimi bir qayə, deyin?

Vəslə min cur cəfa ilə çatar hər bir aşiq,
Sonu yoxdur bu əzabın, Zəkəriyyayə, deyin!

*1974*

***

Dedim ki, sən mənə, ey şux, sevimli yar olasan!
Eşq mülkünə daim küllü-ixtiyar olasan!

Məbadə dərs alasan Leylidən, Züleyxadan,
Ki, sən də aşiqinə öylə zülmkar olasan!

Rəqibə verməyəsən könlünü, qəbahətdir,
Nə lazım, ey güli-rəna, el içrə xar olasan!

Fəzayi-eşqinə girsin qoy aşiqi-zarin,
Verib könül ona sən, nazlı bir nigar olasan!

Mələklər ilə sənin olmasın gərək fərqin,
Gözəllik aləminə təkcə iftixar olasan!

Məhəbbət aləminə şah olub ədalət ilə,
Gözəllər içrə özün əsl şəhriyar olasan!

Vəfalı olmağı dərs al Zəkəriyyadan,
Vəfalı xublar içrə əsl namidar olasan!

*1975*

***

Hər hünər əhlində min hikmət edər iqrar, söz,
Hər yanan qəlbin sədasın eyləyər izhar, söz!

Aşiyan eylərsə bir qəlbi məhəbbət nəğməsi,
Vəslə yetməkçün edər şam-səhər israr, söz!

Bülbül əfğan eyləyir şam-səhər gül eşqinə,
Güllə xar eylərsə, ülfət eyləyər inkar, söz!

Qəlbi qəlbə bağlayan gözlər də var, sözlər də var,
Ağladar, həm güldürər, həm eyləyər bimar, söz!

Hər beyində bir xəzinə gizlənib agah olun,
Böylə zəngin bir xəzinəyçün olar açar, söz!

Min bilik həkk eyləyər beynində insan oğlunun,
Gər səliqəylə edərsə hər birin təkrar, söz!

Hər xirədməndin başında əks olur min bir fikir,
Hər birin şərh eyləyəkən bəxş edər ətvar, söz!

Mərifət insana məxsusdur cəmiyyətdən keçir,
Bunları tarixlərə həkk eyləyər mismar, söz!

Min fərah, min iftixar, min can verər şəxsiyyətə,
Tərsinə dövran edir, bəzən olur idbar, söz!

Hər riyakara verər əl, dost olar biganəyə,
Hərgiz inşa eyləyərmi min yalan əxbar, söz!

Zəkəriyya, qoy fikirdən nəşət etsin hər sözün,
Etməsin hər kimsəni səndən əbəs bizar, söz!

*1975*

***

Niqabı qaldır üzündən, cəmali-ayə baxım,
Üzündə xalları ulduz olan səmayə baxım.

Bir öylə yar dilərəm dil bilən, kəbutər ola,
Ona sücud edərək munisi-zibayə baxım.

Fəzayi-eşqdə mən Fərhad olmaq istərdim,
Cəfalar içrə dolansam da bir səfayə baxım.

Bu məqsədimdi mənim dost olum cəmiyyətimə,
Dönəndə hər tərəfə dosta, aşinayə baxım.

Əgər ola o mələk qibləgahım hər gündə,
Mən istərəm durub hər gün o rəhnümayə baxım.

Gözəllik aşiqiyəm, vurğunam o mahizərə,
İstəməzdim o güldən qeyri biədayə baxım.

Düşməz könül bilirəm özgə bir təmənnayə,
Qoy bu yolda mənə örnək Zəkəriyyayə baxım.

*1975*

***

Eşqin məni saldı nə yaman dərdlərə, Afət!
Məqsudinə çatdın, gözəlim, sən də nəhayət!

Əğyar ilə eşq aləmini birgə dolandın,
Sandın ki, bu rah ilə gələr əsl səadət!

Bəxş eylədin o biqəmə sən bağı-behişti,
Zənn eyləmədin ki, edər ömründə xəyanət!

Bir dərdə salıbsan məni, bilsən nə yamandır,
Çarə edə bilmir ona bilmərrə təbabət!

Eşqin məni bimar eləmiş, dərd də bu dərddir,
Səhv eyləmərəm, yoxdu desəm səndə ədalət!

Eşq atəşinə aşiqi-zarın yanır, ey şux,
Zənn eyləmirəm dəhrdə bir qeyri fəlakət!

Çarən Zəkəriyya, yenə səbr eyləmək olsun,
Çoxdandı ki səndə yaranıbdır bu cür adət!

*1975*

***

O surətin sənin, gözəlim, Afitabdır!
Gözəllik aləmində bu bir inqilabdır!

Açdım, varaqladım sənin o eşq dəftərin,
Gördüm ki, mahiranə yazılmış bir kitabdır!

Məst eyləyir məni qıvrım qara tellərin,
Meyxanə əhlini məst eyləyən şərabdır!

Yandırma bu hicran oduna gəl məni, afət!
Dəhşətdir, iztirabdır, mələyim, min əzabdır!

Göstər mənə o gül üzünü şam-səhər, gəl,
Bu acizanə eylədiyim bir xitabdır!

O gül camalına baxdıqca qəlbim fərəhlənir,
Nuş etməmək o surətini bil iztirabdır!

Mənim xitabımı, ey şux, günah hesab eləmə,
İnan, o qarə gözlərə baxmaq min savabdır!

Fəxr et, Zəkəriyyə, bu dəyanət ki səndədir,
Hər dərdə tab eləmək, ona əla cavabdır!

*1976*

***

Hanı o günlərimiz, eşq ilə münəvvər idi?
Ki, onların hərəsi min ilə bərabər idi?

Gəzib eşq bağçasını, verərdik əl-ələ biz,
Çiçəklər ilə yarışmaq, bu səndə şakər idi.

Behişt idi bizə aləm, keçirdi günlərimiz,
Sular ki nuş eləyirdin, bir abi-kövsər idi.

Məhəbbət ilə uçardıq fəzayi-eşqdə biz,
Bizimlə həmdəm olan hər zaman kəbutər idi.

Şəfəqlərin ki işıqlandırırdı xanəmizi,
O min gülün, çiçəyin ətrilə müəttər idi.

Fəraqi xanəmizə neçin gətirdin bəs?
Bu karın ilə sənə bilmədim nə rəhbər idi?

İndi bax, Zəkəriyya hicr evində məhzundur,
Məgər ona belə bir aqibət müqəddər idi?

*1976*

***

Baxma bu qeyz ilə, gözəlim, qəlb qan olur!
Baqi-məhəbbət içrə, gülüm, min tufan olur!

Hər kipriyin dönür oxa o mahi-ruxidə,
Hər bir qaşın bu oxlar üçün bir kaman olur!

Can-can deyər, sevən-sevənə gündə dəhrdə,
Eşq aləmində gündə məgər imtahan olur?!

Əhdə, vəfayə xəyanət göstərən gədalərdir,
Gədalər ilə ömr eyləyən bədgüman olur!

Canan, inan mənə, gəl etibar elə,
El içrə əhdə xəyanət tez əyan olur!

Vermiş Zəkəriyya sənə öz könlünü çoxdan,
Birləşsə deyiblər iki qəlb, bircə can olur!

*1976*

***

Görürəm incimisən, ey güli-rəna, məndən,
Min il ömrüm ola gər, incimərəm mən səndən.

İncisə bülbül əgər öz güli şeydasından,
Qəlbi bir an belə ayrılmaz onun gülşəndən.

Qəlbimin sirrini şövq ilə sənə ərz elədim,
Qorxacaqsan nə bilim, sən bu qədər kölgəndən.

Sevgi azaddı bizim ölkədə, ey afəti-can,
Varmı üstün belə bir ölkə sənin ölkəndən?

Bir günəşsən, bu gözəlliklərə hakim sənsən,
Nur alır cümlə-cahan, gündə sənin şöləndən.

Zəkəriyyanı desən ki, sevirəm mən qəlbən,
Can verərsən ona sən, böylə gözəl cümləndən.

*1976*

***

Fəraqin ilə, gülüm, qəddimiz kaman olacaq,
Bu eşq bağçamızın gülləri xəzan olacaq.

Qəmə əsir düşəcək qəlbimiz, məhəbbətimiz,
Cəfanın həmdəmi, ey şux, inan ki, can olacaq.

Zəmanəmizdə nə Məcnun, nə də biyaban var,
Bu cür cəfalara dözmək bir imtahan olacaq.

Vüsala yetmək, əzizim, bir özgə aləmdir,
Mən indi bilmirəm o hansı bir zaman olacaq?

Məhəbbət ilə uçarsaq fəzayi-eşqdə biz,
İnan ki, ömrümüz, ey gül, daim cavan olacaq.

Burax bu tərsliyi gəl, eşq ilə münəvvər olaq,
Sən inan, Zəkəriyya gündə mehriban olacaq.

*1977*

***

Hər güli-rənadan, ey dil, bir sənubər yaxşıdır,
Hər çiçək ətrindən, əla müşk-ənbər yaxşıdır.

Hər mələk simanı sevmək, dəhrdə mümkün deyil,
Sevməyə söz anlayan, bir nazlı dilbər yaxşıdır.

Ləbləri qönçə, dili şəhdi-şəkər olsun gərək,
Kim deyər bunlardan, ey dil, abi-kövsər yaxşıdır?

Hiylə bilməz, fitnədən, feldən uzaq nazənin,
Eşqə qabil, sülhə mayil bir kəbutər yaxşıdır.

Mən ki gördüm Zəkəriyya nə qədər xoşbəxtdir,
İnsana hər şeydən əvvəl, böylə əxtər yaxşıdır.

*1977*

***

Tapılmadı bu dərdimə, ey şux, çarə, bilmədin?
Məcnun kimi dolandım aləmi avərə, bilmədin?

Min bir bəlayə salmısan məni, ey mahi-tələtim,
Əlac üçün yalvarmaq istədim o xarə, bilmədin!

Səbrim tükəndi hicr evində mənim, çarə tapmıram,
Göz yaşlarım gətirdi məni zinharə, bilmədin!

Hissin gözlərinlə birləşib aldatdı qəlbini,
Verdin könül axır ki o idbarə, bilmədin!

Vəslinlə kama çatmadı, ey şux, Zəkəriyya,
Yandı bütün ömründə o bir narə, bilmədin!

*1977*

***

Əsiri olma, könül, bu zülfü qarələrin,
Oyatma hisslərin, bu mahi-parələrin.

Görəndə tiğ qaşları, cəllad gözləri hər an,
Çıxır şüuru başından, bizim biçarələrin.

Bəlalər içrə tapılmaz bəlayi-eşqə əvəz,
Hər eşqə çər verən şövqidar xumarələrin.

Uzun ömür dilərəm bu məhliqalərə mən,
İraq ola nəzərindən, o qəlbi qarələrin.

Soruşsan hardan alır hüsnü hər mələk-ziba,
Sən onda yadına sal, Günəş şərarələrin.

Həyatə hüsn verən zümrüd olduğun bilirəm,
Ona şəbahəti vardır, bütün sitarələrin.

Tökəndə gərdəninə o qara saçları bax,
Əsiri olmamaq olmur, "siyah şəlalələrin".

O qara zülfləri çin-çin düzən deyin, kimdir?
Buna çatar, Zəkəriyya, hüququ şanələrin.

*1977*

***

Bivəfasan, gözəlim, get, işin asan olmaz,
Bivəfalardan inan, dəhrdə insan olmaz.

Bənzəyər min çiçək üstündə gəzən zənburə,
Ona heç bir çiçəyin şirəsi, dərman olmaz.

Dedilər yarın ilə həmdəm olubdur əğyar,
Etmədim bavər ona, bir belə böhtan olmaz.

O gözəllər ki, qırır aşiq ilə peymanın,
Bir mələk olsa da, onlarda şərəf-şan olmaz.

Az deyil türfə gözəllər ki vəfa sahibidir,
Onların heç biri əğyara nigahban olmaz.

Yenə səbr et, Zəkəriyyə, bu gözəl adətdir,
Əsl aşiq bu vəfasızlara qurban olmaz.

*1978*

***

Bivəfasan, gözəlim, get, inciyən deyiləm,
İnan, bu sirrimizi kimsəyə deyən deyiləm.

Mənə zülm eylədin, axır ki, sitəmkar oldun,
Düşüb ardınca sənin iməkləyən deyiləm.

Eşq səhrasına çıxdım, belə məğlub oldum,
Mən indi öz-özümü daldada öyən deyiləm.

Sənin ki hüsnünə mən səcdə eylədim daim,
Get, ey mələk, sənə mən indi baş əyən deyiləm.

Sənin bu halına rəhbər kəsildi hisslərim,
Sənə bu sirri dedim, bir də söyləyən deyiləm.

Gəl indi biz, Zəkəriyya, səbrlə cəfaya dözək,
Bu qəmlər eşqlə gəlmiş, özgə qəm yeyən deyiləm.

*1978*

***

Yanıram hicr oduna, kim mənə imdad eləsin?
Kim gedib yarə desin, bəlkə məni yad eləsin?

Yazmışam namə o gül üzlü mələk simayə,
Kim gedib naməni dildarıma inşad eləsin?

Bülbülü-zarəm, gülün eşqilə əfğan eylərəm,
Söylə, bülbül nə qədər dəhrdə fəryad eləsin?

Gözlərim yolda qalıb, didəsi giryan oldum,
Xoş xəbərlə buyurub kim məni bəs şad eləsin?

Düşmüşəm bəhri-qəmə, əqli şüurum da gedib,
İndi bəs kim mənə bu dəhrdə irşad eləsin?

Zəkəriyya, sənə qoy səbr yenə yar olsun,
Səbr ilə səbr elə sən, qəlbini abad eləsin.

*1978*

***

Gördüm sənin, ey şux, saralıb lalə surətin,
Duydum ki, sən də çəkmisən hicrin qiyamətin.

Açmadın sirri dəhanın mənə agah olsun,
Nədən yarandı söyləmədin böylə halətin.

Bimar elədin qəlbimizi bəhri-qəm ilə,
Az qaldı sənin nunə dönə sərv qamətin.

Sənsiz yaşaya bilmərəm aləmdə deyirsən,
Qəlbimdə yüksəlir onda sənin xeyli qiymətin.

Sən vədlər verirsən hələ vəslə yetməyə,
Bunu həqiqət eyləməyə yoxdu qüdrətin.

Əzab seli Zəkəriyyanı şur ilə aparır,
Biçarə nədənsə bilmədi bu sirrin illətin.

*1978*

***

Mən etmərəm, ey şux, səni min ayə bərabər,
Qiymətli nə var aşiqə sevdayə bərabər.

Gəzdim də, dolandım da, bütün xublər içrə,
Mən görmədim heç sən gözü şəhlayə bərabər.

Duydum sənin o eşqini hər davranışından,
Heç tutmaq olarmı onu dəryayə bərabər?

Min-min gözəlin şahısan, ey mənzəri-mahim,
Tutmaq səni mümkündümü İsayə bərabər?

Əfqan edirəm hicran ilə şam-səhər mən,
El tutdu məni bülbüli-şeydayə bərabər.

Mərdliklə dözür bu qədər curi cəfaya,
Göstər mənə insan Zəkəriyyayə bərabər.

*1979*

***

Çəkiləm istəmirəm guşeyi-meyxanələrə,
Bənzəyəm orda yatan sərsəri məstanələrə.

İstərəm nuş eləyəm şəm ziyasın gecələr,
Bənzəyəm onda yanan şövqlü pərvanələrə.

Tuti nitqilə edən qəlb evini viranə,
Etibar eyləmərəm hər belə məhparələrə.

Sözləri gövhər olan, püstə dodaq, qönçə dəhan,
Baxmaram bir kərə xam böylə pərizadələrə.

Mən bu dünya evinin karına çoxdan bələdəm,
Uymaran dəhrdə mən hər cürə əfsanələrə.

İnanırsan, Zəkəriyya, həsəd eylər bu könül,
Zülf bağında gəzən şam-səhər şanələrə.

*1979*

***

Bu qədər baxma mənə, könlümü bimar eləmə,
Aç görək sirr dəhanın, gözəlim, ar eləmə.

Düşmüşəm bəhr-qəmə, gündə cəfalar çəkirəm,
Gəl mənimlə, mələyim, sən belə rəftar eləmə.

Can alandır o ala gözlərin, ey mahi-liqa,
Mənə bu zülm eləməkdir, belə israr eləmə.

Qaşların tiği ilə canımı aldın, bəsdir
Hələ min dərdə məni sən də giriftar eləmə.

Ya məni bir söz ilə həmdəm elə dərdi-qəmə,
Ya da ki, vəslə ümid eylə, məni xar eləmə.

Zəkəriyyaya inan zülm eləyənlər çoxdur,
Rəhm elə, gəl gözəlim, sən də günün tar eləmə.

*1979*

***

Ey şux, mənə hər yerdə olur yar, təsəvvür!
Qoymur hələ könlüm ola bimar, təsəvvür!

Mən razıyam, ey gül, o keçən qavrayışımdan,
Bəxş etdi mənə lap sənə oxşar, təsəvvür!

Mən harda varam,sən də mənimlə dolanırsan,
Hər yerdə səni eyləyir izhar, təsəvvür!

Fikrən görürəm mən səni hicran otağında,
Hər anda olur qəlbə səzavar, təsəvvür!

Bivəfalıq nədir, o dərk eləmir aləmdə,
Tutmaz elə bir iş, eləsin ar, təsəvvür!

Ömrüm nə qədər var, mənə o yar olacaqdır,
Mən razıyam olsun mənə dildar, təsəvvür!

Surət nədir sən yaxşı bilirsən, Zəkəriyya,
Yardandı mənə təkcə bu asar, təsəvvür!

*1979*

***

Nə xoş gündə səni xəlq eyləyibdir kainat, ey gül!
Gücü çatmır səni tərifə çəksin şeriyyat, ey gül!

Vurub min bir bəzək bir bax, cəmali-hüsnünə xaliq,
Aparmışdır mələklər ehtimal bir qeydiyyat, ey gül!

Sənə səcdə edir güllər, çiçəklər baqi-gülşəndə,
Onunçün qibtə eylər halına bax mövcudat, ey gül!

Kaman qaşlar, xumar gözlər, şirin sözlər sənə xamdır,
Edəydim kaş səninlə bir dəfə bir ixtilat, ey gül!

Dodaq qönçə, dəhan püstə, üzündə lalələr açmış,
Kim idrak eyləsə səndən alır min bir həyat, ey gül!

Zəkəriyyadır düşən bəhri-qəmə, eşqin bəlasından,
Əgər qat-qat çoxalsa dərdi, etməz ehtiyat, ey gül!

*1979*

***

Söylə, ey şux, sənə insaf nə zaman yar olacaq?
Nə qədər aşiqi-zarin belə bimar olacaq?

Salmısan əqli-şüuri necə gör zindanə,
Nə qədər hisslərin qəlbinə sərdar olacaq?

Görürəm, curi-cəfalar sənə də yar olmuş,
Nə qədər eşq ilə, ey gül, belə rəftar olacaq?

Bağladın yollarını baqi-gülüstanın özün,
Söylə, bəs bu gülüstanə xiridar olacaq?

Tükənib səbrim inan, sübhə qədər yatmayıram,
Nə qədər günlərimiz dəhrdə bəs tar olacaq?

Gün keçir, ömr keçir, gəl belə inad eləmə,
Zəkəriyyanı eşit, günlərimiz var olacaq.

*1979*

***

Nəzər sal, ey könül, sən bu güli-rənaya hərdənbir,
Coşur eşqin fəzasında, cumur dəryayə hərdənbir.

Edir təmsil vicudilə səmadə ulduzu, Ayı,
Kərəm qılsa səxavətlə düşür sevdayə hərdənbir.

Buraxmış aşiqi-zarin diyari-firqətə zalım,
Yaman dərddir ki, salmır üstünə bir sayə hərdənbir.

Görəndə ol büti-zibanı tez-tez şad olur könlüm,
Çəkib şəmşir-qalxanın, girir qovğayə hərdənbir.

Tükənmiş taqətim, səbrim, vəfalı eşqə möhtacam,
Nəzər salsın qoy öz mahim, Zəkəriyyayə hərdənbir.

*1979*

***

Gözəlim, gəl bizə sən, hər gecə biz ayə baxaq,
Seyr edək bağçamızı, nazlı sürəyyayə baxaq.

Oxşayaq bir-birinin əllərini həzz ilə biz,
Qəlbimizdə alışan şövqlu sevdayə baxaq.

Oturaq yan-yana biz, vəsli çəkək dövrəmizə,
Gül budağında ötən, bülbüli-şeydayə baxaq.

Döndərək bağçamızı biz də o rizvan bağına,
O mələklərlə gəzən, sən gözü şəhlayə baxaq.

Nə gözəlsən mələyim, bir büti-ziba kimisən,
Sən ki varsan nəyə lazımdı Məsihayə baxaq?

Oturub gəl düşünək ən yaxın amalımızı,
Əhd-peyman eləyək, şövq ilə fərdayə baxaq.

Dərk edək eşqimizi əql, zəka ilə gülüm,
Elə bundan sonra xoşbəxt Zəkəriyyayə baxaq.

*1979*



***

İstəməzdim, gözəlim, aləmə məşhur olasan,
Nə də bir qönçə kimi, pərdədə məstur olasan.

Nura qərq eyləyəsən xanəmizi bəsdi mənə,
Bir günəş parçası tək xanəmizə nur olasan.

Uçasan eşq fəzasında, gülüm, şam-səhər,
Etiraf etməyə öz eşqini məcbur olasan.

Aşiqi şövq ilə öz bağına bağban edəsən,
Seyr edib bəhrəsini daima məsrur olasan,

Aşiqə vəslə yetişməkdi səadət, bilirəm,
Zəkəriyyanı sevib, eşqinə dəstur olasan.

*1979*

***

Könlum, ey dil, belə bir arifi cananı sevir,
Üzü gül, qaşı hilal, gözləri mərcanı sevir.

Həmdəm olmuş gecələr Ayə, gündüzlər Şəmsə,
Aləmə gündə verən bərq o zərəfşanı sevir.

Kəsilib vəslə ümidim, yanıram hicrində,
Görməsəm də üzünü, qəlb o sürəyyanı sevir.

O da eşqində yanır şam kimi hər gün, bilirəm,
Könlüm o eşqinə hər gündə nigahbanı sevir.

İzn versə mən onun bağına bağban olaram,
İzn vermir hələlik, dəhrdə hicranı sevir.

Bir xəbər çatdı mənə, söylədilər ki, o mələk,
Etiraf eyləmiş, ancaq Zəkəriyyanı sevir.

*1979*

***

Hər zaman aşiq gərək eşqində bimar olmasın,
Hər qəmə, hər möhnətə, dərdə giriftar olmasın.

Min gül əksin eşq bağında gözəl bağban kimi,
Gül açan qönçələrə özgə xiridar olmasın.

Seyrə çıxsın baqi-rizvanında hər gün, hər səhər,
Addım-addım gəzsin hər səmtin ki, əğyar olmasın.

Kəbeyi-kuyin ziyarət eyləsin şami-səhər,
Səy qılsın ki, pərişanlıqdan asar olmasın.

Vəsl qılsın eşq ilə əqli, kamalı dəhrdə,
Eşq dünyasında cəhd etsin ki, icbar olmasın.

Zəkəriyya, bisəmər qalmaz sənin xidmətlərin,
Sən çalış ki, əhrimənlər burda bidar olmasın.

*1979*

***

Ey şux, sənin axır ki, işin dərd-sər oldu,
Eşqin mənə can vermədi, əsl kədər oldu.

Ardınca süründüm, mənə rəhm eyləmədin sən,
Hicrin məni yandırdı, bu ömrüm hədər oldu.

Gəldin görüşə son dəfə sən mehri vəfasız,
Heyfa ki, o çox qovğalı, çox müxtəsər oldu.

Bilməm kimə verdin könül, ey mahi-münəvvər,
Kim sevdi səni, kim görəsən bəxtəvər oldu?

Atdın məni zindanə, başım çəkdi bəlalər,
Eşqində o əğyar deyəsən bəhrəvər oldu.

Gəzdim də gülüstanı, dolandım gecə-gündüz,
Həmdəm mənə nə gül, nə də bir neylüfər oldu.

Səbr et, Zəkəriyyə, hələ hicranına ram ol,
Qoy söyləməsinlər, o cünundan betər oldu.

*1979*

***

Dünyada, gülüm, sən kimi bir mah ola bilməz,
Eşq aləminə sən kimi bir şah ola bilməz.

Dünyada məhəbbətdi verən aşiqə ilham,
Eşq əhlinə ondan uca bir xah ola bilməz.

Biganə nədir, eşq onu bilməz bu cahanda,
Məzmununa, mənasına agah ola bilməz.

Sənsiz nə qədər ah çəkirəm mən gecə-gündüz,
Zənn eyləyirəm kimsədə bu ah ola bilməz.

Olmazsa vəfası gözəlin aşiqi-zarə,
Ömründə o dilbər belə islah ola bilməz.

Min-min gözəlin əhdi-vəfasın görürəm mən,
Heç Kəbələr içrə belə dərgah ola bilməz.

Sən səbr elə, insafa gələr bir gün o mahin,
Hər şey, Zəkəriyya, belə nagah ola bilməz.

*1979*

***

Bu əda ilə, gülüm, aləmi yandırma görək,
Aşiqi-zarini gəl bir də utandırma, görək.

Şanədən zülfünü süz, qoyma tuta ay üzünü,
Biz bu hüsnü duyuruq, sən gəl inandırma, görək.

Ehtiyac yoxdur əgər Şəms, Qəmər gəlməsə də,
Sən ki varsan, gözəlim,gəl bunu andırma görək.

Gəl şəfəqlərlə isit qəlbimizi, könlümüzü,
Bu səadət selini an da dayandırma,görək.

Qanırıq, dərk edirik sənsiz həyat puç şeydir,
Ehtiyac yoxdu, gülüm, sən bunu qandırma, görək.

Eşq həyatdır, mələyim, sən də ki dərk eyləmisən,
Rəhm qıl, gəl Zəkəriyyanı usandırma, görək.

*1979*

***

Çoxlu yalvardım o mahə, vəslə imkan olmadı,
Üz çevirdi eşqdən, əsla pərişan olmadı.

Dərdi-eşq ilə dolandım şəmsiz pərvanə tək,
Ortalıqda sülh yaratmaqçün, bir insan olmadı.

Rəngi-ruyimdə xəzan oldu, saraldım günbəgün,
Kim deyər ki, böylə bir hal ilə əfqan olmadı?

Günlərim keçdi əzab ilə, batıb bəhri-qəmə,
Hər təbibə söylədim, dərdimə dərman olmadı.

Dərdimin dərmanını ölməkdə axtardım hər an,
Çox təəssüf ki, mənim qətlimə fərman olmadı.

Zəkəriyya, səhv edirsən, gəl ölüm axtarma sən,
Sən kimi şəxsiyyətə onda bu ürfan olmadı.

*1979*

***

Atdın odlara məni, gör necə namərd oldun,
Olmadın sən mənə yar, sən mənə bir dərd oldun.

Sadiqəm eşqimə hər gündə deyərdin, zalım!
İndi söylə, neçin əğyarə gedib bənd oldun?

Səni mən əsla vəfasızlara bənzətməzdim,
Bilmədim ki, nə üçün sən belə pürfənd oldun.

Aşiqə zəhri içirtdin, ona rəhm eyləmədin,
Dil verib, yar olub əğyarə şəkər, qənd oldun.

Eşq mülkümdə vəfasızlara yer verməmişəm,
Bivəfasan, gözəlim, özgəyə bilbənd oldun.

Sirrini sən Zəkəriyyayə açıb söyləmədin,
Belə bir karın ilə sən deyəsən mərd oldun.

*1979*

***

İndi mən hiss edirəm, dəhrdə hicran nə imiş,
Hicr ilə həmdəm olan, mehrili insan nə imiş.

Leyli hicr ilə cünun eylədi Qeysi, bilirəm,
Hicri təsvir eləyən bir belə dastan nə imiş?

Hicridən dəhşətə düşmüşdü Züleyxa da yəqin,
Saldı zindanə baxın, Yusifi-Kənan nə imiş?

Şeyxi-Sənan da buraxmışdı müsəlmanlığını,
Eşq olan yerdə ya tərsa, ya müsəlman nə imiş?

Vəsl şövqilə Kuhistanı dolandı Fərhad,
Belə hicranə səbəb, Xosrovi-Xuban nə imiş?

Əsli ardınca Kərəm düşsə də hicran oldu,
Eşqi zindanə salan bir belə dövran nə imiş?

Ayrı düşmüşdüsə bülbül güli-rənasından,
Olmasa bülbüli-şeydası gülüstan nə imiş?

Zəkəriyya, yenə səbr eylə görək, çarə olar,
Sən də tab eyləməsən, səndəki ürfan nə imiş?

*1979*

***

Gözlər yenə o afəti-dövranə sataşdı,
Rəngim qızarıb, qəlb döyünüb, nitq dolaşdı.

Baxdım ki, o mahin duyum əhvalını mən də,
Gördüm ki, məni dərk eləmir, qəlbi də daşdı.

Mən istədim izhar eləyim dərdimi, ancaq,
O məndən uzaqlaşdı, gedib xarə yanaşdı.

Gün keçdi, zaman keçdi, təsadüf yenə gəldi,
Gördüm ki, onun qəlbi sınıq, gözləri yaşdı.

Sordum onun əhvalını mən, göz yaşı tökdü,
Bildim ki, ürək sözlə dolu, qəlbi təlaşdı.

Sən ədl ilə dindir, Zəkəriyya, o şad olsun,
Əğyar ilə gördün necə mərdliklə savaşdı?!

*1979*

***

Sataşdı gözlərim yenə o mahi-tələtə,
Min dəfə şükr qıldım mən, o zəngin təbiətə.

Xəlq eyləyib bu dəhrdə min mahi-ruxilər,
Sahib edibdi hər birini, yüz təravətə.

Dərk eylədikcə gündə mən mahi-parəmi,
Qibtə edir könül, ey dil, böylə qüdrətə.

Dərk eyləmirəm dəhrdə hicran nədir, ey dil,
Tale nə yaxşı yetirdi məni böylə qismətə.

Eşqin fəzasını seyr edirəm bali-pərimlə,
Tez-tez o yar ilə girirəm mehri-ülfətə.

Şad ol, Zəkəriyya, gedir aləmdə söhbətin,
Tab etmədi bu halə, rəqib getdi rəhmətə.

*1979*

***

Nə xoş dəqiqədi, ya rəbb, gəldi yar təcəllayə,
Bu hüsnü ilə bənzəyir, o Həzrəti İsayə.

Baxanda surətinə gözlərim şəfəqləndi,
Guya ki, Şəms gəlib, bizim bu dünyayə.

Ürək döyüntüsü artdı, qan axdı surətimə,
Könül təlatümə gəldi, şükr qıldı sevdayə.

Dilim tutuldu, ona tapmadım deyəm bir söz,
Durub tamaşa edirdim, o nurlu tərsayə.

Behiştdəyəm, elə bildim o baqi-rizvandır,
Guya ki, seyr edirəm, çıxmışam tamaşayə.

Uzat dəqiqələri, Xudaya, adilsən!
Tərəhhüm eylə, bizim yazıq Zəkəriyyayə.

*1979*

***

Əhsən o xaliqə, ey gül, xəlq edib səni,
Xəlq etməsin deyin, belə bir özgə kimsəni.

Dəyişmərəm səni, ey şux, min məleykəyə,
Çox da behiştdir onların o əsl məskəni.

Hər guşədə sən varsan, o cənnətdi mənimçün,
Tale gətirdi, verdi mənə böylə töhfəni.

Şah olmusan əzəldən o ziba gözəllərə,
Şurilə fəth eyləmisən böylə zirvəni.

Üzün günəş kimi, ey şux, can verir mənə,
Nuş eylədikcə ondan axan nurlu şöləni.

Səcdə edir bütün aləm gündə qibləyə,
Döndərmisən şimala mənimçün sən ki qibləni.

Yad eyləmirsən Zəkəriyyanı bir dəfə də,
Ya rədd-vəsl elə, ya kim qıl aşina məni.

*1979*

***

Mən fəxr edirəm, sən kimi bir mahizərim var,
Səhv etmirəm, eşq əhlisən ondan xəbərim var.

Hicr atəşinə yanmağımın baisi sənsən,
Yerdən göyədək bil ki, qəmim var, kədərim var.

Söylə, keçəcəkdir nə qədər böylə həyatım?
El içrə mənim də hələ çox dərdi-sərim var.

Eşqinlə fəzalarda uçur ruhi-rəvanım,
Bir bülbülü-şeyda kimi bax, balu-pərim var.

Xoş gəlmədi gülzari-behiştdə mənə bir gül,
Bu dəhrdə, çünki mənim öz neylufərim var.

Gəl şad elə könlün, Zəkəriyyadı, yazıqdır,
Qoy söyləsin hər yerdə o Şəmsim, Qəmərim var.

*1979*

***

Ey gül, insaf elə, gəl bağa gülüstan olsun,
Eşqə gir bülbül ilə, bir yeni dastan olsun.

Şadlıq et, min cürə güllər sənə təzim etsin,
Xar sənin böylə məqaminlə pərişan olsun.

Möhnəti, dərdi, qəmi, hicri salın zindanə,
Bülbül öz eşqinə hər gündə nigahban olsun.

Sizdən alsın bütün ilhamını əbnayi-bəşər,
Küllü-aləm bürünüb eşqə çıraqban olsun.

Həmdəm ol bülbülə eşq ilə sevin bir-birini,
Eşq uzun ömrünüzə yaxşıca dərman olsun.

Bülbülə bəxş elə ilhamı özün şami-səhər,
Bülbül ilhamə gəlib əsl qəzəlxan olsun.

Zəkəriyya da bu halə desin, əhsən, hər gün,
Onun hər an coşan ilhamına, imkan olsun.

*1979*

***

İstərəm mən, gözəlim, daima tənnaz olasan,
Son bahar görməyəsən, sən əbədi yaz olasan.

Min gülün, min çiçəyin ətrini əfşan edəsən,
Həm çəmənzar ola, sən orda sərəfraz olasan.

Açasan min cürə gül baqi-gülüstanında,
Dəmbədəm şölələnib, dəhrdə solmaz olasan.

Öyünən hüsnü ilə çoxlu gözəllər vardır,
Sən gərək onlara nisbətdə mələknaz olasan.

Biədalarla gəzib ülfətə sən girməyəsən,
Böylə insanlar arasında gərək az olasan.

Zəkəriyya da bu halınla sənin fəxr eləsin,
Arzu eylər ki, o da daima mümtaz olasan.

*1979*

***

Nə gözəl gündü bu gün, yar təcəllayə gəlib,
Zənn qıldım belə bir əzm ilə, qovğayə gəlib.

Üzdə, gözlərdə, dodaqlarda təbəssüm duydum,
Elə bil bədr Qəmər, indicə dünyayə gəlib.

Mən qədər varsa sevən söylə, bu dünyadə onu,
Kim onun eşqi ilə, bax, belə sevdayə gəlib?

Mən də səhradayəm əlbət, belə bir zənn etdim,
Məcnun ardınca bu Leyli, nədi, səhrayə gəlib?

Cana gəlmiş deyəsən hicr evinin küncündə,
Elə bil özgə vüqar ilə müsəllayə gəlib.

Min cəfa eşq yolunda çəkər o mən bilirəm,
Bütün ömründə cəfalar Zəkəriyyayə gəlib.

*1979*

***

Sevgim o mahə əsər etmədi, əsl kədər oldu,
Qəmlərlə keçən günlərim, axır hədər oldu.

Çəkdim nə qədər cur-cəfa duymadı əsla,
Ömrüm çürüdü, cəhdlərim bisəmər oldu.

Ətrafına pərvanə kimi gündə dolandım,
O mahi-münəvvər elə bil bixəbər oldu.

Gördüm dolanır xar ilə gülzar çəməndə,
Huş çıxdı başımdan, ürəyim birtəhər oldu.

Tənha buraxıb xarı uzaqlaşdı vüqarla,
Çox şükr elədim ki, bu görüş müxtəsər oldu.

Mehr eyləmədi xarə verib rədd cavabın,
Bu əzmlə ol şux necə əhli-hünər oldu.

Şad ol, Zəkəriyya, o rəqib düşdü nəzərdən,
Axır ki, batıb bəhri-qəmə, dərbədər oldu.

*1979*

***

Seçmədim sinəni, ey şux, mən o gün mərmərdən,
Saçların rayihəsi fərq eləmir ənbərdən.

Surətin bəhsə girib xar eləyib lalələri,
Seçmir heç kəs inanırsan, üzünü məxmərdən?

Yaşasam hicr ilə gər, çoxlu cəfalar çəksəm,
Səni görcək, gözəlim, can qurtarır qəmlərdən.

Eşq kaşanəmizin bülbülü-şeydası mənəm,
Doymaram böylə bir əhvala olan şakərdən.

Mənə ilham verən, ey mahi-münəvvər, sənsən,
Almam ilhamımı hər leylisifət dilbərdən.

Zəkəriyya sənə gördün nə qədər yalvardı,
Urəyin bərkdi sənin, lap elə bil qənbərdən.

*1979*

***

Əhdini pozdu o məh, eşq evi viran oldu,
Başıma uçdu səmalar, ürəyim qan oldu.

Toplanıb dövrəmə min dərdi-qəmin dəstələri,
Göz yaşım çaytək axıb bir böyük ümman oldu.

Puç olub vəsli-ümidim, gündüzüm tar olmuş,
Mənə həmdəm kəsilən hər gecə hicran oldu.

Qüssələr, qəmlər ilə qəlbimi bimar elədi,
Qüssələr, qəmlər ilə dərdimə dərman oldu.

Duymayan eşqin əzabın nə bilir aləmdə?
Can verən aşiqi-zar, eşqinə qurban oldu.

Dedilər xar ilə ülfətdədir o mahi-nigar,
Qəlbini xarə verib, xarə nigahban oldu.

Səbr elə sən, Zəkəriyya, tək deyilsən, onu bil,
Sənə də dəhrdə qismət hələ əfğan oldu.

*1979*

***

Gözəlim, hicrin ilə ömrümü tar eyləmisən,
Bu qədər qəmləri sən, könlümə yar eyləmisən.

Sığmayırdım bu böyük aləmə mən fəxrimdən,
Kainatı, gözəlim, başıma dar eyləmisən.

Bu gözəllik ki sənin var, ona gəl qəsd eləmə,
Mən eşitdim, mələyim, xarı da xar eyləmisən.

Çox pərişan görüb əhvalını mən zənn etdim,
Tutduğun işlər üçün, yoxsa ki, ar eyləmisən?

Hər gözəl olsa vəfadar, o mələkzibadır,
Bivəfalıq nədir o kəndinə kar eyləmisən.

Görməsəydim səni bir an ürəyim partlardı,
Harda şam, bilmirəm heç, harda nahar eyləmisən.

Səbrə sirdaş olub, ey gül, Zəkəriyya daim,
Sən peşiman olacaqsan, nə qərar eyləmisən?

*1979*

***

Get-get, gözəlim, get sənə haqq yar olsun,
İndi də qoy sənə həmdəm hələ əğyar olsun.

Verməərəm özgəyə bu sirri vəfasızsan sən,
Nəyə lazım bilib əğyar da xəbərdar olsun.

Mənə çox cövr elədin, sən ki, cəfakar oldun,
İndi də qoy sənə əğyar cəfakar olsun.

Qəlbi qan, ömrümü puç, cismimi bimar elədin,
İndi də qoy sənin eşqində o bimar olsun.

Get gülüm, get gözəlim, sevməyirəm indi səni,
Gərək hər sevgi əsasında bir ilqar olsun.

Sən deyildinmi deyən dəhrdə xoşbəxtəm mən?
İndi kimdirsə vəfasız, ona qoy ar olsun.

Get-get gözəlim, bir də məni yad eləmə,
Zəkəriyya nə üçün, söylə, vəfadar olsun?!

*1979*

***

Bir özgə yarə deyil, etibara möhtacam,
Sözündə sadiq olan, nazlı yara möhtacam.

Zəmanəmizdə bizim bivəfa gözəllər var,
Mən onları bilirəm, qəmküsara möhtacam.

İftixar etməmişəm yar - vəfadar ilə mən,
İndi, ey dil, belə bir iftixara möhtacam.

Hər vəfasız gözələ mən ki könül verməmişəm,
El içrə aqil olan, şəhriyara möhtacam.

Vəfalı, nazlı yarın intizarı nəşəlidir,
Açıq deyim, belə bir intizara möhtacam.

Gərəkdi sevgi olan yerdə bir qərar olsun,
Məhəbbət aşiqiyəm, bir qərara möhtacam.

Qəm ilə qüssə mənə çoxmu aşina olacaq?
Sənin kimi, Zəkəriyya, gülüzara möhtacam.

*1979*

***

Həyat özü, gözəlim, inan, məhəbbətdir,
Məhəbbət aşiqə, ey gül, bir ülvi məbəddir.

Məhəbbət ilə ömr sürən həməsrimiz çoxdur,
Bizim bu dəhrdə onlar yəqin ki, xoşbəxtdir.

Fəzayi-eşqdə pərvaz edirsə hər aqil,
Onun həyatı inan, daima təravətdir.

Hər saxta ülfətə qoy uymasın gül üzlü sənəm,
O yaxşı bilməlidir ki, bu bir siyasətdir.

İnanmaq olmaz, əzizim, gədaların sözünə,
O nitqlərdəki sözlər çürük bir adətdir.

Pozarsa əhdini bir mahi-rux həyatında,
Onun əməlləri, ey dil, böyük qəbahətdir.

Vəfalıdır Zəkəriyya, bunu bilir aləm,
Sübuta ehtiyacı olmayan həqiqətdir.

*1979*

***

İstərəm sevdiciyim afəti-dövran olsun,
Bütün aləm də onun hüsnünə heyran olsun.

Eşq kaşanəmizi qərq eləyək gül-çiçəyə,
Onun hər küncü dönüb əsl gülüstan olsun.

Nuş edək gül-çiçəyin ətrini biz şam-səhər,
Bizə ilham verən hər gündə bu bustan olsun.

Şura gəlsin sarı bülbül bu çəmənzar içrə,
Şövq ilə nəğmə desin, əsl qəzəlxan olsun.

İftixar hissi ilə fəxr edək əhvalımıza,
Mən yara, yar da mənə hər gecə mehman olsun.

Can deyək, can eşidək, şən keçirək ömrümzü,
Mehrimiz aləmi-nasutiyə şayan olsun.

Zəkəriyya da çıxıb dərd-qəmin günhündən,
O da öz xalqı ilə bəxtəvər insan olsun.

*1979*

***

Məni bu hala salan dəhrdə canan oldu,
Min cürə dərd, qəm ilə gündə gəzən can oldu.

Yatmadı sübhə qədər hər gecə bu xəstə könül,
Gecələr sübhə qədər hər işim əfğan oldu.

Xanəmizdən çevirərkən üzün o mahizərim,
Elə bildim ki, o gün qətlimə fərman oldu.

Vəsl tərk etdi bizim sevgili kaşanəmizi,
Mənə həmdəm elə bundan sora hicran oldu.

Bülbülü-zarlərə mən də qoşuldum hər gün,
Dərdimiz gündə coşub aləmə şayan oldu.

Dedilər yarın olub həmdəmi xarın, ey dil,
Buna bais nə bilim, bəlkə də şeytan oldu.

Etmə qibtə, Zəkəriyyə, mənə sən bihudə,
Mənim əhvalıma əğyar da pərişan oldu.

*1979*

***

Get, get ey mahizərim, səndə ədalət görmədim,
Sevgi gördüm səndə mən, ancaq hərarət görmədim!

Min dəfə yalvardım, ey şux, guş qıl əhvalıma,
Hər cürə cur-cəfa gördüm, dəyanət görmədim!

İstiqamət tapmayırdım bəhr-qəm içrə özüm,
Mən ki səndən min cəfa gördüm, hidayət görmədim!

Sadiqəm eşqimdə mən, yüz dəfə izhar eylədim,
Verdiyin hər bir tələbdə, bir siyasət görmədim!

Tərk edərkən xənəmi “elani-hərb" etdin mənə,
Surətində kin, qəzəb gördüm, inayət görmədim!

Xaki-payində süründüm, mərhəmət göstərmədin,
Böylə karımda sənə, min bir xəyanət görmədim!

Xəstəyəm, mən çəkirəm surətinin həsrətini,
Səndə bir daş qəlb gördüm mən, inayət görmədim!

Zəkəriyya, taleyindən küs, sən qeyridən küsmə,
Mehriban gördüm səni, səndə ədavət görmədim!

*1979*

***

Sən kimin, ey nazənin, söylə, gülü-rənasısan?
Hansı xoşbəxtin səadət mülkünün sultanısan?

Qibtə eylər lalələr, güllər sənin ətvarına,
Sən bütün güllər, çiçəklər nəslinin əlasısan.

Düşmüsən Xurşid ilə hər gün rəqabət meylinə,
Hansı bir dəryayi-eşqin bilmirəm mənasısan?

Kim səni idrak edərsə, min şəfa kəsb eyləyər,
Çünki insan oğlunun hər dərdinin dərmanısan.

Dəhrdə min-min gözəllər görmüşəm gül çöhrəli,
Sən gözəllər bağının lap gözləri şəhlasısan.

Eşq şövqilə gözəllər xanələr inşa edir,
Ehtimal ki, sən də bir eşq evinin memarısan.

Zəkəriyya surətindən aldı ilham, ey pəri!
Bildi ki, eşqində sadiq sevginin mehmanısan.

*1979*

***

Əndəlibin halını sordum şikayət söylədi,
Xar mənim eşqimdə etmişdir xəyanət, söylədi.

Batmışam bəhri-qəmə, bir bülbüli-zarəm dedi,
Yoxdu bir kəs ki, mənə olsun hidayət, söylədi.

Bir şirin ülfət mənə yad oldu bu nasutidə,
Etmədi yarım mənə zərrə inayət, söylədi.

Çoxlu söz verdi mənə, mən etibarın görmədim,
Sözlərində yox imiş heç bir dəyanət, söylədi.

Mən inandım, etibar etdim onun rəftarına,
Bilmədim, öz könlümü verdim əmanət, söylədi.

Kəsmirəm umidimi, bu ömrün öz sevdası var,
O peşiman oldu bəlkə indi şayət, söylədi.

Huşiyar ol, Zəkəriyyə, düşmə qəm dəryasına,
Çəkirəm sübhə qədər hər gün qiyamət, söylədi.

*1979*

***

Ey könül, dinlə görək, bülbülü-nalan oxuyur,
Bir soruş dərdi nədir ki, bu qəzəlxan oxuyur?

Əndəlibə de ki, ey şux, belə əfğan eləmə,
Sən bizim ölkədəsən, burda hər insan oxuyur.

Öyünür hüsnü ilə gündə gülüstan əhli,
Orda bülbül gülə, gül bülbülə meydan oxuyur.

Qarışır bülbülün avazına gül zümzüməsi,
Elə bil şura gəlib güllü-gülüstan oxuyur.

O qədər nəşəlidir bülbülün avazı bu gün,
Qurbanın "Şuruna" guya ki, bizim Xan oxuyur.

Zəkəriyya, onu bil, sən nə qədər xoşbəxtsən,
Yaşadan bizləri azadə bu dövran oxuyur.

*1979*

***

Qəmu-hicranə, ey dil, mən əzəldən mehriban oldum!
Gəlib keçdikcə günlər, həftələr, mən bağrı qan oldum!

Eşitdikcə olubdur xarə həmdəm sevgili yarım,
Özüm öz qəlbimə bir bəd xəbərlə tərcüman oldum!

Mən hiss etdim ki, o mahi-münəvvər pürvüqar olmuş,
O gündən qəlbimə min şübhə doldu, bədgüman oldum!

Fəzayi-eşqdən düşdüm, qəmin dəryasına cumdum,
Bütün qəmlər düzüldü dövrəmə, mən rəhnüman oldum!

Deyil bihudə göz yaşım axıb dəryaya dönmüşdür,
Bu az dərddirmi yarın gözlərindən mən nihan oldum!

Dəmadəm ağladım, yandım, bir qəmküsarım olmadı,
Saraldım ağladıqca günbəgün, mən qəsdi-can oldum!

Zəkəriyya, səbr elə gəl, sən muradın səbrdən gözlə,
Gələr bir gün deyərsən dostuna, mən kamiran oldum!

*1980*

***

Sən bu kaşanəmizə, afəti-can, xoş gəldin!
Sənə qurban oldum, ey ruhi-rəvan, xoş gəldin!

Sənin hicrin məni bimar eləmişdi daim,
Bu qədəmlər mənə can verdi inan, xoş gəldin!

Gözlərim nurla şəfəqləndi, ürək şad oldu,
Rəqs edir indi damarlardakı qan, xoş gəldin!

Badə min dəfə desəm hüsnünə bu azdı hələ,
Bu gözəlliklə, sən ey şahi-cahan, xoş gəldin!

Xanəmiz indi dönüb əsl behişt oldu bizim,
Oxu bülbül kimi, ey qönçə dəhan, xoş gəldin!

Mənə aç sirrini, ey şux, belə xoş əhvalın,
Qalmasın qoy ürəyimdə bu nihan, xoş gəldin!

Gündə yüz dəfə əgər şükr-səna etsə də, bil,
Yenə azdır Zəkəriyyaya inan, xoş gəldin!

*1980*



***

O məhliqayə, könül, əzəldən mehriban oldum!
O baqi-gülşənə mən, əsl bağiban oldum!

Bu gülşənin ətrini çiçəklərindən alıb,
Mən hər gülə, çiçəyə gündə pasiban oldum!

Səadət ilə bu ömrün yolu işıqlandı,
Onunla fəxr eləyirdim ki, rəhnüman oldum!

Hücumi-ləşkəri-qəm fəzayi-eşqə dolub,
Dönüb bu gündən elə sahibi-fəqan oldum!

Qəmu-cəfalərə yar oldum intizar ilə,
Bu dərdi qəlbimə mən gündə tərcüman oldum!

Dəmadəm ağladım, ey dil, vüsal uzaqlandı,
Bu karım ilə özüm əsl qəsdi-can oldum!

Qəm etmə sən, Zəkəriyyə, vüsalı gözlə görək,
Gələr vəslin, deyərsən - mən də kamiran oldum!

*1980*

***

Gəl, gəl ey şux, mən sənin hicranına tab etmirəm!
Hər gecə sübhə qədər bir mərrə mən xab etmirəm!

Aşiqi-zarin bəlalar çəkdiyin hər kəs bilir,
Təkcə mən eşqin səfasın gündə icab etmirəm!

Yadıma düşdükcə hər gün o qılınc tək qaşların,
Od tutur, qəlbim yanır hər ayı mehrab etmirəm!

Sən ki yoxsan, üstümə qəmlər hücum etməkdədir,
Gəlsə min mahiliqa, onları əshab etmirəm!

Baqi qalmışdırsa qəlbində məhəbbətdən əsər,
Qayıdıb bir də gələrsən, mən ki şitab etmirəm!

Zəkəriyyə, qoy bu qəmlər həmdəm olsun qəlbinə,
Çox olarsa min dəfə, mən zülm hesab etmirəm!

*1980*

***

Bu əda ilə, gülüm, sən məni bimar elədin,
Baxmadın gözlərimə, onda məni xar elədin.

Var gözəllər ki, həya mülkünə də xan olmuş,
Bəlkə sən də, mələyim, baxmaq üçün ar elədin?

Qoy doyunca baxım o gözlərə, ey mahi-zərim,
Nə üçün qəlbimi qəm mülkünə sən yar elədin?

Nə qədər görməmiş idim səni, eşqim yox idi,
Səni görcək, gözəlim, sən bu yoxu var elədin.

Mənə mərmər bədənin, lalə üzün, şəhdi ləbin,
Hüsnünü bunlar ilə dəhrdə izhar elədin.

İstədim busə ləbindən, onu sən rədd elədin,
Sən mənimlə nə üçün bəs belə rəftar elədin?

Sən mələksən dedim, ey şux, yaranıbsan nurdan,
Naz ilə sən nə üçün fikrimi insan elədin?

Zəkəriyya baxıb hər gün sənə ilhamə gəlir,
Onu sən eşqə salıb qəlbinə dildar elədin.

*1980*

***

Gözəlim, gəl bizə sən, hər gecə biz aya baxaq,
Seyr edək bağçamızı, nazlı Sürəyyaya baxaq.

Oxşayaq bir-birinin əllərini həzz ilə biz,
Qəlbimizdə alışan şövqlü sevdaya baxaq.

Oturaq yan-yana biz, vəsli basıb bağrımıza,
Gül budağında ötən, bülbülü-şeydaya baxaq.

Döndərək bağçamızı biz də o rizvan bağına,
O mələklərlə gəzən sən gözü şəhlaya baxaq.

Nə gözəlsən, mələyim, bir büti-ziba kimisən,
Sən ki varsan, nəyə lazımdı Sürəyyaya baxaq?

Oturub gəl düşünək, ən yaxın amalımızı,
Əhdi-peyman eləyək, şövq ilə fərdaya baxaq.

Dərk edək eşqimizi, dəhrdə ülviyyət ilə,
Dönüb hərdən də bu xoşbəxt Zəkəriyyaya baxaq.

*1980*

***

İstərəm sevdiciyim xurşidi-dövran olsun,
Üzü gül, qaşı hilal, gözləri mərcan olsun.

Gözləri qaşlar ilə rəqs eləsin ruyində,
Cəmi aləm yığışıb hüsnünə heyran olsun.

Sevgi ülviyyətinə bağlasın öz peymanın,
Eşqinə daima hər yerdə nigahban olsun.

Gül fidanlarda açan qönçələrə yar olsun,
Gül kimi rayihəsi aləmə şayan olsun.

Can desin, can da eşitsin bu gözəl aləmdə,
Belə bir halı görən xar da pərişan olsun.

Qibtə etsin ona Leyla, Züleyxa da müdam,
Eşq mülkündə dönüb Xosrovi-xuban olsun.

Alıb ilhamını ondan Zəkəriyya hər gün,
Eşq şövqilə o da qəzəlxan olsun.

*1980*

***

Gəzirdik eşq bağını biz könül, bəşaşət ilə,
Nə qəm, nə qüssə duyurduq o nazlı afət ilə.

Bu eşq aləmi ilham verirdi gündə bizə,
Keçirdi günlərimiz şövq ilə, zərafət ilə.

Səciyyə olmasa da bir məzacə malik idik,
Sevirdik bir-birini ülvi bir hərarət ilə.

Fəzayi-eşqdə sanki iki ürək bir idi,
Çıxırdıq burda seyrə şövq ilə, səadət ilə.

Ötürdü bülbülümüz qönçələr budağında,
Gəzirdik güllər arasında böyük məhəbbət ilə.

Əsib xəzan yeli bir gün saraldı güllərimiz,
Üz-üzə gəldim onda cövr ilə, fəlakət ilə.

Fəraq odu əritdi məni, şəm tək bu aləmdə,
Gəldi qəm leşkəri fövq-fövq cəsarət ilə.

Mən ağladım gecə-gündüz vüsalə çatmadı əl,
Rəqib görmüş idi öz işin məharət ilə.

Rəqibə eyləmə qibtə, Zəkəriyya, tezdir,
Onu da tərk edəcəkdir, o afət adət ilə.

*1980*

***

Gör nə xoşbəxtəm ki, ya rəbb, yar məni yad eylədi,
Mehr vəslin təzədən şövq ilə bünyad eylədi.

Mən sual verdim o mahə söhbət açsın sirrdən,
Göz yaşın sel tək axıtdı, onda fəryal eylədi.

Şəm tək yandım dedi, pərvanəsiz şam-səhər,
Hicr səhrası mənim ömrümə ifsad eylədi.

Xaneyi-hicrə çəkildim söhbət etdim əql ilə,
Əqlimin məhsuludur, o mənə irşad eylədi.

Dəhrdə mən tək dolandıqca diyari-hicrdə,
Böylə hal bir çoxların ardımca səyyad eylədi.

Anladım ki, əhdimi pozmuş xəyanət etmişəm,
Mənliyimdə bax bu namərdlik bir iftad eylədi.

Eylədim qət ki, gəlib dərgahına üzr istəyim,
Böylə əzmim qəlbimi min dərddən azad eylədi.

Etiraf etdikcə gördüm o həqiqət söyləyir,
Böylə bir əhvalı ilə könlümü şad eylədi.

Söylədim, ey məh, inandım ki, sədaqət əhlisən,
Zəkəriyyanı bu halın əsl Fərhad eylədi.

*1980*

***

Gördüm səni röyada mən, ey mahi-tələtim,
Artıb sənə min dəfə o əvvəlki rəğbətim.

Gördüm gülür gözlərin, ey mahi-mənzərim,
Qıpqırmızı qızardı mənim onda surətim.

Bir xaneyi-rizvanda qərar eyləmiş idin,
Baxdıqca artırdı mənim ruhi sərvətim.

Verdim qərar gəlim, öpüm o şümşəd əlləri,
Söhbət zamanıdır, ona var indi fürsətim.

Gəlmişdi dəvətə yanıma huri - bir nəfər,
Bilsən bu hal ilə necə artmışdı qüdrətim.

Şükr eylədim o mahi-xeyirxahə onda mən,
Vardır sənə dedim, ey şux, küllü minnətim.

Əzm eylədim, Zəkəriyyə, ona yaxınlaşım,
Hətta belə röyada da puç oldu niyyətim.

*1980*

***

Kim sevsə bir afət, ona sultan ola dilməz,
Cəhd etsə bütün sevgisi, ehsan ola bilməz.

Kim sevgi nədir anlamayırsa bu cahanda,
Qafil olar, ondan hələ insan ola bilməz.

Bir qəlbdə Vətən sevgisi yoxdursa, bu haqdır,
O kimsədə heç zərrəcə vicdan ola bilməz.

Min fitnə-fəsad ilə əgər ömr edə insan,
Dar gündə Vətən mülkünə qurban ola bilməz.

Zəhr ilə suvarsa sözünün hər birin aşiq,
Bu dəhrdə eşqilə firavan ola bilməz.

Bir nakəsə min dəfə xeyirxahlıq edilsə,
Bu xəstəyə ondan biri dərman ola bilməz.

Yağmazsa yağış, əssə külək hansı diyara,
Ömründə o torpaqda gülüstan ola bilməz.

Kim xalqına xitmət eləsə bil, Zəkəriyya,
Bu əsl şərəfdir, ona nöqsan ola bilməz.

*1980*

***

İnsan olana eşq, məhəbbət də gərəkdir,
Gülmək də, sevinmək də, zərafət də gərəkdir.

Sevmək hələ eşq əhlinə azdır bu cahanda,
Hər sevgi zəminində, hərarət də gərəkdir.

Cəzb eylədikcə bir-birini gündə sevənlər,
Bu cazibədarlıqda səadət də gərəkdir.

Mənası nədir sevgisiz ömrün bu həyatda?
Dünyamızı idrakə, fərasət də gərəkdir.

Hər qəlbdə əgər sevgi-məhəbbət yuva qursa,
O şəxsə, cəsarətlə dəyanət də gərəkdir.

Sevsin gərək hər kəs Vətənin, xalqını daim,
Hər kəs ki sevir, onda şərafət də gərəkdir.

Xalqın gücü dağlar qoparır öz təməlindən,
Hər zəhmət üçün xalqıma hörmət də gərəkdir.

Zəhmət bizim insanlığa xasdır, bu həyatdır.
Hər zəhmətə qatlaşmağa, adət də gərəkdir.

Şad ol, Zəkəriyya, belə bir ölkə sənindir,
Bu ölkədə hər bir kəsə xoş bəxt də gərəkdir.

*1980*

***

Ey dil, mənə bəxt söylədi bidar olacaqsan,
Bir eşq kəməndinə giriftar olacaqsan.

Qismət olacaqdır sənə bir baqi-gülüstan,
Hər qönçəsinə gündə xiridar olacaqsan.

Ay, Gün doğacaq bəxtinə bu baqi-behiştdə,
Bu xoşbəxtliyə sən əsl səbəbkar olacaqsan.

Fəxr ilə gəzib gündə bu gülzar-çəməndə,
Hər bir gülə, hər sünbülə dildar olacaqsan.

Ətrin duyaraq məst olacaqsan bu çəməndə,
İlhamə gəlib günbəgün huşyar olacaqsan.

Bülbül kimi cəh-cəh vuracaqsan gecə-gündüz,
Hər bir gülə, hər bir çiçəyə yar olacaqsan.

Ya rəbb, Zəkəriyyanı yetir böylə məqamə,
Zənnimcə buna sən də tərəfdar olacaqsan.

*1980*

***

Ey dil, bizə xas olmayan adət də bəladır,
Bu adəti təşkil edən niyyət də bəladır.

İnsan gərək öz zəhmətini xalqına versin,
Xalqın nəfinə olmayan zəhmət də bəladır.

Hörmət qazanar xalqlara hər aqili-dövran,
Az qiymətə malik olan hörmət də bəladır.

Kim meyl eləsə dəhrdə sərvət yığa daim,
Zəhmət ilə toplanmayan sərvət də bəladır.

Ziddir bunu aləm də bilir zəhmətə rüşvət,
Kim getsə bu yolla ona rüşvət də bəladır.

Şöhrət qazanar aqil əgər xalq ilə getsə,
Xalqından uzaqlardakı şöhrət də bəladır.

Zəhmətsiz əgər qərq ola ziynət dənizində,
Axır, belə insanlara ziynət də bəladır.

Olma, Zəkəriyya, belə nadanlar ilə dost,
Onlarla bizim dövrdə söhbət də bəladır.

*1980*

***

Gözəlim, bir buyurub sən bizə gəlsən, nə olar?
Şövq ilə söhbət edib, şövq ilə gülsən, nə olar?

Mən yazıq da eşidim bir dəfə canan səsini,
Soruşub halımı, əhvalımı bilsən, nə olar?

Xəstəyəm, eşq fəzasında müsibət çəkirəm,
Bu qəmi, möhnəti bir anlığa silsən, nə olar?

Surəti-məhvəşini xalqlara dərman dedilər,
Bizə bir dəfə gəlib sən də görünsən, nə olar?

Xaki-payində süründum gecə-gündüz, gördün,
Girib eşq aləminə sən də sürünsən, nə olar?

Mən ki eşqimdə vəfasızlığa yol verməmişəm,
Bu vəfa şöləsinə sən də bürünsən, nə olar?

Zəkəriyyadı, deyirsən qoy əziyyət çəksin,
Mənə bir özgə əda ilə gülürsən, nə olar?

*1980*

***

Ey şux, pozulubdur deyəsən vəz qərarın,
Hiss eyləyirəm yoxdur o əvvəlki vüqarın.

Yüz dəfə dedim sevgiyə biganəlik etmə,
Hər gün dönəcək qanə sənin şam-naharın.

Təkid elədim getmə bu gülzari-çəməndən,
Bir qönçəsi idin belə şöhrətli baharın.

Sən yadına sal, günləri xoşbəxt keçirirdik,
Hərdən bizə gəl, düşsə bizim səmtə güzarın.

Pis keçməz inan, günlərimiz bir də qovuşsaq,
Gör onda nə bərbad olacaqdır halı xarın?

Xoşbəxt olacaqdır Zəkəriyya yenə, ey şux,
Daim çəkəcək nazını sən nazlı nigarın.

*1980*

***

Üzümə gün işığın gündə salırsan, gözəlim!
Canımı sən bu qədər nazla alırsan, gözəlim!

Ehtiyac hiss edirəm bir oturub söhbət edək,
Qəlbimin tellərini sözlə çalırsan, gözəlim!

Səni idrak elədikcə bu könül şurə gəlir,
Nəzərimdə günü-gündən ucalırsan, gözəlim!

Səni eşq aləminə dəvət edərkən hər gün,
Çəkilib daxilinə fikrə dalırsan, gözəlim!

Səndə var eşqi-məhəbbət, bunu çoxdan bilirəm,
Hicr evin məskən edəndə salırsan, gözəlim!

Nə qədər zülm eləsən də Zəkəriyyə dözəcək,
Bunu hər kəsdən özün yaxşı bilirsən, gözəlim!

*1981*

***

Sevdayi-eşqin gətirdi məni canə, ağlama!
Sən ağladıqca dönür ürəyim qanə, ağlama!

Leyla kimi vəfasız olmusan, ey güli-rəna,
Məcnun kimi düşərəm mən də biyabanə, ağlama!

Yad elədikcə vəsl dəmlərini artır həsrətim,
İnsan təfəkkür əhlidir dözər hicranə, ağlama!

Getmə bu yol xətalıdır, sənə yüz dəfə söylədim,
Həsrət qoydun məni o baqi-gülüstanə, ağlama!

Getdin, eşitmədin məni, ey mahi-tələtim,
Dərdi yaratdın özün, çarə qıl dərmanə, ağlama!

Yaxşı yadında saxla, gözəlim, eşqsiz ürək,
Bənzər dəhrdə dənsiz dəyirmanə, ağlama!

Məhəbbəti itirmisən, ey şux, hüsnün ki səndədir,
Utanma, çək o qara zülfünə sən şanə, ağlama!

Bivəfadan can qurtarmaq bir səadətdir, könül,
Şükr et, Zəkəriyya, sən də bu dövranə, ağlama!

*1981*

***

Ey gül, sən olan fəsl-bahar olmaya bilməz!
Şah olduğun aləmdə də xar olmaya bilməz!

Bülbül sənin eşqinlə qəzəlxan olur, ey gül!
Qəlbində ona eşq odu yar olmaya bilməz!

Pərvanə kimi dövranə hər gün dolananda,
Gördükdə o xarı günü tar olmaya bilməz!

Sevsə iki can bir-birini ülviyyət ilə,
Can-cana o gündən də nisar olmaya bilməz!

Dil versə rəqibə gül əgər öz çəmənində,
Qəmlərlə rəfiq bülbüli-zar olmaya bilməz!

Üzmə, Zəkəriyya, yenə qəmlər dənizində,
Səbr et, o gözəl gün, yenə var olmaya bilməz!

*1981*

***

Sənə can-can dedim, ey baqi-gülüstan, nə dedin?
Olaram gündə sənin canına qurban, nə dedin?

Dönmədin sən dediyindən, mənə divan tutdun,
Sənə min dəfə dedim mən, gözəl insan, nə dedin?

Hərdən insafə gəlib rəhm eləmək istərdin,
Dəyişib fikrini, ey xosrovi-xuban, nə dedin?

Sənə mən aşiq olandan bəri qəlbim alışıb,
Ürəyimdə yaranıb güclücə tufan, nə dedin?

Zəkəriyya sənin ardınca inan, gəlməyəcək,
Son sözu söylə görək, zülfü pərişan, nə dedin?

*1981*

***

Ey dil, o sərv qamətə baxmaq iftixardır!
O sərv kölgəsində ömr eləyən bəxtiyardır!

Saldı məni o afəti-can min bəlalərə,
Nəsibim mənim indi ancaq intizardır!

Hicran odunda mən yanıram gündə biqərar,
Mən bilmədim o nazənin belə bietibardır!

Təsəvvür eylədikcə keçən macəraları,
Guya xəyal içində nəsib gülüzardır!

Xəstə bir qəlbə təbib olsa məhəbbət hər gün,
Ruhə onun verdiyi dərman - etibardır!

Tərk eyləmir vücudimi curi-cəfalarım,
Bu curi-cəfalar mələkdən yadigardır!

Qəm eyləmə, Zəkəriyya, gözlə xoş günü,
Verən hər insana xoş gün, nazlı yardır!

*1981*

***

Çəkirəm həsrətini gör neçə vaxtdır, gözəlim,
Öylə bədhal oluram, çatmır o dərgaha əlim.

Eyləsəm bir də ziyarət o gözəl surətini,
Deyərəm ki, bu həyatda hələ xoşdur əməlim.

Səni hər dəfə xəyal içrə görəndə, ey şux,
Uçuram sanki səmadə, açılır bali-pərim.

Özümü eşq fəzasında duyub hiss edirəm,
Belə bir halıma bais yenə sənsən, mələyim.

O zaman ki, gəzirəm hicr diyarın sənsiz,
Dəstə-dəstə yığışır dövrəmə dərdim, kədərim.

Tək deyilsən, Zəkəriyya, belə bəd halın ilə,
Sən kimi bəxti qaradan, demə yoxdur xəbərim.

*1981*

***

Bülbül, gülə sən hər gecə mehman olacaqsan!
Sən həm ona yar, həm də ona can olacaqsan!

Min dəfə dedim mən sənə, dərk eyləmədin sən,
Cəhd eyləməsən sonra peşiman olacaqsan!

Pərvanə kimi min dəfə ətrafına dövr et,
Zənn etmə ki, bihudə qəzəlxan olacaqsan!

Yüz dürlü çiçəklər ona təzim edir hər gün,
Sən eşqin ilə əhli-gülüstan olacaqsan!

Bir baqi-behiştdir özü, Xaqanisi güldür,
Bu baqi-behiştə hələ Rizvan olacaqsan!

Hər fəsl bahardır, Zəkəriyya, bizim eldə,
Bu eldə inanmam ki, pərişan olacaqsan!

*1981*

***

Kimdir edən mənə, ya rəbb, nalə, bilmirəm!
Salan məni kimdir belə bəd halə, bilmirəm!

Tale nədir ki, ona heç mən inanmadım,
İndi neçin gedim inanım falə, bilmirəm?!

Yoxdur ədalətin bilirəm, rəhm qılmadın,
Qoymusan həsrət məni bir xalə, bilmirəm!

Min bir əzaba sən ki düçar eylədin məni,
Sən qoymadın qovuşam o vüsalə, bilmirəm!

Xoş gəlmədi bəlkə sənə bu xalqa xidmətim,
Ram olmadım yoxsa o münvalə, bilmirəm!

Xəlq eyləmiş məni xalqım, mən onunlayam,
Mən istərəmmi düşəm pis halə, bilmirəm!

Hər kimsədən umma ədalət, Zəkəriyya!
Adil bir gözəli yadə sal, bilmirəm!

*1981*

***

Hər anda çatır dadıma hər yerdə təfəkkür!
İdraka gəlir duyğu, təsəvvürdə təfəkkür!

Min hadisə dövr eyləsə bir mehvərə rəğmən,
Səbr eylə deyir, səbr ilə hər anda təfəkkür!

Hər gün dalıram fikrə düşündükcə məqamı,
Bir qayə ilə çarə qılır dərdə təfəkkür!

Kəssə yolumu maneələr dəstəsi birdən,
Edər cərəyan dost kimi bu sərdə təfəkkür!

Vardırsa şüur şəxsdə mərdanələr içrə,
Bu haqqdı verir məsləhət hər mərdə təfəkkür!

Rəhbərliyi kim hissdən alsa bu cahanda,
Örtər üzünə şübhəli bir pərdə təfəkkür!

Yol göstərə hər şəxsə gərək əqli, şüuru,
Şəxsiyyətə şöhrət gətirər bir də təfəkkür!

Rəhbər Zəkəriyyaya həmişə şüar olmuş,
Olmaz bu həqiqətdi ki, bifərdə təfəkkür!

*1981*

***

İstərəm, ey nazənin, ömründə tufan olmasın!
Qismətin vəsl olsun hər an, lakin hicran olmasın!

Ruzigarın sülh ilə keçsin dəmadəm dəhrdə,
İnqilab olsun vüsalda, ancaq hədyan olmasın!

Min səmər versin bağın, bağçan sənin hər fəsldə,
Bağıbanın bəhrəvər olduqca hədyan olmasın!

Eşqiniz hər gün yayılsın aləmə olsun nihan,
Dərk qılsın külli aləm, dəhrə pünhan olmasın!

Qönçələr, güllər açılsın baqi-rizvanında bax,
Bülbüli-zarında özgə bir qəzəlxan olmasın!

Oynasın gözdə, dodaqlarda təbəssüm dəmbədəm,
Qara zülfə min siqəl vur, qoy pərişan olmasın!

Zəkəriyya vəsl ilə hər haləti seyr eyləsin,
İftixar hissilə ömr etsin, peşiman olmasın!

*1981*

***

Ey mələk, sevdim səni, sən bundan agah olmadın!
Başqasıyçün xurşid oldun, sən mənə mah olmadın!

Mən sənə hər gün ibadət eylədim şami-səhər,
Bəndən oldum mən sənin, sən mənə Allah olmadın!

Eylərəm xidmət dedim olduqca ömrüm dəhrdə,
Olmadın razı bu xahə, sən xeyirxah olmadın!

Kəbə sandım eşqini, min səcdə etdim gündə mən,
Böylə bir Məbəd üçün sən isə dərgah olmadın!

Söylə bir bədxahı sevdin, anlamır sevda nədir,
Sən bunu dərk eylədin də, ondan ikrah olmadın!

Zəkəriyya şövq ilə sevdi səni, dil vermədin,
Böylə bir eşq əhlinə sən, mayeyi-xah olmadın!

*1981*

***

Gəl gülüm, gəl gözəlim, gəl ki məni şad edəsən!
Gəl ki, bu qəm evini bilmərrə bərbad edəsən!

Nə olar, seyrə çıxıb gəşt eləyən dəmlərdə,
Bir bizim səmtə gəlib bizləri də yad edəsən!

O mübarək qədəminlə bizim astanamıza,
Bir ayaq basmaq ilə bizləri dilşad edəsən!

Elə billik ki, bizim xanəyə Leyla gəlmiş,
Bəlkə əzminlə yazıq Məcnunu Fərhad edəsən!

Eşq kaşanəsi çoxdan uçulub qəlbimdə,
Gəl gülüm, bəlkə ona sən yeni bünyad edəsən!

Şairəm, aşiqəm öz xalqımın amalına mən,
İstəməzdim belə bir fikrimi ifsad edəsən!

Verəcəksən Zəkəriyyəyə özün bali-pəri,
İstərəm bir dəfəlik qüssədən azad edəsən!

*1981*

***

Eşq əhlinə, ey şux, belə divan eləməzlər,
Eşq əhli olanlar belə üsyan eləməzlər.

Sevgi elə bir hissdir, aləm yaradır bil,
Sevgi olan aləmdə, gülüm, qan eləməzlər.

Eşq mülkünə sahib olan hər kəsdə əda var,
Eşq mülkünə hər nakəsi xaqan eləməzlər.

Gözlər verir aşiqlərə min dürlü təsəlli,
Gözlər kimi bir neməti giryan eləməzlər.

Aşiqdi verən eşqinə canın da, tənin də,
Aşiqi atıb xarı firavan eləməzlər.

Eşq əhlinə hər yanda dəva vəsldir, ey mah,
Eşq əhlinə hicran ilə dərman eləməzlər.

Gördün Zəkəriyyanı yanır eşq narına,
Qəm mülkünə bu aşiqi sultan eləməzlər.

*1981*

***

Saraldı gözlərimin rişəsi aman, ölürəm!
Diyari hicrdə mən verdim imtahan, ölürəm!

Mənimlə əhdini pozdu, o Məhliqa getdi,
Bu sirri aləmə mən eylədim nihan, ölürəm!

Xəyali-yar ilə min-min bəlayə həmdəm olub,
Çəmən çiçəkləri tək bağrım oldu qan, ölürəm!

Hücum-leşkəri qəm vermədi aman bir an,
Bu qəmlər içrə özüm qurdum aşiyan, ölürəm!

Kəsildi səbri-qərarım, vüsalə çatmadı əl,
Bu sirri mən özümə eylədim bəyan, ölürəm!

Diyari-möhnətə düşdüm, çox qüssələr çəkdim,
Bu qüssələrdi edən halımı yaman, ölürəm!

Əzablarilə köçür Zəkəriyya dünyadan,
Gəl indi son görüşə, yar-mehriban, ölürəm!

*1981*

***

Sevirəm mən səni, ey şux, sənə izhar olsun,
Qoyma gəl, aşiqin eşqində sənin xar olsun.

Sevirəm, sevgi həyatdır, onu sən bilməlisən,
Aşiqi qoyma sənin eşqində günü tar olsun.

Eşq sevdası yaman dərddi, bu bir sirr deyil,
Gərək aşiqlər arasında bir ilqar olsun.

Eşqdən nəşət edir vəsl, gülüm, dünyada,
Gəl sevək bir-birini, eşq bizə yar olsun.

Sənə sidq ilə tutub üz deyirəm, Mahizərim,
Eşqimiz min çiçək açsın, əbədi var olsun.

Eşq açarıdı xoşbəxtliyin, ey Mahi-liqa,
Gərək eşq əhli özü, eşqə xiridar olsun.

Zəkəriyya çox əzablar çəkib agah ol sən,
İstəməzdim bu gözəl aləm ona dar olsun.

*1982*

***

Göstər üzünü, dərk edim o surəti mahi,
Göstər sənə nə bəxş eləmişdirsə İlahi.

Göstər görüm o gözləri, şəhladımı onlar?
Kipriklərinin, qaşlarının varmı günahı?

Lalələrə meydan oxuyurmu o yanaqlar?
Kimdir görüm o baqi-behiştin yeni şahı?

Söylə, görüm idrakə sığır qönçə dodaqlar?
Dərk etmək üçün gəl mənə göstər belə rahı.

Gül, gül ki açılsın sədəfin pərdeyi-alı,
Mən and verirəm, salma yerə gəl belə xahı.

Bir dön bari, ey şux, görüm ətvarını mən də,
Oldun Zəkəriyyanın özün bəlkə pənahı.

*1982*



***

Qəm eyləmə, gözəlim, bu macəralərdən,
Gərək səni qurtaram söhbəti-gədalərdən.

Rəqibə vermərəm imkan səninlə söhbət edə,
Görəndə nifrətim artır bu biədalərdən.

Kamal ilə özünü özün də dərk etsən,
Canın da birdəfəlik qurtarar xətalərdən.

El içrə ilham alır hər gözəl həyatından,
Ona elin dediyi xoş nəva sədalərdən.

Bu baqi-gülşənə gəldin min işvə, min naz ilə,
Gözəllər ilham alır səndəki ədalərdən.

Tutmaz səni Zəkəriyya bərabər hər şuxə,
O hifz edər səni bil, hər cürə qadalərdən.

*1982*

***

O nazənin ki gedib xarə etibar eləmiş,
Bəs indi kim dedi ki, bu işdən o ar eləmiş?

Rəqibə bağlayan eşqin o nazənin özüdür,
Batanda bəhri-qəmə bəs neçin qubar eləmiş?

Mənə bu cür cəfanı özgələr deyil eləyən,
Bu zülmü yarına o sevgili nigar eləmiş.

Biz indi bülbül ilə fəqanə bir gəlirik,
O Mahirux da qəmin meyvəsin nübar eləmiş.

Ona bu işdə onun hissi hakim olmuşdur,
Pis onda oldu ki, yar özün də xar eləmiş.

Vəsl şövqilə gedib, batdı qəmu hicranə,
Sevgili yarını öz qəlbinə əğyar eləmiş.

Təsəvvür etmədi xar gözləyir bəlalar onu,
Bu macəra dedilər xarə xeyli kar eləmiş.

Qəm eyləmə, Zəkəriyya, rəqib də xar oldu,
Sevinmiş idi ki, o, yaxşı bir şikar eləmiş.

*1982*

***

Can-can dedim sənə, ey şux, sən inanmadın,
Mən yandım eşq atəşinə, sənsə yanmadın.

Verdin rəqibə könlünü sən çox da şövq ilə,
Bu eşq macərasında, gülüm,sən qazanmadın.

Saldın ayaqlar altına sən şan-şərafəti,
Güldürdün elləri özünə, heç utanmadın.

Yadındadırmı sənə etdiyim nəsihətlər?
Guya ki, yatmış idin, heç oyanmadın.

Çox səslədim ardınca sənin getmə, dön geri,
Sidq ilə yüksələn bu səsə, sən dayanmadın.

İndi cəfalərə tab eylə hicr evində sən,
Bu mehriban nəsihəti sən doğru sanmadın.

Bilmə Zəkəriyyanı günahkar bu işdə gəl,
Könlünü rəqibə verdiyini sən ki danmadın.

*1982*

***

Sən mənə dost dedin, etdin yamanlıq, bilmədim!
Çəkdim eşqindən sənin, çox nigaranlıq, bilmədim!

Öylə məst olmuşdum eşqindən dəli-divanətək,
Hər bu cür rəftarını mən, bir nadanlıq bilmədim!

Fəxr edirdim sevmişəm bir dilbəri-rənanı mən,
Öylə iş tutdun günüm oldu qaranlıq, bilmədim!

Səbr ilə dözdüm, mənə güldü bütün biganələr,
Qopdu tufan, yağdı qar, çökdü dumanlıq, bilmədim!

Qan axıtdım gözlərimdən, yatmadım sübhə qədər,
Mən bunu ömrümdə, ey şux, qəhramanlıq bilmədim!

Bu qədər cur-cəfa verdin mənə, tab eylədim,
Heç birində zərrəcə bir mehribanlıq bilmədim!

Zəkəriyya, ağlama, səbrin tükənməzdir sənin,
Mən sənin eşqində heç bir laməkanlıq bilmədim!

*1982*

***

Ey mələk, axtardığın ülvi məhəbbət məndədir!
Eşqdən dastan açan, hər dürlü söhbət məndədir!

Sevirəm mən səni, ey şux, iftixar hissi ilə,
Eşq məndə, şövq məndə, şan-şöhrət məndədir!

Vəsl üçün xəlq olmusan, gəl çəkmə hicran dərdini,
Hicr evində ömr sürməkçün dəyanət məndədir!

Xarə mən yalvarmaram, o rəhm qılmaz aşiqə,
Xarə xar olmaqda, ey məh bil, cəsarət məndədir!

Sevgidən ilham alan hər bir həyat xoşbəxt olur,
Sevgidən ilhamə gəlməkdə bu hacət məndədir!

Eşq mülkündə səadət sadiq olmaqdan doğar,
Gəl inan, ey Mahirux, böylə sədaqət məndədir!

Zəkəriyyanı gədalərlə bərabər tutma sən,
Sanma gəl, ey Mahizər, dünyada qəflət məndədir!

*1982*

***

Bağçamızda dedim, ey şux, gül, reyhan olacaq,
Ötəcək şur ilə bülbül, ona mehman olacaq!

Eşqimiz parlayacaq Gün kimi bu aləmdə
Düşəcək dillərə, dildən-dilə dastan oacaq!

Kimə xoş gəlməsə bu eşq-məhəbbət, ey gül,
Barəmizdə onun hər bir sözü böhtan olacaq!

Bu məhəbbət, gözəlim, yüksələcək Ayə qədər,
Alacaq güc o Günəşdən, Yerə əfşan olacaq!

Çatacaqdır bu məhəbbət hələ səyyarələrə,
Xurşidə sirdaş olub, göylərə sultan olacaq!

Sevəcək bir-birini hər bəşər övladı inan,
Hər kəsin dərdinə bu hal ilə dərman olacaq!

Bəşəriyyət quracaqdır yeni bir aləm, bil,
Belə bir aləmin hər küncü gülüstan olacaq!

Alıb ilham Zəkəriyyə da bu xoş günlərdən,
Gələcək cuşə, Vətəndə o qəzəlxan olacaq!

*1982*

***

Məni fəraq oduna yandıran, gülüm, sənsən,
Mənə cəfalar edən, eyləyən zülm, sənsən.

Düşmən mənə sən olduğunu bilmədim əsla,
Bu sirri söylə mənə, ey mələk, bilim sənsən.

Görəndə surətini sanki lal olur nitqim,
Ürəkdə zərbələr artır, elə bil dilim sənsən.

Vətən qədər sevirəm mən səni bu aləmdə,
Cəsarət ilə deyərdim: obam, elim, sənsən.

Zaman axır su kimi, mən bu hala laqeydəm,
Xəyalda sən yaşayarkən, ayım, ilim sənsən.

Xəyalda xoş keçir halım, bu da kifayətdir,
Həyatda, ey güli-rəna, təkcə nisgilim sənsən.

Sən gəl, Zəkəriyya, belə bir cövrə də tab et,
Bütün cəfalara dözməkdə bir həlim sənsən.

*1982*

***

Möhnətə düşdün sən, ey dil, səbr elə tənnaz ilə,
Hər zimistan ömrünü itmam edər bir yaz ilə.

Sən ki xoşbəxtsən, sənin var böylə bir cəmiyyətin,
Arif ol, rəbt etmə ömrü dəhrdə qanmaz ilə.

Gözləmə Xurşidi doğsun bəxtinə xoş hal ilə,
Mərdə xoşbəxtlik gələr bu dəhrdə Gülnaz ilə.

Sən mənə göstər bir insan zor ilə xoşbəxt olub,
Heç kəs öz bəxtin firavan eyləməz əxxaz ilə.

Aqil ol, sev xalqını, ancaq ona xidmət elə,
Sev bu xalqın bir pərisin, ömr elə mümtaz ilə.

Hər kəsin ver qiymətin, bax mərifət, rəftarına,
Kim bərabər tutmuş, ey dil, qarğanı şahbaz ilə.

*1982*

***

Ey gözəl, çox yer gəzib, çox mahi-taban görmüşəm!
Eşq zövqündən yanan, çox nazənin can görmüşəm!

Qan tökən didələrindən eşq səhrasında, bil,
Eşqdən nakam olan, yüzlərlə insan görmüşəm!

Görmüşəm güllər aran cəh-cəh vuran bülbülləri,
Xari-mənfuri bu dəmdə, çox pərişan görmüşəm!

Min gül açmış, min çiçək baqi-gülüstanında bax,
Əndəbili mən bu mənada, qəzəlxan görmüşəm!

Görmüşəm bülbül çıxıb baqi-gülüstan seyrinə,
Min əda ilə gəzərkən, misl sultan görmüşəm!

Xarə həmdəm min gözəllər görmüşəm mən dəhrdə,
Bu geniş dünyanı mən, üşşaqa zindan görmüşəm!

Görmədim gəzdimsə də sən tək gözəl bir nazənin,
Zəkəriyyanı sənin eşqində, biryan görmüşəm!

*1982*

***

Eşqimizdə, ey gözəl, cəhd et ki, hicran olmasın!
Mehri-ülfətlə sədaqət olsun, üsyan olmasın!

Şad olaq ömrün gülüstanında həm sən, həm də mən,
Əsməsin bəd-xəzan, fəsli-zimistan olmasın!

Daima doğsun günəşin, aydın fəzalar nuş edək,
Gəzdirən min bir belə zimnində tufan olmasın!

Bağçamızda dəstə-dəstə güllər açsın hər səhər,
Gül budağında coşan, bülbül pərişan olmasın!

Məclisin qursun gülüstanında bülbül hər zaman,
Xarə bu minval ilə, əmr etmək asan olmasın!

Aşiqə məşuqəsi olsun vəfadar dəhrdə,
İstərəm ki, heç bir aşiq misli-Kənan olmasın!

Zəkəriyyadır çəkən hər cür əzablar, bilginən,
Sən də zülm et, qoy ona ah etmək imkan olmasın!

*1982*

***

Ey qönçə dəhan, püstə dodaq, afəti-dövran,
Varmı görəsən dünyada bir sən kimi insan?

Eşqim o qara gözlərədir, ey güli-rəna,
Ver, razı deyilsənsə əgər qətlimə fərman!

Min bir gül açıbdır sənin o baqi-behiştin,
Bəhsə girişib nərgiz ilə sünbülü-reyhan.

Güllər də, çiçəklər də öyür hüsnünü hər an,
Ətvarı, təravətləri hər xəstəyə dərman.

Hüsnün necə məst eyləmiş övzai-cahanı,
Tez-tez üzünə pərdə çəkər gündə gülüstan.

Mən aşiqəm, ey gül, sənə bir özgə sözüm yox,
Sən gəl Zəkəriyyanı götür bağına bağban.

*1982*

***

Bir badi-səba gördüm, o yardan xəbər eylər,
Hicranə düşübdür dedi, sənsiz kədər eylər!

Çox gəzdim o mahin sorağın vermədi heç kəs,
Mən qorxuram o afəti-can bir xətər eylər!

Biganəyə dil versə xətalar yaradar o,
Zindanə düşər, dəhrdə ömrün hədər eylər!

Adətdi gözəllərdə vəfa gözdədir, ey dil,
Göz sevsə, məhəbbət də könüldən səfər eylər!

Nakəslər ilə eyləsə ülfət, bu bəladır,
Aşiqə bu halət bilirəm, pis əsər eylər!

Eşqin şəfəqindən əgər o almasa ilham,
Boş qəlbinə bu dəhrdə zərlər zivər eylər!

Güllər də, çiçəklər də Günəşdən nur alırlar,
Xurşidə gözün yumsa, bunu neylüfər eylər!

Dil vermə vəfasızlara sən də, Zəkəriyya,
Adətdi, bu Afət səni ondan betər eylər!

*1982*

***

Hüquq verib sənə hüsnün ki, gündə naz edəsən,
Yox imiş insafın, ey şux, bu nazdan az edəsən!

O şux camalını nuş eyləmək nə müşküldür,
Məgər o mahi görmək üçün nəzir-niyaz edəsən?

Fəraqın üzdü məni, bilmirəm nə çarə qılım,
Bu qara günlərimi bəlkə sən bəyaz edəsən!

Neçin duman bürüsün bu xoş zamanda məni,
Bu bəd havanı indi sən gəlib ayaz edəsən!

Mən indi ömr edirəm son bahar fəzasında,
Tərəhhümə gəlib, ey şux, bu fəsli yaz edəsən!

Dərindi dərd-qəmim, halımı soran yoxdur,
Girib bu qəlb evinə onları dayaz edəsən!

Zəkəriyyadı bəxş eləyən sənə o ruhi-tənin,
Onunla şura gəlib nəğmələr avaz edəsən!

*1982*

***

O nazənin ki məni yandırır fərağında,
Gəzəm gərək gecə-gündüz onun sorağında.

O bir mələkdi yaranmış günəş ziyasından,
Mələklər ömr eləyir o behişt bağında.

Bu arzumdu mənim, görüm o mahizəri,
Doyunca söhbət edim onun otağında.

Səfavi-zövq ilə biz çıxaq hər axşamlar,
Gəzək məhəbbət ilə dəniz qırağında.

O bağın hüsnünə mən səcdə eylərəm gündə,
Dayanmışam elə bil mehriban qabağında.

Alaydım ilhamı kaş, o gül-çiçəklərdən,
Ötəydim həm gecələr gülün budağında.

Uçar-uçar, Zəkəriyyə qanad açar onda,
Qurar öz aşiyanını da bu eşq bağında.

*1982*

***

Gözləməzdim, gözəlim, eşqdə sən xar olasan!
Saxta bir eşqə düşən xarə xiridar olasan!

Nə gözəl xasiyyətin var, ona çoxdan bələdəm,
Bu da insafdımı sən bir xarə dildar olasan?!

Sənin eşqinlə yanan aqil adamlar çoxdur,
Gözləyirdim ki, olardan birinə yar olasan!

Eşq bir öylə əzabdır onu hər kəs bilməz,
Sən də bir eşqə düşərkən gərək huşyar olasan!

O gözəllik ki təbiət sənə vermiş, gözəlim,
Neçin izharı ilə dəhrdə bimar olasan?!

Mənim eşqim sənə can vermədi, bu eyb eləməz,
Arzumdur ki, bizim dəhrdə sən var olasan!

Zəkəriyya da sənin hüsnünü idrakə gəlir,
İstəməzdi ona qarşı belə qəddar olasan.

*1982*

***

Məni süzdün dünən, ey dilbəri-rəna, qaş altından,
Sənin eşqin çıxır guya deyərdim mən, daş altından.

O bir cüt qaşların, ey şux, üzündə bir məlahətdir,
Neçin bəs al yanaqlar parlasın daim yaş altından?

Siyah zülfün yayılmış dövrənə, tutmuşdur ətrafı,
Ki, guya rəxtxabından balınc düşmüş baş altından.

Kamali-mərifətin vardır sənin, ey məh, həqiqətdir,
Çıxır bir dürr gövhər tək sözün bir-bir diş altından.

Belin çox incədir, ey şux, verir ətvarına rövnəq,
Sanasan bir gümüş toqqa sıxıb bərk-bərk döş altından.

Zəkəriyyanın yanır qəlbi inan ki, vəsl-möhnətdən
Ki, guya odda yanmış bir kabab çıxmış şiş altından.

*1982*

***

Ey zülfü qara, qaşları xəm, ləbləri püstə,
Küsdün deyəsən məndən o gün, söylə, nə üstə?

Sevirəm mən səni, ey şux, buna agah ol sən,
Çəkirəm eşqin əzabın, ürəyimdir xəstə.

Nə dedim xətrinə dəydi, bu ki bir sirr deyil?
Səndəki səbri, gülüm, görməmişəm heç kəsdə.

De görüm hansı qəbahətlə səni incitdim?
Sənə min səcdə edim, bəxş eləyim güldəstə.

İnanırsan, gözəlim, təkcə sənin vurğununam,
Olmuşam küllü-vücudumla sənə vabəstə.

Rəhm qıl, qoy Zəkəriyya da sevinsin qəlbən,
Sənə xidmət edəcəkdir, onu bil, peyvəstə.

*1982*

***

Gördüm o qara qaşları vermişdi baş-başa,
Min dəfə tərif eyləmişəm dosta, yoldaşa.

Bir cüt qılınc təsəvvürü bəxş eyləmiş mənə,
Gözlər tutubdu qəmzəsini çoxlu daş-qaşa.

Varmı mələklər içrə onun misli, bilmirəm?
Qıymaz mahi-tələti qardaş da qardaşa.

Gördüm kamalı, hüsnü tamam öz yerindədir,
Açdım bu ürək sirrimi mən yara birbaşa.

Sevmiş səni Zəkəriyya söylədim ona,
Döndərmə qəlbini, ey şux, qara bir daşa.

*1982*

***

Xalq ara, ey dil, inan, mən çox gədalar görmüşəm,
Xalqına qəsd eyləyən, çoxlu ədalar görmüşəm!

Görmüşəm nakəsləri, haqdan, hüquqdan dəm vuran,
Cümləsində mən onun, saxta nidalar görmüşəm!

Çox gədalar görmüşəm, rüşvətpərəst, bimar pul,
Xalqa onlardan da mən, çoxlu qadalar görmüşəm!

Haqq yolunda çarpışan ellər, obalar az deyil,
Haqq yolunda can verən, yüz-yüz fədalar görmüşəm!

Xalqına xidmət edən min-min Vətən övladı var,
Onlara məxsus olan, min bir ədalar görmüşəm!

Yurdumuzda çox nəzər saldım pərizadələrə,
Bu gözəllər içrə mən, çox biədalar görmüşəm!

Zəkəriyya, sən uzaq gəz, vermə dil nakəslərə,
Səndə mən xalq eşqinə, çoxlu hüdalar görmüşəm!

*1982*

***

Gəl, gülüm, birgə girək baqi-gülüstanımıza,
Gül-çiçək ətirləri nuş ola öz canımıza.

Birgə biz dərk eləyək bağçamızın güllərini,
Bais olsun bu gözəllik bizim ilhamımıza.

Təməlindən dağıdaq hicr evinin xanələrin,
Vəsl şövqi, gözəlim, qoy yerisin qanımıza.

Nə qədər cövr eləsən tab edərəm ömrümdə,
Pozmaram əhdimizi and ola vicdanımıza.

Vəslə hörmət eləyək, xara verək hicranı,
Bu da azdır hələ, ey şux, bizim əğyarımıza.

Zəkəriyyanı eşit, bağına bağban olsun,
Həsəd eylər, gözəlim, cümlə cahan bağımıza.

*1982*

***

Sənə məndən nə demişdir, de görum əğyarım?
Küsmüsən, illətini aç mənə sən, ey yarım!

Bu qədər vermə əzab gəl mənə, ey badi-səba,
Gün-gündən inanırsan pozulur ətvarım!

Fikrim, amalım, xəyalım, ixtiyarım səndədir,
Təkcə sənsən mənim,ey Mahiliqa, sərdarım!

Mən bu dünyanı açıq göz ilə dərk eyləmişəm,
Sənsən insanlar arasında təkcə mənim meyarım!

Huşiyar ol, gözəlim, başqa xəyal eyləmə sən,
Sənsən ancaq bu gözəl dəhrdə öz dildarım!

Zəkəriyyadı, sözü ilə işi vəhdətdir,
Belə zənn etmə ki, puç oldu mənim ilqarım!

*1982*

***

Mənə səndən dedilər, Mahiliqa, şad oldum!
Belə bir hal ilə bilsən necə dilşad oldum!

Salaraq yada təsəvvürlərimə can verdim,
Özüm öz əqlimə çox səy ilə irşad oldum!

Yada düşdükcə o şux qamətin, ey badi-səba,
Çox təəssüf elədim, onda sənə yad oldum!

Hələ çox gec ki deyil, gəl qovuşaq arzumuza,
Razı olsan görəcəksən necə Fərhad oldum!

Gəl quraq dəhrdə biz şövq ilə kaşanəmizi,
Min dəfə şükr eləyim qüssədən azad oldum!

Zəkəriyya kimi çox səbr elədim aləmdə,
Bəxtimə doğdu günəş, eşqimə bünyad oldum!

*1982*

***

Olsam eşqindən sənin əhli biyaban, neylərəm?
Düşdüyüm dərdim mənim olsa bidərman, neylərəm?

Bivəfa çıxsan əgər, mən gündə fəryad eylərəm,
Eşq mülkündə sənin xar olsa xaqan, neylərəm?

Aqil olsan, sevgilim, artar məhəbbət sinədə,
Yansa bağrım atəş içrə, olsa biryan, neylərəm?

Arxayın ol məndən ey şux, mən vəfasız çıxmaram,
Sən vəfasız çıxsan, ey gül, sanma asan, neylərəm?

Eşq bir ülvi məhəbbətdir, dəmadəm yüksəlir,
Eşqsiz keçsə günüm misli-zimistan, neylərəm?

Zəkəriyyanı əgər atsan diyari-hicrə sən,
Solsa birdən eşqində baqi-gülüstan, neylərəm?

*1982*

***

Eşqimizdə nə bilim, bir belə tufan olacaq!
Uçacaq eşq evimiz, yer ilə yeksan olacaq!

Sən vəfasız çıxacaqsan nə biləydim, ey şux?
Xar sənin baqi-gülüstanına xaqan olacaq!

Bülbül uçmuş çəmənindən, gəzir avarə belə,
Kəsmir ağlım, qayıdıb bir də qəzəlxan olacaq!

Bu Vətən çoxlu pərizadələrin məskənidir,
Hansının busəsi eşq olmasa ehsan olacaq?

Aşiqin didələrindən axacaq qan yaşlar,
Vəsl üçün şami-səhər bolluca əfqan olacaq!

Salacaq yadına hər anda keçən günlərini,
Bu təsəvvürlər onun dərdinə dərman olacaq!

Zəkəriyya da xəyal aləmini seyr edəcək,
Gəzəcək şeir bağında, ona bağban olacaq!

*1982*

***

Dedilər xanəmiz, ey şux, gülüstan olacaq!
Eşqimiz dəhrdə dildən-dilə dastan olacaq!

Açacaq baqi-gülüstanımız min dürlü çiçək,
Hər çiçək eşqimizə ruh verəcək, can olacaq!

Ötəcək şövq ilə bülbül bu gülüstan içrə,
Hər gülün, hər çiçəyin busəsi ehsan olacaq!

Vəsl sultan olacaq eşq fəzasında bizə,
Onda zindanə düşən dəhrdə hicran olacaq!

İftixar hissi ilə şən keçəcək günlərimiz,
Ömrümüz eşq ilə hər gündə firavan olacaq!

Səndən ilham alacaqdır Zəkəriyya daim,
Sənin eşqinlə gəlib cuşə, qəzəlxan olacaq!

*1982*

***

Səhn-gülzarın, əzizim, eyləmiş lal məni,
Salacaqdır deyəsən dərdə bu əhval məni.

Düzmüsən xalları sən mahiliqayə, ey şux,
Necə bihuş eləmişdir bu qədər xal məni.

Qaşların tacı verib baş-başa gül çöhrəndə,
Çəkir ilhamə deyim, hər bu cür hilal məni.

Mənə Məcnun demə, ey gül, mənim öz karım var,
Xalqıma xidmət üçün cəzb edir amal məni.

Sevirəm, vəslə əlim çatmır, pərişanam mən,
Qorxuram pis hala salsın hələ iqbal məni.

Cəhd elə sən, Zəkəriyya, yarı gözdən qoyma,
Gəlsə insafə xəbərdar elə dərhal məni.

*1983*

***

Bəh-bəh nə vüqar ilə gəlir, Mahiparədir!
Kiprikləri ox, qaşı kaman, zülfü qarədir!

Bərq verir camalı onun, aləm işıqlanır,
Aydır, Günəşdir, bilmirəm o ya Sitarədir!

Ərz eylədim təbibə dünən, gör bu nazənin,
Hansı mərəz üzündən onun qəlbi qarədir?

Vücudi-alidə dedi mən, görmürəm mərəz,
Əlac, bu sirri bilməyə ancaq - istişarədir!

Eşqin fəzasına düşmüş, arzusu var,
Bircə əlac ona ancaq - isticarədir!

Vermə əzab, Zəkəriyya, sən də bu mahə,
Onsuz eşqin bəlasına düşmüş, qəlbi qarədir!

*1983*

***

Bülbüləm, gülşənə girdim, mənə rast xar oldu,
Güzarım sən demə, ey dil, yenə bazar oldu.

Eşq sevdası məni Məcnuna döndərmiş idi,
Elə bir dərdə tutuldum ki, günüm tar oldu.

Tapmadım Leylimi, səhraləri gəzdim, gəzdim,
Bəxtimin bədkətliyi qəlbimə əğyar oldu.

Vəsl xoşbəxtliyini duymadım aləmdə yenə,
Tazədən cövrü-cəfa gəldi, mənə yar oldu.

İnanıb özgəsinə dəhrdə səbr eyləmədin,
Hər işin müşgülə düşdü, mənə azar oldu.

Ey könül, səbr elə, səbr ilə çatarsan kamə,
Kim ki, səbr eyləmədi dəhrdə bimar oldu.

Zəkəriyya da düşüb bəhri-qəmə, çarə gəzir,
Onu bu dərdə salan sən demə, dostlar oldu.

*1983*

***

Səhn-gülzarda bülbül kimi əfğan elədim,
Xarı gördüm bu gülüstanda mən üsyan elədim.

Ağladım şam-səhər, çarəsi yoxdur dedilər,
Axıdıb göz yaşımı bir böyük ümman elədim.

Nə edim, bəxtim olubdur mənə əğyar, ey dil,
Belə əğyarı mən öz qəlbimə mehman elədim.

Gəlmədi şurə könül, çoxluğa təlqin etdim,
Külli miqdarda buna badələr ehsan elədim.

Zor ilə cəhd elədim eşqimə ilham olsun,
Bir pərizadəni də eşqimə sultan elədim.

Şövq-vəsli yenə baş tutmadı, nakam oldum,
Taleyin hökmünü mən ömrümə fərman elədim.

Sən də ram ol, Zəkəriyya,bu qədər curlərə,
Mən də bu curləri dərdimə dərman elədim.

*1983*

***

Dildara dedim eşqimi biganə eşitdi,
Vəsf eylədim o zülfünü mən, şanə eşitdi.

Məst oldum onun surətin idrakə gələndə,
Bu halımın izharını meyxanə eşitdi.

İnsanlığı təsvir elədim məclisə bir gün,
Biganə məhəl qoymadı, mərdanə eşitdi.

Sordum məgər insanlığı zərlər zivər eylər?
Zər dinmədi, bu sözləri zərxanə eşitdi.

Meyxanəni tərif elədi bir para nadan,
Bu saxta kəlamı yenə məstanə eşitdi.

Saf eşqini ülviyyətə qaldır, Zəkəriyya,
Bəlkə belə bir əzmini pərvanə eşitdi.

*1983*



***

Aldın qərari-səbrimi, ey mahi-tələtim,
Vardır hələ səninlə mənim xeyli söhbətim.

Saldın bəlayi-hicrə məni, rəhm qılmadın,
Dəmadəm artdı ürəkdə mənim qəmlə möhnətim.

Bəxtim apardı saldı məni min əziyyətə,
Kaş əzəldən olaydin barı qismətim.

Əhdim budur ki, ərz eləyim sirrimi sənə,
Sədheyf çıxıbdı qeybə mənim böylə fürsətim.

Bülbül gülündü, gül də bülbülün, aləm bilir,
Artır bu eşq vəhdətinə gündə rəğbətim.

Zəkəriyyə, qoy səni hər tuti dil aldatmasın,
Artar hər gün dəhrdə ərz eyləyərsən, qüdrətim.

*1984*

***

Üzünü nuş elədikcə, yadıma gülşən düşür,
Xurşidi dərk eylədikdə, yadıma şölən düşür.

Fələyin xilqəti-aləmdə böyük qüdrəti var,
Ona qiymət axtararkən, yadıma əhsən düşür.

Zəkavətin yaraşır o sərv qamətinə,
Nitqini guş eylədikcə, yadıma purfən düşür.

Hansı yolla əzmini hər gün fikirləşdikcə mən,
Hər bu cür fikr aləmində, yadıma rövşən düşür.

Zəkəriyyayam, sənə mehr eylərəm şami-səhər,
Yadıma hər gün səni ilk gördüyüm məskən düşür.

*1984*

***

Ey şux, sənə bənzər belə bir can ola bilməz.
Eşq aləminə sən kimi xaqan ola bilməz.

Bu hüsnün ilə naz elə aşiqləri yandır,
Naz etmək üçün bir belə dövran ola bilməz.

Əhsən deyək o xaliqə ki, xəlq edib səni,
İdrakına, ürfanına nöqsan ola bilməz.

Tavus kimi sən cilvələnib kəştə çıxanda,
Bu hüsnə müqabil, belə büstan ola bilməz.

Aldanma rəqibə səni min bir dilə tutsa,
Ömründə sənə əsl nigahban ola bilməz.

Eşqində xəta eyləsən, ey mahi-münəvvər,
Dərman belə bir dərdinə əfqan ola bilməz.

Sevmiş səni qəlbən Zəkəriyya, onu bil sən,
Bu sevgi fəzasında o nadan ola bilməz.

*1984*

***

Ey nazənin, sənə mən badi-səba demişəm!
Bu hüsnünə,gözəlim, bir də mərhəba demişəm!

Sənə bu hüsnü verəndən şikayətim yoxdur,
Ona həyatda təbiət və ya xuda demişəm!

Çiçəklərin açılıb, indi novbahar kimisən,
Açan o qönçələrə mən də gülsəba demişəm!

Gözəllər içrə sənin görmədim bərabərini,
Odur ki, mən sənə, ey şux, büti-ziba demişəm!

Məhəbbət aşiqisən, eşq şəhpərin vardır,
Bu rahə mahizəri mən də ki, huda demişəm!

Məni salıbdı kəməndə hörüklərin, ey şux,
Sənin o gül üzünə mahiliqa demişəm!

Sənə ürək sözu var bizim Zəkəriyyanın,
İnandırıb onu mən, səndə var əda, demişəm!

*1985*

***

Uçuldu dərd-qəm ilə mehriban olan könlüm!
Diyari-hicrdə hər gündə qan olan könlüm!

Bəlayi eşqə düşüb, çoxlu cövrlər çəkdim,
Bu cövrü-cəfalar üçün oldu aşiyan könlüm!

Sevirdim dilbərimi şövq ilə, hərarət ilə,
O dəmdə olmuş idi eşqə pasiban könlüm!

Yaşadıq hər ikimiz sanki baqi-rizvanda,
Qəm, küdurəti bilməzdi şadman könlüm!

Əsib xəzan yeli soldu bütün çiçəklərimiz,
Üzüldu yardan əlim, oldu natəvan könlüm!

O bir də gəlsə, Zəkəriyya, məbadə rəhm edəsən,
Onunla olmayacaq bir də həmzəban könlüm!

*1985*

***

Mənə bu dəhrdə, ey gül, mehriban olan sənsən,
Mənim bu mürğ dilimçün indi aşiyan sənsən.

Bir həmdəmim yox idi bu şən həyatda mənim,
Bu eşq mülkümə, ey şux, indi pasiban sənsən.

O sərv qamətinə iftixar ilə baxıram,
Bu xoş həyatda mənə gündə həmzəban sənsən.

Sənin gülər üzünə vurulmuşam, ey şux,
Bu eşq mülkünə bax, gündə xan olan sənsən.

Mənə həyat verən indi məhəbbətindi sənin,
Bizim bu sirrimizi eyləyən əyan sənsən.

Sevir səni Zəkəriyya, bu indi sirr deyil,
Verən onun vücudinə hər gündə can sənsən.

*1985*

***

Şakirəm, ey dilruba, nasutidə var olmusan,
Vəsl ilə dost olmusan hicranə əğyar olmusan.

Eşq zövqilə münəvvərdir vücudin, ey mələk,
Sən gözəllik mülkünə əslində sərdar olmusan.

Kimsə etməz şübhə, ey şux, sənin o idrakına,
Sən əzəldən bu gözəllər içrə huşyar olmusan.

Hüsn bağın addım-addım gəzmisən, gül dərmisən,
Açılan qönçələrə orda xiridar olmusan.

Tikmisən kaşaneyi-eşqi, onun memarısan,
Bu böyük eşq aləminə sən səbəbkar olmusan.

Zəkəriyya çox bəlalər çəkmiş idi eşqdən,
Çox şükür, ey nazənin, sən ki ona yar olmusan.

*1985*

***

Sevindi gözlərim, ey dil, görəndə mahizəri,
O anda məhv elədi başımda qəmi, kədəri.

Yaratdı gözlərimin hər birində bir heykəl,
Təbiətin belə bir qəribə şah əsəri.

Dedim ilahi, bu kimdir bəşər diyarında,
Gözəlliyin görəsən varmı bunda bir qədəri?

Bu huridir, ya mələkdir, enib səmalardan,
Və ya ki, cənnət əhlidir bizim sevimli pəri.

Dedim ona olaram sənin nigahbanın,
Toxunmaz onda sənə özgə bədnəzər xətəri.

Sevir səni Zəkəriyya, o Mahrux dedilər,
Açıldı balu-pərim alınca bu xəbəri.

*1985*

***

Gözlərin, ey şux, sənin aləmdə bir əfsanədir,
Sanki bir cüt nur salan aləm ara dürdanədir.

Əqlimi məst eylədi görcək, o bir cüt gözlərin,
Zənn qıldım sərxoşam, durduğum yer meyxanədir.

Eşq evin bərbad edib sən tərk qıldın xanəmi,
Eşqdən məhrum olan qəlb bilmədin viranədir.

And içib min dəfə etsən etiraf təqsirini,
İndi o eşqin evi bərbad olan kaşanədir.

Get gülüm, get gözəlim, mən indi hicran əhliyəm,
Dəstə-dəstə qəmlərim var, eşq evim qəmxanədir.

Zəkəriyya bir zaman şövq ilə sevmişdi səni,
Sən qılma, ey mələk, o indi də pərvanədir.

*1985*

***

Yanıram eşq oduna dəhrdə pərvanə kimi,
Düşmüşəm çöllərə Məcnun kimi, divanə kimi.

Nə qədər cövrü-cəfa verdi mənə öz yarım,
Dözdüm hər cövrünə mən, əzm ilə, mərdanə kimi.

O ipək telləri idrakə gəlib şad oldum,
Gəzdi zülf içrə bu barmaqlar, əcəb şanə kimi.

Olmasa qəlbdə əgər eşq, məhəbbət əsəri,
Olacaq sahibinə dünyası qəmxanə kimi.

Zəkəriyya, bu həqiqətdi ki sən arifsən,
Hər həqiqət sənə qoy gəlməsin əfsanə kimi.

*1985*

***

Gəl indi sən, gözəlim, çəkmə imtahanə məni,
Çox imtahanə çəkibdir bizim zəmanə məni.

Mənim bu xalqımın eşqi mənim amalımdır,
Mən etiqad edirəm, salma bədgümanə məni.

Görəndə fəxr edirəm xalqımın səadətini,
Bu iftixar aparır uca asimanə məni.

Bu yurdumuzda əgər olmasaydı nakəslər,
O dəmdə tərk eləyərdi qəmu-zəmanə məni.

Cəmiyyət eşqinə zəhmət çəkib yaratsa hamı,
Edərdi daima ömrümdə şadiyanə məni.

Bu ölkəmiz, Zəkəriyyə, behişt olar onda,
Döndərərdi belə hal tazədən cavanə məni.

*1986*

***

Etibar səndə imiş, afəti dövran oldun,
Aşiqə fərqi nədir, tərsa müsəlman oldun.

Sevəcəkdir səni aşiq kim olursan qəlbən,
Sən də sevsən, deyərəm eşqə nigahban oldun.

Sən də bülbül kimi gül bağçaların sakinisən,
Bülbülə yar olaraq gündə qəzəlxan oldun.

Eşq mülkün qoruyun aşiq ilə bir yerdə,
Eşidim aşiqinə hər gecə mehman oldun.

Eşq səhrasını şahbaz kimi seyr et, gözəlim,
Qoy desinlər belə bir mülkə Süleyman oldun.

Binəvadır Zəkəriyya, ona rəhmin gəlsin,
Hər bir aqil deyəcəkdir, ona sən can oldun.

*1986*

***

O nazlı yar ilə mən gündə ixtilat edirəm,
Bədnəzərdən qorxuram, ondan ehtiyat edirəm.

O bədnəzərlərin, ey dil, yaman bəlaları var,
Əzəl də eyləmiş idim, indi də dad edirəm.

Bu ixtilatımızın nə xoş məlahəti var,
Onunla qəmlərimi sinədən azad edirəm.

Qəribə cazibədardır, gülür üzü daim,
Mən onun hüsnü ilə qəlbi ittəhad edirəm.

Dübarə xəstəliyim cuşə gəlsə hər anda,
Onun şirin sözünü o dəmdə mən yad edirəm.

Qəm eyləmə, Zəkəriyya, ağıllıdır əməlin,
Dedin ki, dilbərimi ömrünə rəşad edirəm.

*1986*

***

Açılıb güllərin, ey şux, gülüstan kimisən,
Düşmüsən dillərə, bu dəhrdə dastan kimisən.

Gündə ilhamımı səndən alıram şam-səhər,
Bizim aləmdə, gülüm, sən də zərəfşan kimisən.

Eşq mülkündə qürur ilə gəzirsən hər gün,
O behişt bağçasına dəhrdə Rizvan kimisən.

Rəhm yoxdur, gözəlim, sən də yaman zalımsan,
Nə edək ki, bu cahan mülkünə sultan kimisən?

Vəslimə çatmır əlim, hər baxışın canlar alır,
Hansı bir bəxtəvərin dərdinə dərman kimisən?

Səcdə eylər, Zəkəriyya, sənə hər gün afət,
Belə laqeydliyin ilə ona mehman kimisən.

*1986*

***

Atmısan sən, gözəlim, atəşi-hicranə məni,
Salacaqsan deyəsən sən də biyabanə məni.

Bağladın bənd-bərəsin güllər açan bağçamızın,
Qoymadın əzm eləyəm baqi-gülüstanə məni.

Əsdi bir badi-xəzan, soldu bütün güllərimiz,
Aparıb badi-xəzan atdı zimistanə məni.

Mən də tənha dolanıb gül-çiçək axtardım özüm,
Eşqin, ey Mahiliqa, tulladı tufanə məni.

Görmədim səndə zərrə qədər ədalət, ey şux,
Belə əzmin elədi qəmlərə xaqanə məni.

Zəkəriyya yaşayır indi təsəvvürlər ilə,
Öylə zənn etmə bu dərd eylədi məstanə məni.

*1986*

***

Min çiçək gördüm, içində sən tək afət, görmədim,
Heç birində səndəki əla hərarət, görmədim.

Lalələr gördüm düzüb hinduləri rüxsarına,
Heç birində səndə toplanmış bir adət, görmədim.

Müxtəlif don gəzdirən şeyda qərənfillər də var,
Çox nəzər saldım, birində bir təravət, görmədim.

Ölkəmizdə nazənin çox-çox gözəllər görmüşəm,
Çoxlarında eşq gördüm mən, səxavət, görmədim.

Zəkəriyya, arif ol, bundan sonra səhv eyləmə,
Bir gözəl seçməkdə mən səndə fərasət, görmədim.

*1986*

***

İstəməzdim səni mən, afəti-can, xar olasan!
Arzu eyləmişəm eşqə giriftar olasan!

Eşqdir can verən aləmdə pərizadələrə,
Bu cür eşq aləminə sən də səbəbkar olasan!

Uzadan eşqdir ömrün yolunu, bilməlisən,
Belə bir eşqə, gülüm, sən də xiridar olasan!

Eşq bağın seyr edən çox nazəninlər görmüşəm,
Sən gərək, ey mahirux, onlara sərdar olasan!

Hər sözün nitqində bax, min şəkkər əfşan eyləsin,
Əqlidən kamil, şərəfdən ülvü, huşyar olasan!

Harda gül var orda var xar, buna agah ol sən,
Eşq mülkün hifz üçün sən gərək bidar olasan!

Dəhrdə bir böylə canan tapmadım, çox gəzmişəm,
Zəkəriyyaya, gülüm, bəlkə özün yar olasan!

*1986*

***

Ey dil, nə gözəl töhfədir insanə təxəyyül!
Qismət deyil aləmdə bir heyvanə təxəyyül!

Bir bax bu cahan mülkünə, ey dost, nə görürsən,
Min ziynət ilə döndərib bustana təxəyyül!

Bax gör nə qədər xarüqələr var sənətində,
İlham gətirir hər yana, hər anə təxəyyül!

Şəxsiyyətə aid olan hər karə nəzər sal,
Onda verəcək şöleyi-imkanə təxəyyül!

Bünyadı onun köhnə təsəvvürlər olur bil,
Ondan yanadır gündə min əfsanə təxəyyül!

İlhamə gəlib sən də qəzəl yaz, Zəkəriyya,
Döndərdi səni həm də qəzəlxanə təxəyyül!

*1987*

***

Bəh-bəh, nə əcəb qönçə ləbin, gül yanağın var,
Gəl onlara baxmaqda məni bilmə günahkar.

Nitqim tutulur görcək o şux gözləri, ey gül,
Sənsən belə bir möcüzəyə əsl səbəbkar.

Baxdıqca o gül çöhrənə ilham alıram mən,
Ay söyləsəm o surətə, ol sən də tərəfdar.

Çox qorxuram əğyarların fitnələrindən,
Bülbüllə gülün düşməni hər yerdə olur xar.

Sən gül, gözəlim, könlüm açılsın səni görcək,
Bu halına qəlbimdi olan gündə tələbkar.

Xilqət də sənə zərrə qədər vermədi nöqsan,
Rəssam o təbiət, elə bil ülvi sənətkar.

Sən gəl, Zəkəriyya, demə bibəxt sən oldun,
Təzim elə bu şuxə, özün gündə sərasər.

*1987*

***

Sevirəm mən səni, ey şux, sənə agah olsun,
Yanağın lalə, ləbin qönçə, üzün mah olsun.

Susma, ey badi-səba, könlümü gəl qan eləmə,
Razı olma gecə-gündüz sənətim ah olsun.

Bu qədər əql fərasət görürəm səndə, gülüm,
Arzumdur belə bir əql mənə şah olsun.

Eşq qüdrət verir insana inan, hər anda,
Qoyma, ey afəti can, ortada bədxah olsun.

Hazıram min dəfə hər gündə edim səcdə sənə,
Eşqimiz qoy təmənnamıza dərgah olsun.

Zəkəriyya dözəcəkdir nə qədər zülm eləsən,
İstəyər sevdiyi cananı xeyirxah olsun.

*1987*

***

Kimə, ey gül, de görüm, əsl səadət verdin?
Əql verdin kimə sən, küllü fərasət verdin?

Kimi səhralərə saldın, onu Məcnun elədin?
Kimə gül dəstələri ilə təravət verdin?

Kimi öz eşqin ilə dəhrdə məmlüv elədin?
Baqi-rizvanına bağban kimə rüsqət verdin?

Kimi bəs xar ilə hər yerdə bərabər tutdun?
Kimi insan elədin, bollu fəzilət verdin?

Sənə əhsən deyir aləm, belə bir karın ilə,
Sevdiyin aşiqinə həm də dəyanət verdin.

Zəkəriyyadı sənə ruh-tənin bəxş eyləyən,
Binəvanın yenə də vəslinə möhlət verdin.

*1988*

***

Bu sözlərin, gözəlim, bir bəhanədir,
Rəqibə meyl eləməkçün asitanədir.

Məhəbbət əhli deyilsən, fənakarsan,
Bu eşq əhlinə bir ahi-nalədir.

Karınla kəlamlarının yoxdu birliyi,
Zənn etmirəm bu sözlərin mərhəmanədir.

Təslim olub sənin ağlın saxta hissinə,
Dərk eyləmirsən necə dövr-zəmanədir?

Sən incimə, Zəkəriyya, o qoy getsin,
Eşqin sənin bilirəm şairanədir.

*1988*

***

Ey pir, yamandı bu təklik, yoxdu çarəsi,
Həmdəm olub sənə artıq qəm piyaləsi.

Hanı o cahi cəlal, gənclik illərin indi,
Yox indi qəlbinin artıq istişarəsi.

Kim ilə ülfət edirsən bu gün həyatında?
Bu təkliyin çıxır ərşə ahu naləsi.

Sevmək, sevilmək qocalıq dövrünə yaddır,
Çox da bu könlün olursa isticarəsi.

Qəm eyləmə, Zəkəriyya, xalq səninlədir,
Çoxdur içində onun mahiparəsi.

*1988*

***

Zənn etmə, könül, bu gözəl əhli-haldır,
Sən bilmirsən, bu şuxun işi qeylu qaldır.

Min bir libas bürüsə gündə təninə,
İnsanlıq əlaməti ancaq - kamaldır.

Öyrən sevəndə dilbərinin nitqi karını,
Aldanma gözləri şəhla, qaşları hilaldır.

Axtar o dilbəri tap, sənə qəmxar olsun,
Nə ki fikri həmişə onun cah-cəlaldır.

Gördün Zəkəriyya, belə bir dilbəri sən də,
Bildin ki əsl fikri onun ehtiyaldır.

*1988*

***

Borcluyam hər şeydən əvvəl, ey könül, vicdanıma,
Döndü hər gündə, hər anda o mənim xaqanıma.

Hər işimdə rəhbər oldu, yoxladı rəftarımı,
O keçirdi mərhəmət, insaf, ədalət qanıma.

Duyğularda bir təməl qurdu o əqlin karına,
Qoymadı heç bir yabançı hiss keçə davranıma.

Xalqa xidmətdə dedi sərf eylə sən var qüvvəni,
Mən bu yolla əzm edib, qəsd eylədim öz canıma.

Qoymadı hər bir gəda dövrəmdə cövlan eyləsin,
Bu ədalarla edib cəng, baxmadım imkanıma.

Sındırıb balu pərin rüşvətpərəst insanların,
Baxmadım ki, böylə nakəslər susarlar qanıma.

Elçilər göndərdilər ki, onları təkrar edim,
Rədd qıldım hər zaman, kim elçi gəldi yanıma.

Zəkəriyya, dostum oldu hər zaman vicdan mənə,
Borcluyam hər şeydən əvvəl böylə öz vicdanıma.

*1988*

***

Ayrılmaq istəmir könül, ey dil, nazlı yardan,
Qorxur ondan o dəhşətlə gələn intizardan.

Məhəbbət - eşqdir, onsuz sönükdür aləm də,
Düşər məhəbbət olmasa aşiq etibardan.

Fəzayi-eşqdə pərvaz edərsə aşiqlər,
Tale verib onlara sərvət bəxtiyardan.

Doyunca ömr eləsinlər həyatda aşiqlər,
Ziyan toxunmasın onlara mərdüməzardan.

Sən de, Zəkəriyya, eylə səna bu aşiqlərə,
İlhamə gəl özün də, bu cür xoş güzardan.

*1989*

# FOTO-QALEREYA





***Zəkəriyya Mehdizadə həyat yoldaşı Sona xanımla***



***Zəkəriyya Mehdizadə ailə üzvləri arasında***
***Sentyabr, 1987-ci il. Bakı***



*Biləcəri qəsəbəsindəki 5 №-li dəmiryol orta məktəbinin IVb sinif şagirdləri ilə professor Zəkəriyya Mehdizadənin görüşü. 6 mart, 1986-cı il*



*Zəkəriyya Mehdizadə oğlu Rəşid və bacısı Fitat xanımla*



*Azərbaycan Pedaqoji İnstitutu, Məktəbəqədər fakültə.*
*1973-1974- cü illər.*



*Zəkəriyya Mehdizadənin bacısının ailə üzvləri*



*Zəkəriyya Mehdizadə qardaşı akademik Mehdi Mehdizadə ilə*



*Zəkəriyya Mehdizadənin qardaşı Qafar Mehdizadə ailə üzvləri ilə*



***Zəkəriyya Mehdizadə Bakı şəhəri 58 nömrəli Uşaq Bağçasında (1980)***



***Zəkəriyya Mehdizadənin qardaşı Qurban, Mehdi Mehdizadənin oğlu Rafiqlə, 1937-ci il.***



*Zəkəriyya Mehdizadə müəllim həmkarları ilə birlikdə*



*Zəkəriyya Mehdizadə Respublikalararası seminar-müşavirədə Azərbaycan nümayəndə heyətinin üzvləri ilə birlikdə (dekabr, 1966)*




*Zəkəriyya Mehdizadə müəllim həmkarları ilə birlikdə Moskvada (1954)*




***Zəkəriyya Mehdizadə müəllim həmkarları ilə birlikdə Oktyabr bayramında (1967)***



***Zəkəriyya Mehdizadə müəllim həmkarları ilə birlikdə (noyabr, 1958)***



Zəkəriyya Mehdizadə müəllim həmkarları ilə birlikdə



Zəkəriyya Mehdizadə imtahan zamanı



***Zəkəriyya Mehdizadə tələbələrlə birlikdə (1974-cü il)***



***Zəkəriyya Mehdizadə tar dərnəyində. 19 aprel, 1929-cu il.***

# Təltifləri və bəzi dövlət sənədləri



"Əmək Veteranı" medalı




"1979-cu il Sosialist yarışmasının qalibi" medalı




"1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 40 illik yubileyi" medalı




"Qabaqcıl maarif xadimi" medalı




**"1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 30 illik yubileyi" medalı**



„ТРИДЦАТЬ ЛЕТ ПОБЕДЫ
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ
1941—1945 гг."

УЧАСТНИКУ ТРУДОВОГО ФРОНТА

УДОСТОВЕРЕНИЕ

Меhдизадә
Зәкәриjjә
Мәhәммәд оғлу.
в соответствии с Указом ПРЕЗИДИУМА
ВЕРХОВНОГО СОВЕТА СССР
от 25 апреля 1975 года
НАГРАЖДЕН ЮБИЛЕЙНОЙ МЕДАЛЬЮ
„ТРИДЦАТЬ ЛЕТ ПОБЕДЫ
В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ
ВОЙНЕ 1941—1945 гг."
От имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО
СОВЕТА СССР медаль вручена
3 октjабр 1975 года
Чәбраjыл РЗДС Иҹраиjjә
Комитәсинин сәдри:-
М. П. (должность и подпись лица, вручившего медаль) И.Исмаjылов.

**"1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 30 illik yubileyi" medalının vəsiqəsi**




**"Qafqazın müdafiəsinə görə" medalı**



ЗА НАШУ СОВЕТСКУЮ РОДИНУ!

СС СР

— УДОСТОВЕРЕНИЕ —

ЗА УЧАСТИЕ В ГЕРОИЧЕСКОЙ ОБОРОНЕ
КАВКАЗА
МЕХТИЗАДЕ
ЗАКАРИЯ МАМЕД ОГЛЫ
Указом Президиума Верховного
Совета СССР от 1 мая 1944 года
награжден медалью
„ЗА ОБОРОНУ КАВКАЗА"
От имени Президиума Верховного
Совета СССР медаль „За оборону
Кавказа" вручена „24 февраля 1945 г.

А № 022309

Председатель Президиума Верховного
Совета Азербайджанской ССР

Секретарь Президиума Верховного
Совета Азербайджанской ССР

**"Qafqazın müdafiəsinə görə" medalının vəsiqəsi**




***"1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 20 illik yubileyi" medalı***




***"Zərbəçi əməyə görə" medalı***




***"1977-ci il Sosialist yarışmasının qalibi" medalı***


„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1977 ГОДА"



*Знак учрежден Центральным Комитетом КПСС, Советом Министров СССР, ВЦСПС и ЦК ВЛКСМ*

УДОСТОВЕРЕНИЕ

Мехтизаде Закария Мамед оглы

от имени *Министерства и ЦК профсоюза*

награжден знаком

„ПОБЕДИТЕЛЬ СОЦИАЛИСТИЧЕСКОГО СОРЕВНОВАНИЯ 1977 ГОДА"

„23" марта 1977 г.

(подпись) (подпись)

***"1977-ci il Sosialist yarışmasının qalibi" medalının vəsiqəsi***



DEPT. OF PSYCHOLOGY
BROOKLYN COLLEGE
BROOKLYN. NEW YORK. 11210

Второе письмо

Г-ну З.М.Мехтизаде
Азербайжанский институт педагогики
Кафедра Психологии
ул.Коммунистическая 11/13
Баку

Нью-Йорк,27-го ию

Уважаемый Коллега!

Городской Университет Нью-Йорка организовал при Бруклинс
колледже специальный центр по изучению психологии - в том ви
в каком она развилась и продолжает развиваться,в качестве на
ной дисциплины, в различных странах мира.Этим путем руковод
Центра надеется способствовать развитию психологии как подли
универсальной дисциплины и установлению плодотворных взаимн
связей между психологами во всем мире.

Чтобы помочь исследовательской работе в этой области,нео
димо создать соответствующие библиотечные фонды. Библиотека
Бруклинском колледже уже располагает хорошей подборкой сове
журналов в области психологии и в смежных областях,а также
шим количеством интересных статей и монографий, переведенны
русского языка на английский. Очередная задача состоит в то
бы создать возможно более полную подборку оттисков публикац
отдельных авторов по интересующим Центр вопросам.

Имея в виду эту задачу, Центр приглашает Вас содействова
стижению его академических целей путем присылки имеющихся у
оттисков Ваших работ, а равно и полной библиографии Ваших п
ных трудов. Они будут каталогизированы и предоставлены для
чения как местным, так и приезжим научным работникам.

Можем ли мы надеяться на получение от Вас оттисков и биб
графии Ваших трудов?

Уважающий Вас

Ivan D. London

*«Center for the Study of World Psychologies»-in rəhbərliyi ilə «The City University of New York»-un Zəkəriyyə Məmməd oğlu Mehdizadəyə göndərdiyi əməkdaşlıq məktubu. 27 iyul, 1964-cü il.*



АЗӘРБАЈЧАН ССР ДӨВЛӘТ НӘШРИЈЈАТ, ПОЛИГРАФИЈА ВӘ КИТАБ ТИЧАРӘТИ ИШЛӘРИ КОМИТӘСИ
ГОСКОМИТЕТ АЗЕРБАЙДЖАНСКОЙ ССР ПО ДЕЛАМ ИЗДАТЕЛЬСТВ, ПОЛИГРАФИИ И КНИЖНОЙ ТОРГОВЛИ

Азәрбајчан Совет Енсиклопедијасынын БАШ РЕДАКСИЈАСЫ

ГЛАВНАЯ РЕДАКЦИЯ Азербайджанской Советской Энциклопедии

28/I 85 № 6
На № ___ от ___

А Р А Ј Ы Ш

Верилир,психолокија елмләри намизәди,досент Меһдизадә З.М.
јолдаша ондан өтру ки,о һәгигәтән Азәрбајчан Совет Енсиклопе-
дијасынын чилдләриндә кетмиш ашағыдакы мәгаләләрин мүәллифидир

I.Гејз--500
2.Гәзәб--500
3.Зоопсихолокија--500
4.Иллүзија--400
5.Интеллектуал һиссләр--600
6.Меланхолик--500
7.Мәһкәмә психолокијасы--500
8.Мәһәррәмов М.Ч.--700
9.Мүнасибәт--800
I0.Пантомимика--500
II.Педагожи психолокија--I000
I2.Проактив ләнкимә--500
I3.Ретроактив ләнкимә--500
I4.Тестләр--I000
I5.Темперамент--I500
I6.Тәбии експеримент--800
I7.Үмуми психолокија--2200

Мәтбуат,халг маарифи,педагокика вә психолокија
редаксијасынын мудири Р.ИМАМӘЛИЈЕВ
АСЕ Баш редакторунун
биринчи муавини А.ДАДАШЗАДӘ

*Azərbaycan Sovet Ensiklopediyasına daxil olan məqalələrinin adları haqqında Zəkəriyyə Məmməd oğlu Mehdizadəyə verilən arayış*



V. I. Lenin adına Azərbaycan Dövlət pedaqoji İnstitutu
DIPLOM

Азербайджанский Государственный Педагогический Институт имени В. И. Ленина
ДИПЛОМ

*Ali təhsil haqqında diplom*



AZƏRBAJÇAN SOVET SOSIALIST RESPUBLIQASЬ
АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА

AzSSR XALQ MAARIF QOMISSARLЬĞЬ
НАРОДНЫЙ КОМИССАРИАТ ПРОСВЕЩЕНИЯ АзССР

ORTA MƏKTƏB MYƏLLIMI ADЬ VERƏN
ATTESTAT

1936 ildə Pedagoji Institutunun Matematiqa Şö'bəsini bitirmiş və pedaqogiqa işi yçyn tə'jin edilmiş imtəhan stazьnь məktəbdə keçmiş, Zəkarija Məmməd oğlu (Adь, atasьnьn adь və familjasь) Mehtizadə SSRI Mərkəzi Içraijjə Qomitəsi və Xalq Qomissarlarь Sovetinin myəllimlərə şəxsi ad vermə haqqьndakь 1936-çь il 10 aprel tarixli qərarьna əsasən, ORTA MƏKTƏB MYƏLLIMI ADЬNЬ ALЬR

ATTECTAT
НА ЗВАНИЕ УЧИТЕЛЯ СРЕДНЕЙ ШКОЛЫ

Закария Мамед оглы (имя, отчество и фамилия) Мехтизаде, окончивший в 1936 году Математ. отд. Педагогического института и прошедший установленный испытательный стаж педагогической работы в школе, УДОСТОЕН ______, на основании постановления Центрального Исполнительного Комитета и Совета Народных Комиссаров Союза ССР, о введении персональных званий для учителей от 10 апреля 1936 г., ЗВАНИЯ УЧИТЕЛЯ СРЕДНЕЙ ШКОЛЫ.

AzSSR Xalq Maarif Qomissarь
Народный Комиссар Просвещения АзССР

M. J.
M. П.

2 avgust 1938 il/г.
№ 1986

*Orta məktəb müəllimi adını təsdiq edən attestat*



АТТЕСТАТ
СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА

МСН № 002631

Москва 27 сентября 1958 г.

Решением
Высшей Аттестационной Комиссии
от 6 сентября 1958 г. (протокол N 33/т)
Мехтизаде Закария Мамед оглы
УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ
СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА
ПО СПЕЦИАЛЬНОСТИ
„психология"
Председатель Высшей Аттестационной Комиссии
Ученый Секретарь Высшей Аттестационной Комиссии

**Psixologiya ixtisası üzrə "Böyük elmi işçi" dərəcəsini təsdiq edən Attestat. 06 sentyabr, 1958-ci il**



АТТЕСТАТ
ДОЦЕНТА

МДЦ № 030219

Москва 3 сентября 1966 г.

Решением
Высшей Аттестационной Комиссии
от 20 июля 1966 г. (протокол N 33/т)
Мехтизаде Закарий Мамед оглы
УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ ДОЦЕНТА
ПО КАФЕДРЕ
„психология"
Зам. Председатель Высшей Аттестационной Комиссии
Ученый Секретарь Высшей Аттестационной Комиссии

**Psixologiya kafedrası üzrə "Dosent" Attestatı
20 iyul, 1966-ci il**


ДИПЛОМ
КАНДИДАТА НАУК
МК-ПД № 000281
Москва 31 марта 1954 г.

Решением
Совета Научно-исследовательского института психологии АПН РСФСР
от 22 декабря 1953 г. (протокол N 44)
Мехтизаде Закарии Мамед оглы
ПРИСУЖДЕНА УЧЕНАЯ СТЕПЕНЬ КАНДИДАТА
ПЕДАГОГИЧЕСКИХ НАУК
Председатель Совета
Ученый Секретарь Совета

***"Pedaqoji elmlər namizədi" diplomu***
***22 dekabr, 1953-cü il***


АТТЕСТАТ
ПРОФЕССОРА
ПР № 012641
Москва

Решением
Высшей аттестационной комиссии
при Совете Министров СССР
от 24 мая 1985 г. (протокол № 18пб/7)
Мехтизаде Закария Мамед оглы
ПРИСВОЕНО УЧЕНОЕ ЗВАНИЕ
ПРОФЕССОРА
ПО КАФЕДРЕ
возрастной и педагогической психологии
Председатель Высшей аттестационной комиссии
Главный ученый секретарь Высшей аттестационной комиссии

***Yaş və pedaqoji psixologiya kafedrası üzrə "Professor"***
***Attestatı***
***24 may, 1985-ci il***



Серия АИ
№ 21493
Мехти-Заде
(фамилия)
Закария
(имя)
Мамед оглы
(отчество)
(личная подпись владельца билета)
... № А-664491
Военный билет выдан
... Марта 194... г.
(наименование военного комиссариата)
(должность, звание, подпись)

Серия АИ
I. ВОЕННО-УЧЕТНЫЕ ДАННЫЕ
1. Род войск (служба) Политический
ВУС № 229.
Старший лейтенант
2. Воинское звание Ст. Политрук
3. Запас 1. разряда ... разряда
... разряда
4. Должность Парторг батальона
5. Должен состоять на учете по 31 декабря 1963 года

*Zəkəriyya Mehdizadənin "Hərbi bileti"*



III. ПРОХОЖДЕНИЕ СЛУЖБЫ

Серия АИ

| С какого времени (м-ц, год) | По какое время (м-ц, год) | Должность | Войсковая часть, соединение, армия, фронт, округ | Чей приказ, № и дата |
|---|---|---|---|---|
| В Советской армии | | | не служил | |
| Приказом МО СССР № 07175 от 14/XII-53 присвоено в/звание "Ст. лейтенант" | | | | |

(АЛИЕВ)

4

5

*Z.M.Mehdizadəyə "Baş leytenant" rütbəsinin verilməsi haqqında SSRİ Müdafiə Nazirliyinin əmri*



## VII. ПРАВИТЕЛЬСТВЕННЫЕ НАГРАДЫ

| Наименование ордена, медали | Дата и № приказа или указа о награждении |
| --- | --- |
| Медали: «За оборону Кавказа» | Указ през. Верх. совета СССР от 1.5.44 г |
| «За Победу над Германией» | Указ през. Верх. совета СССР от 9.5.45 г |

12

Серия АИ

## VIII. ДОПОЛНИТЕЛЬНЫЕ СВЕДЕНИЯ

Пребывание в плену, пребывание в окружении не в составе части, проживание на оккупированной противником территории, служба в белой и иностранных армиях (когда, где и сколько времени)

В плену не был

13

***SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Z.M.Mehdizadəyə "Qafqazın müdafiəsi uğrunda" (01.05.1944) və "Almaniya üzərində qazanılmış Qələbəyə görə" (09.05.1945) medallarının verilməsi haqqında qeydlər.***


АЗӘРБАЙЧАН ЭЛМИ-ТӘДГИГАТ ПЕДАГОКИКА ИНСТИТУТУ

З. М. МЕҺДИЗАДӘ

*Педагожи элмләри намизәди*

ТӘНАСҮБ БӘҺСИНИН МӘНИМСӘНИЛМӘСИНДӘКИ БӘ'ЗИ ЧӘТИНЛИКЛӘРИН ПСИХОЛОЖИ АНАЛИЗИ ВӘ АРАДАН ГАЛДЫРЫЛМАСЫ ҺАГГЫНДА

Бирләшмиш нәшрийят
Бакы—1956

***Zəkəriyya Mehdizadənin avtoreferatı (1956)***


ТБИЛИССКИЙ
ОРДЕНА ТРУДОВОГО КРАСНОГО ЗНАМЕНИ
ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

МЕХТИЗАДЕ Закария Мамед оглы

ТРУДНОСТИ В ФОРМИРОВАНИИ УМЕНИЯ ПЕРЕСТРАИВАТЬ ЗНАНИЯ И НАВЫКИ В ПРОЦЕССЕ УСВОЕНИЯ МАТЕРИАЛА АРИФМЕТИКИ И АЛГЕБРЫ

(19.00.07—Детская и педагогическая психология)

(Диссертация написана на русском языке)

АВТОРЕФЕРАТ
диссертации на соискание ученой степени доктора психологических наук

Издательство Тбилисского университета

БАКУ — 1975

***Zəkəriyya Mehdizadənin avtoreferatı (1975)***


DEPT. OF PSYCHOLOGY
BROOKLYN COLLEGE
BROOKLYN, NEW YORK, 11210

Нью-Йорк, 5-го апреля 1964 г.

Г-ну З.М.Мехтизаде
ул.Советская 21
Баку

Уважаемый Коллега!

Городской Университет Нью-Йорка организовал при Бруклинском колледже специальный центр по изучению психологии - в том виде, в каком она развилась и продолжает развиваться, в качестве научной дисциплины, в различных странах мира. Этим путем руководство Центра надеется способствовать развитию психологии как подлинно универсальной дисциплины и установлению плодотворных взаимных связей между психологами во всем мире.

Чтобы помочь исследовательской работе в этой области, необходимо создать соответствующие библиотечные фонды. Библиотека при Бруклинском колледже уже располагает хорошей подборкой советских журналов в области психологии и в смежных областях, а также большим количеством интересных статей и монографий, переведенных с русского языка на английский. Очередная задача состоит в том, чтобы создать возможно более полную подборку оттисков публикаций отдельных авторов по интересующим Центр вопросам.

Имея в виду эту задачу, Центр приглашает Вас содействовать достижению его академических целей путем присылки имеющихся у Вас оттисков Ваших работ, а равно и полной библиографии Ваших печатных трудов. Они будут каталогизированы и предоставлены для изучения как местным, так и приезжим научным работникам.

Можем ли мы надеяться на получение от Вас оттисков и библиографии Ваших трудов?

Уважающий Вас

Ivan D. London

Проф.Иван Д.Лондон
Директор Центра

***"Center for the Study of World Psychologies"in rəhbərliyi ilə "The City Univerity of New York"un Zəkəriyya Məmməd oğlu Mehdizadəyə göndərdiyi əməkdaşlıq məktubu.***
***05 aprel, 1964-cü il.***

# LÜĞƏT

## A

Asar - əsər
Afitab - günəş
Abi-kövsər - cənnət suyu
Ara - rəylər, mülahizələr
Amadə - hazır
Afət - gözəl
Altun - qızıl
Aşiqi-zar - ağlayan aşiq

## B

Bünyad - bünövrə qoymaq
Bidar - ayıq-sayıq
Bəhr-qəm - qəmlər dənizi
Bimar - xəstə
Büti-ziba - ən gözəl büt
Bəyaz - çoxluq, böyüklük
Büryan - kabab
Badi-səba - səhər mehi
Balü-pər - qol-qanad
Bilmərrə - qətiyyən, büsbütün

Bavər - inam, etibar
Biəda - şivəsiz, nazsız

**D**

Dildar - sevimli gözəl
Dilşad - ürək şadlığı
Dilxun-qəm - qüssəyə mübtəla olmaq
Dəyanət -möhkəmlik, sözündə bütövlük
Dəstur - razılıq, icazə
Dərbədər - qapı-qapı düşmək
Dəni - rəzil
Dəstpərvərdən - əl altında tərbiyələnmiş

**E**

Ehtiyal - hiyləgərlik
Ehsas - hiss etdirmə

**Ə**

Ədl - haqq, ədalət
Ədna - nanəcib, yaramaz
Əczayi-tən - bədən üçün dərman
Əxtər - bəxt, tale
Əğyar - düşmən
Ətvar - təhər, görünüş

Əda - naz, şivə
Əflak - göylər
Ənbər - xoş iyli maddə
Əbnayi-bəşər - bəşər övladları
Əta - bəxşiş
Əşxaz - şəxs, adam
Əbru - qaş
Əsrar - sirlər
Əşk - göz yaşı
Əndəlib - bülbül
Əxxaz - zor ilə
Əhriman - şər, zülmət mələyi
Əfşan - yayan
Əzm - məqsəd, məram
Əqhab - müsahib, söhbət edən

**F**

Fərxəndə - xoşbəxt
Fisqi-fücur - qəbahət, əxlaqsızlıq
Fərz - vacib, məcburi
Fərda - gələcək
Fəraq - ayrılıq
Fənakar - eyibli hərəkət edən
Fövq-fövq - üst-üstə

## G

Gülsəbah - səhər çiçəyi
Guhistan - doğma
Guş - qulaq asmaq

## H

Hidayət - yol göstərən
Hüda - doğru yol
Hüşyar - şüurlu
Hacət - ehtiyac
Həssad - paxıl
Halə - Günəşin və Ayın dövrəsində görünən dairəcik

## X

Xəndanə - şad
Xüld - cənnət
Xirədmənd - bilikli, alim
Xuddar - səbirli, təkminli
Xəndə - gülüş, istehza
Xar - rəqib
Xiridar - müştəri, alıcı
Xurşid - günəş
Xunxar - zülmkar

Xədəng  - ox
Xaki-pay - ayağın torpağı
Xah - istək, arzu
Xab - yatmaq

## İ

İfsad - korlanmaq
İttihad - ittifaq, birlik
İstiqna - qənaətlənmək /əlində olanla/
İlqar-əhd - peyman
İrşad - yol göstərən
İştibah - şübhəyə düşmək, ümidsizlik
İstiğna - varlanma
İstihsan - tərifləmək
İqtisab - qazanmaq
İrtikab - günah iş
İtmam - tamamlama
İstişadə - məsləhətləşmə
İsticarə - arzunu qəbul etmə
İnayət - fəhm
İyanət - xəstəyə baş çəkmək
İcab - tələb
İfsad - zərər vermə
İftad - düşkün, biçarə, yazıq
İnşad - oxuma /öz və başqasının şeirini/
İftira - böhtan, yalan

İxtilat - söhbət
İstişarə - məsləhətçi
İxlas - sadiqlik, sədaqət

**K**

Kar - əsər /iş mənasında/
Kəbutər - göyərçin
Künh - bir şeyin sonu
Kənan - Yusifi Kənana işarədir
Kainat - xarici aləm
Kamiran - kamına çatan

**Q**

Qəflət - cahillik, xəbərsizlik
Qayə - məqsəd, məram, son
Qəmər - ay
Qəvval - üzgüçü

**L**

Laməkan - yersiz
Leyliveş - Leyli kimi

## M

Məlal - qəm, qüssə
Məzac - təbiət, xarakter, təb
Müjgan - kiprik
Mahru - ay üzlü
Munis - dost, istiqanlı
Münəvvər - işıqlanan, nura boyanan
Müəttər - ətirlənmiş
Müqəddər - qismət
Mahitaban - işıqlı ay
Mümtaz - ən yaxşı
Mürc - quş
Məmlüv - dolu
Məsul - təmiz, əxlaqlı
Müdəvvər - dairə
Mah - tələt, ay üzlü
Müsəvvər - rəsm olunmuş
Mübhəm - gizli, müəyyən olmayan
Mərəz -xəstəlik, azar
Məstur - yazılmış
Məsrur - şən, şad
Mənsur - qalib, qələbə çalmış
Məzuri - üzürlü
Mehr - günəş, məhəbbət
Meyar - ölçü
Mahrux - gözəl dilbər
Mazi - keçmiş

Mahiprə - yarım ay
Məcruh - yaralı
Məsiha - İsa Peyğəmbərə verilən ad
Mövcudat - bütün varlıq
Mərrə - dəfə, kərə
Müsəlla - ibadət yeri
Məstanə - ağlı çaşma

**N**

Növi-bəşər - insanlar
Nihan - gizli
Nigahban - qoruyan, mühafizə edən
Nasut - insanlıq
Nisar - bəxşiş, hədiyyə
Nəva - avaz
Nagah - qəflətən, birdən
Namdar - adlı-sanlı, şöhrətli
Nəşət - baş vermə, meydana gəlmə
Nar - od, atəş
Nəzzarə - tamaşa edən, tamaşaçı

**P**

Pey - əsər, əlamət, təqib
Pamal - məhv
Peyvəstə - həmişə

## R

Rahnüma - yol göstərən, bələdçi
Rəvan - sərbəst
Rədd - qaytarma
Rəfiq - dost
Rəqib - düşmən
Rizvan - cənnətin qapıçısı, bağbanı
Rux - üz
Rəhlət - ölüm
Ruyi - üz, çöhrə
Rübüb - köpük
Rəncidə - incimiş
Rəxtxab - yataq, yorğan-döşək
Rəbt - əlaqələndirmə
Rüxsar - sifət, yanaq

## S

Səna - dua, tərif
Sərəfraz - başıuca, hörmətli
Səzavar - layiq, münasib
Sövq-hərisan - təhrik etmə hərisliyi
Sərgəştə - heyran
Sər - birinci, baş
Sərdar - başçı
Saqit - etibardan düşən

Sitarə - planet
Səid - uğurlu
Sayə - kölgə
Sərmayə - dövlət
Sirişk - göz yaşı
Sirab - sudan doymuş
Sipər - qalxan
Sücud - səcdə
Süpha - qoşun
Səmənbər - yasəmən sinə

**Ş**

Şitab - tələsmə, sürət
Şahbaz - laçın
Şəhpər - qanad
Şərarə - qığılcım
Şövqi - halqa, boyunbağı
Şəbahət - bənzəyiş

**T**

Tərəhhüm - mərhəmət etmə
Tənnaz - şən
Tar - zülmət
Tur - dağ
Təbdil-məkan - məkanı dəyişmə

Tən - bədən
Taci-sər - başının tacı
Tifl - uşaq
Türfə - qəribə, təəccüblü
Türreyi-tərrar - aldadıcı saç
Təzvir - yalan, hiylə
Təyəqqüz - həyatı anlama, oyanma
Tərsa - xaçpərəst
Tiğ - qılınc
Təcəlla - özünü göstərmə
Tərcüman - xəbər verən

**Ü**

Ürfan - elm
Ülfət - məhəbbət
Üşşaq - aşiq
Ülviyyət - yüksəklik, alilik

**V**

Vabəstə - bir şeyə bağlı
Vəsl-qovuşma

# Z

Zivər - bəzəmək
Zimnində - daxilində
Zimistan - qış
Zindəkan - canlı
Zənbur - arı
Zəkavət - kəskin zehin, düşüncə, istedad
Zərəfşan - parlaq
Zağ - zülf

# MÜNDƏRİCAT

Atam Zəkəriyya.............................................................3
Ön söz. Tanınmış psixoloq-alim professor
Zəkəriyya Mehdizadə....................................................7
Redaktordan.................................................................24

*Qəzəllər*

***1944***
Əcəb bərabəridir hüsndə Züleyxanın...........................31

***1945***
Bil ki, ey gül, sənə mən afəti-can söyləmişəm..............32

***1954***
Fərəh bü ölkəmizə, novbaharımız vardır /Ə.Vahidə
nəzirə/.........................................................................33

***1955***
Ey gül, sənin aləmdə gözəl bir zəfərin var....................34

***1958***
Əcəb pərvanəyəm mən, məskənim eşqi-xiyabandır.....35

***1959***
Ey mah, üzün görməsəm hicran mənə bəsdir................36

Ey şux, de görüm, vəslinə imkan nə zamandır.............37
Nə gözəlsən gözəlim, mahi-münəvvər kimisən...........38
Sevirəm dilbərimi sərvi-rəvan olmasa da.....................39
Vətən bir baqi-cənnətə, bülbülü yar-nigarımdır...........40
Görsəm ol sevgilimin gül üzün min bahar olar.............41

***1960***

Gəl, ey bülbül, açılmış gül budağında fəqan eylə.........42
Zülfün mənə zənciri-cunun olmuş əzəldən..................43
Bütün sitəmlərinə dözməyim vəfadandır.....................44
Aya, nə oldu görən, para gəldi dünyaya.......................45
Aç camalın gözəlim, cümlə-cahan nur olsın.................46
Ey lalə yanaqlım, de bu halət nədən oldu.....................47
Eşqin ey dil, görürəm kim nə qədər qüdrəti var...........48
Ey şux, o qara zülfünə bir şanə çək görək...................49
Vəsl-yara yetməsə hicrana tab etməz könül.................50
Həyatımın gözəlim, sən fərəhli qüvvəsisən.................51
Sən gərək gül tək açıb aləmə məşhur olasan...............52
Mənə röyada da ilham verən ey gül, sənsən.................53
Gör nə xoşbəxtəm ki, yarəb, yar ilə bir yerdəyəm.......54
Dedim sənə gözəlim, böylə imtahan olmaz.................55
Çoxdandı görünməyir ey gül, sərv qamətin.................56
Məst oldum hilal qaşlarının tirəliyindən......................58
Dur gedək yara dedim, eylədi dad - istəmirəm.............59
Eşqin ey gül, badəsin içdim dünən mərdanə mən........60
Dila bil, dərd-möhnətdən fələkdə afitab ağlar.............61
Etibar olmasa ey gül, eşq evi viranədir.........................62

Yenə tezdən dolamış zülfün o məh şanələrə.................63
Fəraqin ayrı saldı məni vəsli yardan..............................64
Mən heyranam gözəlim, sənin sədaqətinə....................65
Hüsnün ey gül, dedilər xəstəyə dərmandı sənin...........66

***1961***

Sənə ömrü boyü ey gül, həmzəban olan mən idim........67
Könül istər xəbər badi-səba, öz Afitabından.................68
Varmı aya, görəsən çarəsi divanələrin..........................69
Söylə mənasını ey gül, belə bəd rəftarın.......................70
Eyləməzdi dərd əgər görsəydim ol cananımı................71
Gül üstə xarı görməsə bülbül yəqin fəqan etməz..........72
Sənin eşqində gülüm, dərdə giriftar mənəm.................73
Tükənir sübhə qədər səbr-qərarım gecələr...................74
Söylə, kimdir gözəlim, bəs sənə həmdəm gecələr........75
Atıb xədəngini ey gül, yamanca qan elədin...................76
Şura gəl bülbül, duyaq yar eşqinin mənasını.................77
Zülfün ey gül, necə gör türreyi-tərrar olmuş..................78
Sənə ömrü boyu mən şadiyanəlik dilərəm....................79

***1962***

Qaşın şəbahəti var yaylı bir kamana gülüm...................80
Öp ey badi-səba erkən sən, ol cananın alnından............81
Mehriban gördüm bu gün mən ey hilal əbru səni..........82
Günüm nə xoş keçir ey dil, nigar olan yerdə.................83
Dünən görəndə səni novbahara bənzətdim...................84
Səni gördükdə gülüm, sanki gülüstan görürəm............85

Ey gül, sənə bu hüsn, sədaqət halal olsun......................86
Görəndə sürətini lalə xar olur, ey gül............................88
Bilməm niyə ey məh, mənə biganə sən oldun.............89
Günəş olmazsa bu aləmdə gülüm, nur olmaz...............90
“Lalə tək bağrım mənim ey nazənin, yüz parədir
/ M.Füzüliyə nəzirə/......................................................91
Xəyal-vəsl-yar ilə bağrım kabab olub...........................92
Bir yaman dərdə giriftar görüm xar olsun......................93
Şad olaq gəl gözəlim, sevgili dövrandı bu gün.............94
Nədir səbəb de, sənin duymuram səxavətini...............95

***1964***

Ey şux, bu qədər işveyi-naz eyləmə barı.......................96
Pərvanəyəm, atəşlərə yannam, kədərim var................97

***1965***

Üzündə lalələrin sevgilim, lətafəti var.........................98
Kimdir deyən sənə ey dil, bəxti qarəsən......................99

***1966***

Ey Vətən, hüsnündən ilhamlar alan el şad olar...........101

***1967***

Tükəndi səbr-qərarım nə macəradır bu......................102
Nə bahardır gözəlim, yoxdu gülü, reyhanı.................103
Güllər saralıbdırsa bu reyhan nəyə lazım...................104
Hər qara zülfə gözəlim, şanə gərəkdir.......................105

Gətirdi vəcdə məni o lalə rüxsarın..............................106
Xürşid üzünə düşsə gülüm, sayə yaraşmaz.................107
Sən ey könül çiçəyi, yar-mehribanımsan.....................108
Dünən bir namə aldım ey könül, ol mah-tələtdən.......109
Arzumdur bu mənim, dərdimi dildara deyin...............110

*1968*

Mən fəxr edirəm Azərbaycan Vətənimdir..................112
Verən hər insana, ey dil, kamalı tərbiyədir..................113
Səni eşqin gözəlim, gör necə bimar eləmiş.................114
Verdiyin hər bir sözün, ey nazənin, ilqardır................115
Bəh-bəh, nə gözəl, ətirli bir gül-çəmənin var............116
Ənbər yayan bu aləmə ey dil, zülf-yardır....................117
Sevirəm bir gözəli hüsndə min aya çatar.....................118
Sən gül gözəlim, bağda çiçəklər də gülüşsün.............119
Əgər məstanəsən hər gün, bunu meyxanədən görmə....120
Gül, lalələr olmazsa, gülüstan ola bilməz....................121
Ey kəbutər, mehrini hər yerdə avaz eylədin...............122
Ey büti-ziba, neçün sən bunca incitdin məni..............123
Hüsnün sənin, ey şux, gülə də min əsər eylər............124
Ey dil, işimiz gör nə yaman müşkülə düşdü...............125
Mən dedim canımı, ey gül, sənə qurban edərəm.........126
Dünyada kamal ilə çatar şöhrətə insan.......................127

*1969*

Salan məni bu qədər cəfaya yar özüdür.......................128
Ey dil, o dilruba Vətənin iftixarıdır............................129

Sən gedirsən gözəlim, get, elə bir qan olmaz.............130
Ey fələk, zənn eləmə, mən yox ikən var oldum.........132
Vəfasız çıxdı yarın, ey könül, gəl xara yalvarma........133
Söylə, ey dil, bax bu sirri can bilir, mən bilmirəm......134
Mənə bu naz ilə, ey gül, dünən də baxmış idin..........135
Mənə çox cövr elədin, qoy sənə qurban olsun...........136
Ey dil, səni canan nə qədər danlasa bəsdir.................137
Aşiqə ilk dəfə ilqarını canan eləmiş..........................138
Əgər eşq əhli hicranə düşərsə min qubar eylər..........139
Ey gül, səni kim vəsl elədi xarə əzldən............140
Ey gül, səni kim vəsl elədi xarə əzldən......................141
Məni ey şux, desəm səhv etmərəm ki, xalın aldatdı...142
Gör nə xoşbəxtəm ki, mən qəm mülkünə xan olmuşam.....143
Əhsən o gül cəmalə gülüstanə dönmüsən..................144
Ey mələk, fəxr eləmə səndə əda görməmişəm..........145
Ey dil, nə gözəl gündü, bu canan yenə gəldi..............146
Eşq zövqün duymayan hər kəs gərək sevdadan əl çəksin...147
Aşiq eşqilə gərək daima xəndan olsun......................148

### *1970*

Ey dost, bu cahan mülkünü avara dolanma.................149
Bülbül, de görək, sən o rəzil xarə neylədin................150
Görüm əğyarmızı zəmanə xar eləsin..........................151
Eşq zövqün duymayan cananı canan bilmirəm...........152
Niyə kəm baxdın, əzizim, gül açan mehrimizə..........153
Məcnuna kim söyləsə divanə bir əfsanədir................154
Verən hər aşiqə, ey dil, səfa məhəbbətdir.................155

Qibləm sən olmusan mənim, ey mahi-tələtim............156
Qəm eyləmə bülbül, bu gülüstan ki, sənindir..............157
Açılıb qönçə kimi aləmə şayan oldun.........................158
Sənə gözəllərin, ey şux, mahiparəsi dedilər................159
Ey mələk, min nalə etdim, yetmədin imdadıma..........160
Bu hüsnün ilə, gülüm, min könül viran olacaq............161
Mən bilirdim dönəcək il, yeni dövran olacaq.............163
Bir güli-rəna ki, hər gün min könül viran edir.............164
Get-get, gözəlim, sən məni atəşlərə yaxdın................165
Mən aşiqəm, gözəlim, eşqin olduğun bilirəm.............166
Ey dil, bu Vətən torpağı cənnətdi bizimçün................167
Saldın məni, ey şux, bu qədər möhnətə hər gün..........168
Çəkirəm min cürə zəhmət Vətənim - canım üçün......169
Sədayi bülbülə bax, gör necə fəqan eləyir...................170
Ağlama sən gözəlim, mən sənə qəmxar ollam............171
Hər sevən aşiq gərək cananına can söyləsin................172
Sən əsir etdin məni eşqində, canım səndədir..............173

### *1971*

İstəməzdim gözəlim, dəhrdə sən xar olasan...............174
Dünən gördüm gəlir o dilbəri-rəna vüqar ilə..............175
Gül ey mahim, təbiət bəxş edib min bir camalın var...176
Gəl ey badi-səba, tez gəl, o mahin tellərin oynat.........177
Bu hüsn səndə ki var gülüm, bir afətdir.......................178
Ey şux, səni mən arifi-canan kimi sevdim...................179
Bülbül, nə oldu söylə, gülüstana gəlmədin.................180
Kimin ey şux, görək axır işi əfğan olacaq...................181

Yar eşqə eyləmədi can nisar, qoy getsin......................182
Sən gəl insaf eylə ey gül, belə tüğyan eləmə..............183
Tab etmərəm, ey şux, mənə hicran qənim olsa..........184
El içində məni ey şux, nə üçün xar elədin..................185
Gəl bir bu qədər naz eləmə, ey büti-tənnaz................186

*1972*

Bax bu tərsa balası aşiq üçün cana dəyər....................187
Mən istəmirəm özgə çəmənlik, çəmənim var............188
Hər gülün, hər sünbülün bir bülbülü-şeydası var........189

*1973*

Kimə vicdanı yar olsa bizim aləmdə xar olmaz..........190
Bu ayrılıq dəmini sən nə tez xitab elədin...................192

*1974*

Nə üçün nifrət edirsən sənə can-can deyənə..............193
Mənə o zülfü qara Mahiliqadan dedilər......................195
Göstər camalını, ey şux, aşiqanələrə..........................196
Bütün gözəlləri mən istərəm ki yavər ola...................197
Bəsdir ey şuxi zaman, bir bu qədər hicranın...............198
Can alansan gözəlim, aləm olur heyranın...................199
Şöləsin gizləmisən, siz gedin o Aya deyin.................200

*1975*

Dedim ki, sən mənə, ey şux, sevimli yar olasan.........201
Hər hünər əhlində min hikmət edər iqrar söz............202

Niqabı qaldır üzündən, cəmali-aya baxım....................203
Eşqin məni saldı nə yaman dərdlərə, afət...................204

*1976*

O sürətin sənin gözəlim, Afitabdır..............................205
Hanı o günlərimiz eşq ilə münəvvər idi......................206
Baxma bu qeyz ilə gözəlim, qəlb qan olur...................207
Görürəm incimisən, ey güli-rəna məndən...................208

*1977*

Fəraqin ilə gülüm, qəddimiz kaman olacaq.................209
Hər güli-rənadan, ey dil, bir sənubər yaxşıdır.............210
Tapılmadı bu dərdimə, ey şux, çarə bilmədin.............211
Əsiri olma könül, bu zülfü qarələrin............................212

*1978*

Bivəfasan gözəlim, get, işin asan olmaz......................213
Bivəfasan gözəlim, get, inciyən deyiləm....................214
Yanıram hicr oduna, kim mənə imdad eləsin..............215
Gördüm sənin, ey şux, saralıb lalə surətin...................216

*1979*

Mən etmərəm, ey şux, səni min ayə bərabər...............217
Çəkiləm istəmirəm guşeyi meyxanələrə.....................218
Bu qədər baxma mənə, könlümü bimar eləmə............219
Ey şux, mənə hər yerdə olur yar təsəvvür...................220
Nə xoş gündə səni xəlq eyləyibdir kainat, ey gül.......221
Söylə, ey şux, sənə insaf nə zaman yar olacaq...........222

Nəzər sal, ey könül, sən bu güli-rənaya hərdənbir.....223
Gözəlim, gəl bizə sən hər gecə biz aya baxaq............224
İstəməzdim gözəlim, aləmə məşhur olasan...............226
Könlüm ey dil, belə bir arifi-cananı sevir...................227
Hər zaman aşiq gərək eşqində bimar olmasın............228
Ey şux, sənin axır ki, işin dərd-sər oldu......................229
Dünyada gülüm, sən kimi bir mah ola bilməz............230
Bu əda ilə gülüm, aləmi yandırma görək....................231
Çoxlu yalvardım o mahə, vəslə imkan olmadı...........232
Atdın odlara məni, gör necə namərd oldun................233
İndi mən hiss edirəm, dəhrdə hicran nə imiş..............234
Gözlər yenə o afəti-dövrana sataşdı...........................235
Sataşdı gözlərim yenə o mahi-tələtə...........................236
Nə xoş dəqiqədi ya rəbb, gəldi yar təcəllayə.............237
Əhsən o xaliqə ey gül, xəlq edib səni.........................238
Mən fəxr edirəm sən kimi bir mahizarım var.............239
Ey gül, insaf elə, gəl bağa gülüstan olsun...................240
İstərəm mən gözəlim, daima tənnaz olasan...............241
Nə gözəl gündü bu gün yar təcəllayə gəlib................242
Sevgim o mahə əsər etmədi, əsl kədər oldu..............243
Seçmədim sinəni ey şux, mən o gün mərmərdən.......244
Əhdini pozdu o məh eşq evi viran oldu......................245
Gözəlim, hicran ilə ömrümü tar eyləmisən................246
Get, get, gözəlim, get sənə haqq yar olsun.................247
Bir özgə yara deyil, etibara möhtacam.......................248
Həyat özü, gözəlim, inan, məhəbbətdir.....................249
İstərəm sevdiciyim afəti-dövran olsun.......................250
Məni bu hala salan dəhrdə canan oldu.......................251

Get, get, ey mahizərim, səndə ədalət görmədim.........252
Sən kimin, ey nazənin, söylə, güli-rənasısan.............253
Əndəlibin halını sordum şikayət söylədi....................254
Ey könül, dinlə görək, bülbülü-nalan oxuyur.............255

*1980*

Qəmu-hicranə, ey dil, mən əzəldən mehriban oldum.....256
Sən bu kaşanəmizə, afəti-can, xoş gəldin...................257
O məhliqayə, könül, əzəldən mehriban oldum...........259
Gəl, gəl, ey şux, mən sənin hicranına tab etmirəm......260
Bu əda ilə, gülüm, sən məni bimar elədin..................261
Gözəlim, gəl bizə sən, hər gecə biz aya baxaq...........262
İstərəm sevdiciyim xurşidi-dövran olsun...................263
Gəzirdik eşq bağını biz könül, bəşaşət ilə..................264
Gör nə xoşbəxtəm ki, ya rəbb, yar məni yad eylədi....265
Gördüm səni röyada mən ey mahi tələtim..................266
Kim sevsə bir afət ona sultan ola bilməz....................267
İnsan olana eşq, məhəbbət də gərəkdir.......................268
Ey dil, mənə bəxt söylədi bidar olacaqsan.................269
Ey dil, bizə xas olmayan adət də bəladır.....................270
Gözəlim, bir yüyürüb sən bizə gəlsən nə olar............271
Ey şux, pozulubdur deyəsən vəz qərarın....................272

*1981*

Üzümə gün işığın gündə salırsan, gözəlim.................273
Sevdayi-eşqin gətirdi məni cana, ağlama...................274
Ey gül, sən olan fəsl bahar olmaya bilməz................275

Sənə can-can dedim, ey baqi-gülüstan, nə dedin........276
Ey dil, o sərv qamətə baxmaq iftixardır......................277
Çəkirəm həsrətini gör neçə vaxtdır, gözəlim.............278
Bülbül, gülə sən hər gecə mehman olacaqsan............279
Kimdir edən mənə, ya rəbb, nalə, bilmirəm...............280
Hər anda çatır dadıma hər yerdə təfəkkür..................281
İstərəm ey nazənin, ömründə tufan olmasın...............282
Ey mələk, sevdim səni, sən bundan agah olmadın.....283
Gəl gülüm, gəl gözəlim, gəl ki, məni şad edəsən.......284
Eşq əhlinə, ey şux, belə divan eləməzlər...................285
Saraldı gözlərimin rişəsi aman, ölürəm......................286

*1982*

Sevirəm mən səni, ey şux, sənə izhar olsun..............287
Göstər üzünü dərk edim o surəti mahı........................288
Qəm eyləmə, gözəlim, bu macəralardən....................290
O nazənin ki, gedib xara etibar eləmiş........................291
Can-can dedim sənə, ey şux, sən inanmadın.............292
Sən mənə dost dedin, etdin yamanlıq bilmədim.........293
Ey mələk, axtardığın ülvi məhəbbət məndədir..........294
Bağçamızda dedim, ey şux, gül, reyhan olacaq.........295
Məni fəraq oduna yandıran gülüm, sənsən.................296
Möhnətə düşdün sən, ey dil, səbr elə tənnaz ilə.........297
Ey gözəl, çox yer gəzib, çox mahi-taban görmüşəm..298
Eşqimizdə, ey gözəl, cəhd et ki, hicran olmasın.........299
Ey qönçə dəhan, püstə dodaq, afəti dövran................300
Bir badi-səba gördüm o yardan xəbər eylər..............301

Hüquq verib sənə hüsnün ki, gündə naz edəsən..........302
O nazənin ki, məni yandırır fəraqında.........................303
Gözləməzdim, gözəlim, eşqdə sən xar olasan.............304
Məni süzdün dünən, ey dilbəri-rəna, qaş altından.......305
Ey zülfü qara, qaşları xəm, ləbləri püstə.....................306
Gördüm o qara qaşları vermişdi baş-başa....................307
Xalq ara, ey dil, inan, mən çox gədalər görmüşəm.....308
Gəl gülüm, birgə girək baqi-gülüstanımıza.................309
Sənə məndən nə demişdir de görüm, əğyarım............310
Mənə səndən dedilər, mahiliqa, şad oldum.................311
Olsam eşqindən sənin əhli biyaban neylərəm............312
Eşqimizdə nə bilim bir belə tufan olacaq....................313
Dedilər xanəmiz, ey şux, gülüstan olacaq...................314

***1983***

Səhn gülzarın, əzizim, eyləmiş lal məni......................315
Bəh-bəh nə vüqar ilə gəlir, mahiparədir.....................316
Bülbüləm gülşənə girdim, mənə rast xar oldu............317
Səhn gülzarda bülbül kimi əfqan elədim.....................318
Dildara dedim eşqimi biganə eşitdi............................319

***1984***

Aldın qərarı-səbrimi ey mahi-tələtim..........................321
Üzünü nuş eylədikcə yadıma gülşən düşür.................322
Ey şux, sənə bənzər belə bir can ola bilməz..............323

### 1985

Ey nazənin, sənə mən badi-səba demişəm.................324
Uçuldu dərd, qəm ilə mehriban olan könlüm.............325
Mənə bu dəhrdə ey gül, mehriban olan sənsən..........326
Şakirəm, ey dilruba, nasutidə var olmusan.................327
Sevindi gözəlim, ey dil, görəndə mahizarı.................328
Gözlərin, ey şux, sənin aləmdə bir əfsanədir.............329
Yanıram eşq oduna dəhrdə pərvanə kim....................330

### 1986

Gəl indi sən gözəlim, çəkmə imtahana məni.............331
Etibar səndə imiş, afəti dövran oldu...........................332
O nazlı yar ilə mən gündə iltifat edirəm.....................333
Açılıb güllərin, ey şux, gülüstan kimisən...................334
Atmısan sən gözəlim, atəşi-hicrana məni...................335
Min çiçək gördüm, içində sən tək afət görmədim......336
İstəməzdim səni mən afəti-can, xar olasan...............337

### 1987

Ey dil, nə gözəl töhfədir insana təxəyyül...................338
Bəh-bəh, nə əcəb qönçə ləbin, gül yanağın var.........339
Sevirəm mən səni ey şux, sənə agah olsun................340

### 1988

Kimə ey gül, de görüm, əsl səadət verdin...................341
Bu sözlərin, gözəlim, bir bəhanədir...........................342
Ey pir, yamandı bu təklik yoxdu çarəsi......................343

Zənn etmə könül, bu gözəl əhli-haldır........................344
Borcluyam hər şeydən əvvəl, ey könül, vicdanıma.....345

*1989*

Ayrılmaq istəmir könül ey dil, nazlı yardan.................346
Foto-qalereya.............................................................347
Təltifləri və bəzi dövlət sənədləri..............................358
Lüğət.......................................................................368